www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 26 sentyabr 2016-cı il Bazar ertəsi № 211 (6532) Qiyməti 60 qəpik

**Xəbər**

## Göygöldə toy karvanında qəza - 1 ölü, 7 yaralı

yazısı səh.14-də

**Gündəm**

### Bu gün Azərbaycanda referendumdur



Seçkiləri beynəlxalq və yerli müşahidəçilər izləyəcək; prezident İlham Əliyev xarici müşahidəçiləri qəbul edib; referendum günü şəxsiyyət vəsiqələri üçün sənədlərin qəbulu da keçiriləcək

yazısı səh.3-də

### Azərbaycan irimiqyaslı hərbi təlimlərə hazırlaşır

yazısı səh.9-da

### Hakimiyyətə yaxın deputat ABŞ-ı Azərbaycana təhlükə adlandırdı

yazısı səh.6-da

### Ermənistan sülh səylərini sabotaj edir - işğalçı təzədən inkarçı mövqeyə köklənib

yazısı səh.11-də

### Ərdoğan Rza Zərrabın həbsinə qarşı çıxdı - "6 aydır ABŞ-da qanunsuz saxlanılır"

yazısı səh.3-də

*Şəhid atası:*

### "Oğlumun adının ləkələnməsinə dözə bilmərəm"

yazısı səh.13-də

### Deputatdan ölkəmizlə bağlı önəmli xəbərdarlıq

yazısı səh.9-da

*Nevropatoloq Qalib Əsədov:*

### "Cəmiyyətdəki aqressiya savadsızlıqdan qaynaqlanır"

yazısı səh.12-də

### Putinin siyasi varisinin kimliyi bəlli olur - keçmiş cangüdən...

yazısı səh.10-da

### Bakı-Sumqayıt şosesində 1 km yolun təmiri 4 aydır bitmir

yazısı səh.15-də

## Müdafiə və Qarabağ strategiyamızda mühüm gəlişmə

# ERMƏNİ-RUS TƏHLÜKƏSİNƏ QARŞI BAKININ "SEHRLİ ÇUBUQ"U - "DƏMİR GÜNBƏZ"İ DAHA ETİBARLISI ƏVƏZLƏYİR...

Azərbaycan işğalçı ölkənin hərbi paritet yaratmasına heç vaxt imkan verməyəcək, bu yöndə İsrail vazkeçilməz müttəfiq-tərəfdaşa çevrilməkdədir; ilin sonunadək bu dövlətdə səfirliyimiz açılsa, təəccüblü olmayacaq; **yəhudi politoloq:** "Bakı İsrailin müasir sistemləri hesabına "İsgəndər" raketləri də daxil, havadan bütün hücumları dəf edəcək"




yazısı səh.8-də

# Həbsdəki MTN generalı qəzəbli məktub yazdı - "Öləræmsə..."

**Həbsdəki general xərçəng xəstəsi imiş:** "2011-ci ildən bu xəstəliyik əziyyət çəkirəm; ...mədəm, öd kisəm və bütün limfa vəzilərim amputasiya olunaraq götürülüb"

yazısı səh.5-də



### Sahib Kərimli AXCP-də qaldı, amma yenə rəhbərliyi tənqid etdi

yazısı səh.3-də



*Qənirə Paşayeva:*

### "Qadına qarşı zorakılıqla bağlı cəzalar sərtləşdirilməlidir"

yazısı səh.4-də



*Fəzail Ağamalı:*

### "Çalışırlar ki, ölkəmizi cəzalandırsınlar"

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 211 (6532) 26 sentyabr 2016



# Mosula hücumun vaxtı açıqlandı - 19 oktyabr

**İraq ordusu və Şimali İraq Kürdüstan Muxtariyyətinin silahlı birləşmələri (peşmərgə) Mosul şəhərinin İŞİD terror təşkilatından azad edilməsi üçün oktyabrın 19-da əməliyyata başlamağı planlaşdırır.**

Türkiyənin "Yeni Şafak" qəzetinin verdiyi məlumata görə, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ-dan Türkiyəyə qayıdarkən təyyarədə jurnalistlərə açıqlamasında bildirib. Ərdoğan ərəblərlə peşmərgənin bu əməliyyatda həmrəy şəkildə iştirak etməsinin vacib olduğunu vurğulayıb.

Mosul şəhəri və ətrafı 2014-cü ildən İŞİD-in nəzarətindədir.

# İsveçlilər Nobelə görə Bakıya gəlir

**İsveçli həvəskarlar qrupu Azərbaycanda "Nobel qardaşlarının neft istehsalı ortaqlığı" şirkətinin irsini öyrənmək məqsədilə əlaqələri qaydaya salmaq üçün Bakıya səfər edəcək. Axar.az xəbər verir ki, bu haqda İsveçin "Nya Vermlands-Tidningen" qəzeti məlumat yayıb.**

Məqalədə qeyd edilir ki, Alfred Nobelin qardaşları Robert və Lyudviq çox məşhur olmasalar da, onların biznes fəaliyyəti uğurlu alınmışdı. 1876-cı ildə qardaşlar müasir Azərbaycanın ərazisində "Nobel qardaşlarının neft istehsalı ortaqlığı" adlı böyük neft şirkəti yaratdılar. Qısaca "BraNobel" adlanan bu şirkət sayəsində böyük sənayeçilərə çevrildilər.

Karlskuq şəhərindəki Nobel muzeyinin direktoru Xans Yoxanssonun qəzetə verdiyi müsahibədə qeyd etdiyi kimi, "bu nəhəng şirkət o vaxtlar "Standard Oil" kimi şirkətlərlə rəqabət aparırdı". Muzeyin rəhbəri vurğulayıb ki, Nobel qardaşlarının şirkəti Rusiya inqilabından dərhal sonra milliləşdirilsə də, bir müddət öz fəaliyyətini davam etdirib. Xans Yoxansson qeyd edib, Bakıda bu şirkətin fəaliyyəti haqqında xatirələr indiyə qədər qalır.

Xans Yoxansson deyib: "Azərbaycanda Nobel irsi ilə çox fəxr edirlər. Buna görədir ki, şirkətin əsas binası - "Villa Petrolea" hələ də qorunub saxlanılır və hazırda muzey kimi fəaliyyət göstərir. İnsanların xatirələrini dinləmək, qorunub saxlanmış muzeyi görmək maraqlı olacaq. Ümidvarıq ki, əlaqə yarada biləcəyik".

Qeyd edək ki, Azərbaycana gələcək on nəfərlik qrupun tərkibinə Karlskuq şəhərinin Nobel muzeyinin əməkdaşları və bu şəhərin İşgüzar İnsanlar Klubunun üzvləri daxildir.

# Bu gün hava necə olacaq?

**Sentyabrın 26-da Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Ekologiya Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, günün birinci yarısında yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var.**

Gündüz cənub küləyi əsəcək. Havanın temperaturu nun gecə 15-18° isti, gündüz 20-24° isti, Bakıda gecə 15-17° isti, gündüz 21-23° isti olacağı gözlənilir. Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu, nisbi rütubət gecə 80-90 %, gündüz 60-70 % təşkil edəcək.

Azərbaycanın rayonlarına gəlincə, sabah hava şəraiti əsasən yağmursuz olacaq. Səhər ayrı-ayrı yerlərdə duman olacağı, şərq rayonlarında qısamüddətli yağış yağacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10-15° isti, gündüz 21-26° isti, dağlarda gecə 2-7° isti, gündüz 11-16° isti olacağı gözlənilir.

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;

- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;

- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**

# "Ömürlük məhbuslar cavab gözləyir"

**Ömürlük Məhbusların Hüquqlarını Müdafiə Komitəsi növbəti toplantısını keçirib. Musavat.com-un xəbərinə görə, iclasda bir sıra məsələlərə baxılıb. Müdafiə Komitəsinin rəhbəri, Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı bildirib ki, 2 həftə əvvəl dövlət başçısı İlham Əliyevə ömürlük həbs cəzasının müddətli həbs cəzası ilə əvəz olunması və digər məsələlərlə bağlı müraciət olunub: "Həmin müraciətə cavab gözləyirik. Ümid edirik ki, prezident ömürlük məhbusların taleyinə biganə qalmayacaq, məsələyə müsbət reaksiya verəcək".**



İclasda bir sıra digər məsələlərə də diqqət yetirilib. Xüsusi olaraq vurğulanıb ki, Cinayət Məcəlləsinin 57.3 maddəsinə görə, 25 ildən çox həbsdə olan ömürlük məhbusların işinə məhkəmədə yenidən baxıla və qərar dəyişdirilə bilər. Çox təəssüf ki, bu maddə formal olaraq qalır, bu günə kimi heç bir məhbusa şamil edilmir, çox vaxt məhkəmələr bu işlərə heç baxmaq da istəmirlər. Konkret olaraq, son günlərdə ömürlük məhbuslar Elçin Əmiraslanov, Arif Kazımov və Səfa Poladovun işinə Qaradağ rayon məhkəməsində heç bir əsas gətirmədən baxmaq istəməyiblər.

**"Başqa bir məsələ də narahatlıq doğurur ki, Qobustan həbsxanasında ömürlük məhbuslara pulsuz etibarnamənin verilməsi üçün əngəllər yaradılır, qanunsuz olaraq onlardan rüsum tələb olunur",- deyə iclasda bildirilib. "Bir məsələni prezidentin və cəmiyyətin nəzərinə xüsusi olaraq çatdırmaq istəyirik ki, hazırda həbsdə yatan ömürlük məhbusların əksəriyyətindən vaxtilə müxtəlif hüquq-mühafizə orqanlarının işçiləri tərəfindən daha az iş vermək şərtilə pul tələb olunub, verə bilmədikləri üçün bu cür ağır cəza alıblar. Belə bir paradoks yaranır ki, onlar pulları olmadığına görə həbsdə yatırlar. Bu, bir faktdır, hamının bildiyi faktdır. İstərdik ki, prezidentimiz məsələnin bu tərəfini də bilsin"**, - deyə A.Nağı qeyd edib.

# Şok işğal açıqlaması: "Türkiyəyə 10 min piyada girəcək"

**FETÖ yaxın müddətdə Türkiyədə növbəti dəfə dövlət çevrilişinə cəhd edəcək. Axar.az xəbər verir ki, bu sözləri pensiyada olan polkovnik Həsən Atilla deyib.**

"ABŞ-ın dəstək verdiyi qiyamçılar geri çəkilməyə məcbur oldu. Terrorçulara qarşı aparılan intensiv əməliyyata baxmayaraq, təhlükə hələ də keçməyib. Növbəti çevrilişə hazır olun, çox yaxın zamanda baş verə bilər. Bu, dəqiq məlumatdır. İkinci çevriliş daha qanlı, şiddətli olacaq. Mən sizin vasitənizlə Türkiyəni xəbərdar edirəm. Belə düşünürlər ki, artıq Türkiyə relsinə oturdu, daha bir şey baş verməyəcək. Amerika da daha nəsə gözləmir. FETÖ səssiz qalacaq, PKK daha heç bir şey edə bilməyəcək, onların beli qırdıq. Belə düşünmək bizləri tamamilə uğursuzluğa aparır. Parçalanırıq", - Atilla qeyd edib.

Atilla Kiprdə olan 10 min dəniz piyadasının Türkiyəyə girmə təhlükəsinin yaşandığını vurğulayıb: "3-4 gün əvvəl İngiltərənin "Deyli Ekspress" qəzeti bir xəbər dərc edib. Deyir ki, Türkiyədə ikinci xaos olacaq. Bizim Kiprdə yerləşən 10 min dəniz piyadası Türkiyədə olan 50 min ingilisin təhlükəsizliyi üçün Türkiyəyə girəcək, Türkiyədə etibarlı bölgələr yaradacağıq. Vətəndaşlarımızı hava yolu ilə azad edəcəyik. Baxın, bu bir işğal planıdır. Burada əsas məqsəd işğaldır".




# Masallıda pensiyaçılar etiraza çıxdı, yol bağlandı

**Masallı şəhərində pensiya alanların "Kapitalbank"ın bankomatlarından pul çəkə bilməməsi narazılığa səbəb olub. Musavat.com Cenubnews.com internet portalına istinadən xəbər verir ki, bu səbəbdən etirazçılar bankın rayon mərkəzində bölməsi qarşısında yolu bağlayıblar.**

Sakinlərin sözlərinə görə, əsas narazılıq rayon üzrə "Kapitalbank"ın cəmi 3 *(hazırda ikisi fəaliyyət göstərir)* bankomatının olmasıdır. Nəticədə insanlar günlərlə aparatın qarşısında növbədə dayanmalı olurlar. Digər tərəfdən, bankomatlarda lazımı məbləğdə pul olmur ki, bu da əhalinin narazılığını daha da artırır. Halbuki, sakinlərdən xəstəsi olan da var, dərman alınmalıdır, amma pul yoxdur.

Məlumata görə, yol bağlandıqdan sonra əraziyə polis əməkdaşları cəlb edilib. Bir neçə nəfər saxlanılsa da, sonradan onların sərbəst buraxıldıqları deyilir.

❑ **NURLAN**

# Kreml müharibəyə başlayacaq

**Kreml daxili problemlərin böyüməsi səbəbindən Donetskdə aktiv döyüş əməliyyatlarının yenilənməsinə başlayacaq. Axar.az xəbər verir ki, bu sözləri Razumkova Hərbi Proqram Mərkəzinin direktoru, polkovnik Nikolay Sunqurovski deyib.**

"Əgər hərbi fəallıq olacaqsa, hədəflərə doğru zərbələrin olması realdır. Bu, gizli şantajdır. Rusiya Ukraynanı siyasi güzəştlərə getməyə məcbur etməyə çalışır. Kreml sadəcə Kiyevdə siyasi iradənin çatışmazlığına bel bağlaya bilər. Əgər Moskva Ukraynanın siyasi destabilizasiyasına nail olmağı bacararsa, hədəfinə doğru mühüm addım atmış olacaq", - Sunqurovski qeyd edib.



# 51 yaşlı kişi Xəzərdə batdı

**Dünən Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə Bakı şəhəri, Suraxanı rayonunda dənizdə (ən yaxınlıqdakı xilasetmə məntəqəsindən 5 km aralı, nəzarətsiz ərazidə) 1 nəfərin batması barədə məlumat daxil olub.**

Virtualaz.org nazirliyin saytına istinadən xəbər verir ki, dərhal Dövlət Sularda Xilasetmə Xidmətinin dalğıc-xilasedicləri hadisə yerinə cəlb olunub və 1965-ci il təvəllüdlü, Ağamirzəyev Şaiq Şahmirzə oğlunun cəsədi batdığı yerdən 30 metr aralıda tapılıb çıxarılaraq aidiyyəti üzrə təhvil verilib. Əməliyyat saat 14:05-də başa çatıb.

# 7 rayon və 1 şəhərin maşın nömrələri dəyişdiriləcək

**Naxçıvanda mövcud olan nəqliyyat vasitələrinin dövlət qeydiyyat nişanlarının dəyişdirilməsinə başlanılıb. Naxcivanxeberleri.com saytı xəbər verir ki, məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin rəisi, polis polkovnik-leytenantı Aydın Ağayev açıqlama verib.**

O bildirib ki, Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq muxtar respublikanın rayonlarına aşağıdakı seriya nömrələri verilib: Babək - 67, Şərur - 68, Ordubad - 69, Şahbuz - 71, Culfa - 72, Sədərək - 73, Kəngərli - 74, Naxçıvan şəhəri - 75.

Rəis həmçinin bildirib ki, muxtar respublika rəhbərliyinin tapşırığına əsasən, nəqliyyat vasitələrinin dövlət nömrə nişanlarının dəyişdirilməsi üçün heç bir dövlət rüsumu, ödəniş tələb olunmur və bu proses tədricən həyata keçiriləcək.

**Qeyd edək ki, bir müddət əvvəl 85 seriyası bütün Naxçıvan Muxtar Respublikasının vahid dövlət qeydiyyat nişanı kimi qəbul olunmuşdu (lent.az).**

Yeni MÜSAVAT
N 211(6532) 26 sentyabr 2016

# Bu gün Azərbaycanda referendumdur

## Seçkiləri beynəlxalq və yerli müşahidəçilər izləyəcək; prezident İlham Əliyev xarici müşahidəçiləri qəbul edib; referendum günü şəxsiyyət vəsiqələri üçün sənədlərin qəbulu da keçiriləcək



**Bu gün Azərbaycan Respublikasının Konstitusiyasına ediləcək əlavə və dəyişikliklərlə bağlı ümumxalq səsverməsi (referendum) keçiriləcək. Sentyabrın 25-i səhər tezdən saat 08:00-dan etibarən referendumla əlaqədar təşviqatın aparılması üçün sentyabrın 3-dən ayrılan müddət başa çatıb.**

**Seçki Məcəlləsinin tələblərinə əsasən, sentyabrın 26-da Azərbaycan ərazisində qeyri-iş günü olacaq.**

“Sentyabrın 26-da Azərbaycanda keçiriləcək ümumxalq səsverməsi üçün bütün işlər nəzərdə tutulduğu kimi vaxtında və yüksək səviyyədə yekunlaşıb.

“Report” xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov sentyabrın 25-də keçirdiyi mətbuat konfransında deyib.

Onun sözlərinə görə, dairələr bütün texniki vasitələrlə təchiz edilib ki, bütün məlumatları operativ şəkildə MSK-nın internet saytına ötürə bilsinlər: “Ölkədə fəaliyyət göstərən KİV-lər də görülən işləri aşkar şəkildə müşahidə edə biləcəklər. Polis orqanları ilə də sıx əməkdaşlıq edilib. Təlimlər keçirilib və onlara bütün lazımı göstərişlər verilib. Eyni zamanda, Penitensiar Xidmətin əməkdaşları üçün də təlimlər olub. Media nümayəndələrinin seçki günü necə işləməli olduğu izah edilib”.

MSK sədri onu da qeyd edib ki, referendum seçkisi ilə əlaqədar 38 konsul və xarici səfirliklərin nümayəndəliklərində seçki məntəqələri yaradılıb: “Hesab edirəm ki, sabah səsvermə zamanı heç bir problem yaranmayacaq. Məntəqələrin hamısı müşahidəçilər və KİV nümayəndələri üçün açıqdır. Akreditasiyadan kimsə keçibsə, o da rahat şəkildə müşahidə apara biləcək”.

**Məzahir Pənahov, həmçinin vurğulayıb ki, seçki prosesində əsas komponentlərdən biri də məhz müşahidəçilərdir. MSK sədri bildirib ki, seçkini 117 beynəlxalq müşahidəçi izləyəcək:** “Seçkini izləmək üçün 16 ölkənin mətbuat nümayəndəsi ölkəmizə gələcək. Bundan başqa, 53 min 531 yerli müşahidəçi akkreditasiyadan keçib. Onlardan 1097 nəfəri MSK-da qeydiyyatdan keçib. Həmin şəxslər həm paytaxtda, həm də bölgələrdəki seçki prosesini müşahidə edə bilərlər. Yerdə qalan 52 min 434 nəfər isə dairə seçki komissiyalarına müraciət edib. Eyni zamanda 34 min nəfərə yaxın şəxs öz təşəbbüsü ilə müraciət edib. 2 min 700 şəxs siyasi partiyalar tərəfindən təqdim olunub. QHT-lər 1046 nəfər təqdim edib.

Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyasının (MDB PA) Azərbaycan Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı ümumxalq səsverməsinə hazırlıq və onun təşkilinin monitorinqinin həyata keçirilməsi üçün beynəlxalq müşahidəçilərdən ibarət missiyası Bakıya gəlib.

Missiyanın tərkibinə MDB PA-nın iştirakçısı olan 6 dövlətdən (Belarus, Qazaxıstan, Qırğız Respublikası, Moldova, Rusiya və Tacikistan) parlamentarilər və ölkələrin ali qanunverici orqanlarının nümayəndələrindən ibarət 22 müşahidəçi, eləcə də MDB PA Şura Katibliyinin əməkdaşları və MDB PA-nın Demokratiyanın, parlamentarizmin inkişafının və vətəndaşların seçki hüquqlarına riayət olunmasının Monitorinqi Beynəlxalq İnstitutunun ekspertləri daxildir.

## Məzahir Pənahov: “Səsvermə zamanı heç bir problem yaranmayacaq”

MDB PA-nın beynəlxalq müşahidəçiləri seçki günü Bakı və Sumqayıtda, eləcə də Abşeron rayonunun yaşayış məntəqələrində seçki məntəqələrində referendumun gedişatının monitorinqini həyata keçirəcəklər.

Nümayəndə heyəti prezident İlham Əliyevlə görüşüblər. Sentyabrın 25-də həmçinin, prezident referendumu müşahidə etmək üçün Bakıda olan Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Referendumu Dəyərləndirmə Missiyası nümayəndə heyətini qəbul edib.

APA-nın məlumatına görə, dövlət başçısı keçiriləcək referendumla bağlı Azərbaycan hökumətinin maksimum şəffaflığın təmin edilməsi üçün işlər gördüyünü bildirib.

Prezident qeyd edib ki, Azərbaycan xalqı azad şəkildə öz iradəsini ifadə edəcək və bunun üçün bütün tədbirlər görülüb. Dövlət başçısı Avropa Şurası Parlament Assambleyasının Referendumu Dəyərləndirmə Missiyasının ölkəmizə böyük nümayəndə heyəti ilə səfər etməsinin əhəmiyyətini vurğulayaraq, ölkəmizin Avropa Şurasının çox fəal üzvü olduğunu, 15 ildən artıq müddətdə bu təşkilatla tarixi əməkdaşlıq həyata keçirdiyini məmnunluqla qeyd edib.

Missiyanın rəhbəri Aleksandr Nikoloski başçılıq etdiyi nümayəndə heyətinə müxtəlif siyasi qrupların daxil olduğunu nəzərə çatdırıb. A.Nikoloski referendumu müşahidə etmələri üçün yaradılan şəraitə görə Azərbaycan rəhbərliyinə, Azərbaycan parlamentinə minnətdarlığını bildirib. O, referendumun keçirilməsi üçün bütün lazımi şəraitin yaradıldığını söyləyib: “Azərbaycan Avropa Şurası üçün çox önəmli ölkədir”.

Nümayəndə heyəti Milli Məclisdə də olublar. Onlar parlamentin sədri Oqtay Əsədovla görüşüblər. Əsədov AŞPA-nın Dəyərləndirmə Missiyasının ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə olan ümumxalq səsverməsini müşahidə etməsinin önəmini qeyd edib.

Missiyanın rəhbəri Aleksandr Nikoloski AŞPA müşahidəçilərinin ölkəmizdə keçirilən bütün prezident və parlament seçkilərini, eyni zamanda, referendumları izlədiklərini söyləyib

Onu da bildirək ki, 26 sentyabr referendum günü şəxsiyyət vəsiqəsinin alınması üçün sənədlərin qəbulu keçiriləcək.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, 2016-cı il sentyabrın 26-na təyin edilmiş referendum günü ilə əlaqədar həmin günün qeyri-iş günü olmasına baxmayaraq, Daxili İşlər Nazirliyinin şəhər-rayon polis orqanlarının müvafiq qurumlarında şəxsiyyət vəsiqəsinin alınması üçün sənədlərin qəbulu səhər saat 8.00-dan axşam saat 20.00-dək həyata keçiriləcək.

Azərbaycan Mətbuat Şurası referendumda jurnalistlərin prosesi işıqlandırmalarının monitorinqini aparacaq. Qurumdan musavat.com-a daxil olan məlumatda bildirilir ki, bu məqsədlə Şuranın İdarə Heyətinin üzvləri paytaxtda və bölgələrdəki dairə və məntəqə seçki komissiyalarına baş çəkəcəklər. Onlar həmçinin jurnalistlər üçün yaradılmış şəraitlə tanış olacaq, ümumən səsvermənin gedişini də müşahidə edəcəklər.

Bundan başqa referendum günü Mətbuat Şurasında qaynar xətt yaradılacaq. 012 441 35 30 nömrəli şəhər, 055 201 99 26 saylı mobil telefon nömrəsi saat 8.00-dan 19.00-dək bu rejimdə fəaliyyət göstərəcək. Referendumu işıqlandıracaq jurnalistlər işləri ilə bağlı hər hansı xoşagəlməz durumla üzləşdikləri halda qeyd edilən telefon nömrələrinə zəng edib fikirlərini bildirə bilərlər.

**Mətbuat Şurası referendum günü jurnalistlərin prosesi sərbəst şəkildə işıqlandırmaları üçün Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası və müvafiq dövlət qurumları ilə sıx əlaqədə olacaq. Medianın peşə vəzifəsinin icrası ilə bağlı hər hansı çətinliyi yaranacağı təqdirdə onun dərhal aradan qaldırılması təmin ediləcək.**

❑ Cavanşir ABBASLI

# Sahib Kərimli AXCP-də qaldı, amma yenə rəhbərliyi tənqid etdi

## AXCP-nin Şəki şöbəsi sabiq müşaviri partiyada saxladı; amma təhlükə səngiməyib

**“Milli Şura rəhbərliyi dinləmədən qərar verir, dinləmək demokrat mədəniyyətidir”**



**AXCP sədri Əli Kərimlinin keçmiş müşaviri, sabiq siyasi məhbus Sahib Kərimlinin partiya sıralarından xaric oluna biləcəyi barədə xəbər vermişdik. AXCP funksionerinin iştirakı ilə üzvü olduğu Şəki rayon şöbəsinin iclası keçirilib.**

S.Kərimlinin partiya rəhbərliyinin təsiri ilə çıxarılacağı gözlənilsə də, əksi baş verib. Rayon təşkilatının üzvləri onun qurumda saxlanılmasına qərar veriblər.

**İclas barədə sabiq müşavir özünün facebook səhifəsində status paylaşıb:** “Dostlar, AXCP Şəki rayon şöbəsinin Məclisi toplaşdı, məlum müzakirələr oldu. Cəbhəçi dostlarım danışdı, iradlarını, tənqidlərini, mövqelərini bildirdilər. Mən də fikirlərimi söylədim, suallara cavab verdim, mədəni müzakirə apardıq. Partiyadan çıxarılmamla bağlı məsələnin müzakirəsi - hüquqi və siyasi əsasları, partiya üzvünün necə davranması, nizamnamə və məramnaməyə uyğunluqlar, partiyadaxili demokratiya, gözdənsalma ilə sağlam tənqidi ayıra bilmək bacarıqları və s. kimi maraqlı mövzularla iç-içə oldu. Sərt cəza tərəfdarı olan dostlarımla münasibətimiz daha da səmimiləşdi. Qarşılıqlı anlayış göstərdik. Bütün dostlar mənəvi və el-oba anlayışlarına kökləndiyinə görə, tolerant idilər. Məsələnin gündəliyə salınması tərəfdarı dostlarla, rayon şöbəsini bu məsələyə qatılmasının tərəfdarı olmayan dostlar bərabər sayda idilər. İradlarını dinlədiyim dostlara söz verdim ki, sağlam tənqidlə, qərəzli gözdənsalmanın arasındakı məsafəni tamamilə uzaqlaşdıracam.

Partiya rəhbərliyindən də xahiş edirəm ki, Şəki cəbhəçiləri kimi demokrat və tolerant olsunlar. İradlar ola bilər, haqlı və ya haqsız. Dinləmək isə, olduqca vacibdir. Milli Şura rəhbərliyi dinləmədən qərar verir, dinləmək demokrat mədəniyyətidir. Partiyadan çıxarılmamı israrla istəyən rəhbərlik belə qənaətə gəlsə, dinlədikdən sonra qərar versin. Dostcasına normal müzakirələr edək".

**Qeyd edək ki, günlər öncə S.Kərimli Milli Şura rəhbərliyi tərəfindən qurumdan xaric olunmuşdu. Ondan sonra Kərimlinin AXCP-dən də çıxarılacağı gözlənirdi. Keçmiş siyasi məhbusa hücumların artmasına səbəb onun Milli Şura rəhbərliyini tənqid etməsi ilə bağlı verdiyi müsahibələrdir.**

❑ Cavanşir ABBASLI

# Ərdoğan Rza Zərrabın həbsinə qarşı çıxdı - “6 aydır ABŞ-da qanunsuz saxlayırlar”



**Türkiyə prezidenti Rəcəb Tayyip Ərdoğan Nyu-Yorkda BMT-nin sammitindən qayıdarkən təyyarədə jurnalistlərlə söhbət edib. Lent.az Türkiyə mediasına istinadən xəbər verir ki, Ərdoğan söhbət zamanı bir sıra vacib məsələlərlə, eləcə də bir müddət əvvəl ABŞ-da həbs edilən tanınmış iş adamı Rza Zərrabla bağlı məsələyə münasibətini açıqlayıb.**

“Baydenlə görüşdə Rza Zərrab məsələsini də gündəmə gətirdim. O, Türkiyə vətəndaşıdır və ailə üzvləri ilə birgə ABŞ-a daxil olarkən həbs edilib. Həyat yoldaşı və övladı isə deportasiya edilib. Baydendən bu həbsin hansı qanuna əsasən həyata keçirildiyini soruşdum. Bizim vətəndaşımız olduğu üçün onun hüququnu müdafiə etməliyik. Həbs edilən Rza Zərrab deyil, digər bir vətəndaş da ola bilərdi. Digər tərəfdən isə, Türkiyənin həm Ədliyyə, həm də İqtisadiyyat nazirliklərinin apardığı araşdırmalar bu şəxsin qanundankənar iş görmədiyini göstərir. İran da eyni mövqedədir. Amma bütün bunlara baxmayaraq Rza Zərrab 6 aydır ki, həbsdə saxlanılır”.

**Türkiyə prezidenti ABŞ-da Rza Zərrabı mühakimə edən məhkəmə heyətinin tərkibinə diqqət çəkib və onların FETÖ qruplaşması ilə əlaqəli olduğunu deyib:** “Prokuror Bharara da, hakim Riçard Berman da Türkiyədə daha əvvəl olublar və FETÖ tərəfindən qonaq ediliblər. Yəni Rza Zərrabı ABŞ-da tutub FETÖ-nün yedirdib-içirdiyi adamlara təhvil veriblər. Bayden isə "bu qədərini bilmirdim" dedi. Onlar hüquqla məşğul deyillər, münasibətlərin arxasında başqa şeylər axtarırlar. Qəribədir, ittihamnamədə TOGEM birliyinin yaradanların arasında həyat yoldaşımın da olduğu və mənim də bu təşkilatla əlaqələrimin olduğu yazılır. Amma o dərnəyi yaradanlar arasında nə mən varam, nə də həyat yoldaşım. Bütün bunların gündəmə gəlməsi hansısa çirkin niyyətin göstəricisidir".

Yeni MÜSAVAT
N 211 (6532) 26 sentyabr 2016

# "Qadına qarşı zorakılıqla bağlı cəzalar sərtləşdirilməlidir"

## Qənirə Paşayeva Aliment Fondunun yaradılmasını təklif edir

**Millət vəkili, parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Qənirə Paşayeva "Yeni Müsavat" qəzetinə müsahibə verib. Müxbirimizlə söhbətində Azərbaycanda qadınların problemlərindən, selekiv abortların, erkən nikah və boşanma hallarının artmasından danışan deputat cəmiyyəti bu məsələlərdə həssas olmağa səsləyib.**



***- Qənirə xanım, sizcə, Azərbaycanda qadınların zorakılığa məruz qalmasının, qətlinin və intihara meyllənməsinin səbəbləri nədir və bu səbəbləri necə aradan qaldırmaq olar?***

- Ən vacib səbəb cəmiyyətdə qadına olan münasibətdir. Biz qadın münasibətimizi qiymətləndirməyə elə ana bətnindən başlamalıyıq. Çox təəssüf ki, hamiləlik dövründə cinsi seleksiya halları artmaqdadır. Biz bununla bağlı SOS siqnalı çalmalıyıq. Çünki problemin böyüməsi gələcəkdə genefondumuzun zədələnməsinə gətirib çıxaracaq. Bir çox ailələr var ki, az övlad dünyaya gətirmək istəyirlər. Bu az övlad içərisində də oğul övladlarının olmasını istəyirlər. "Oğul nəslin davamçısıdır" anlayışı var bizim cəmiyyətdə və sair. Qız övladın ana bətnində abortlarla məhv edilməsi prosesi artıb. Biz bu məsələni Milli Məclisdə də qaldırdıq və bəzi qanunlara əlavə və düzəlişlər də gündəmə gəldi. Həkimlərə ciddi şəkildə çağırış oldu ki, bu məsələyə artıq fərqli yanaşma ortaya qoymaq lazımdır. Artıq məsələyə bu şəkildə yanaşmalıyıq ki, buna yol verənlər ciddi şəkildə cəzalandırılmalıdır. Uşaqların ana bətnində cinsiyyətinin məlum olduğu zamandan sonra məhv edilməsi beynəlxalq təcrübədə də yolverilən hal deyil. Bir çox ölkələrdə də hamiləliyin cinsiyyətin bəlli olduğu ayı var, o vaxtdan sonra aborta yol verilmir. Ancaq çox təəssüf ki, bizdə bu proses gedirdi və ana sağlamlığını da məhv edirdi. Bu qadınlara qarşı zorakılığın başlanğıc nöqtəsidir. Qanunvericiliyimizdə müəyyən dəyişikliklərin edilməsi gündəmdədir. Ancaq əsas məsələ odur ki, cəmiyyətlə iş aparılmalıdır. Əsas məqsəd övladın qız və ya oğlan olması deyil, məqsəd yaxşı övlad yetişdirmək olmalıdır. Bu selektiv abortlar demoqrafik göstəricilərə də yansıyıb. Son illərin statistikasına baxsaq, oğlanların sayı artır, qızların sayı azalır. Bu statistika elə bu istiqamətdə də davam etsə, problemin gələcəyini düşünmək mümkündürmü? Biz bəzi ölkələrin bu sahədəki təcrübəsindən dərs çıxartmalıyıq və buna yol verməməliyik.

***- Xüsusən regionlarda yaşayan ailələrdə qızların başqa bir problemi də təhsillə bağlıdır. Təhsildən yayındırılan yeniyetmə qızların ərə verilməsi hallarının qarşısını necə almaq olar?***

- Qızların təhsilinə çox ciddi yanaşılmalıdır. Söhbət formal təhsildən, məktəbə gedib-gəlməkdən getmir. Bu məsələdə ən böyük əngəllərdən biri erkən nikah problemidir. Bu cəmiyyəti ən çox narahat edən problemdir. Artan tendensiya bizi çox narahat edir. Bu problem sonrakı mərhələdə insan alverinə, qadın alverinə , məişət zorakılığına qədər aparıb çıxarır. Zorakılığın

### "Təhsilsiz, savadsız, işi olmayan qadınlar daha çox zorakılığın qurbanına çevrilir"

qurbanları daha çox kimlər olur? Təhsilsiz, savadsız, işi olmayan qadınlar daha çox zorakılığın qurbanına çevrilir. Təhsilli, savadlı, hüquqlarını bilən, işləyən, maddi baxımdan öz ayaqları üzərində duran qadınlar arasında zorakılığa məruz qalma halları daha azdır. Ona görə də, erkən nikahlar məsələsi bizi narahat edirdi və bundan sonra nikah üçün yaş həddi qaldırıldı. Ümid edirəm ki, bununla bağlı aidiyyəti qurumlar da ciddi çalışacaqlar. Nikah üçün yaş həddi 18 olduğundan bu, rəsmi nikahdan kənar evliliklərə yol açır və nikahdan kənar uşaqlar doğulur. Sonradan boşanma olarsa, qadının heç bir hüququ olmur. Ona görə də, qızlar normal şəkildə təhsil almalı və erkən nikahların qurbanına çevilməməlidirlər. Çalışmalıyıq ki, qızlarımız ali təhsil arxasınca getsinlər. Ali təhsil ala bilməyən gəncləri isə biz peşə təhsilinə yönəltməliyik. Bu məsələsə qızları xüsusilə vurğulayıram. Heç bir təhsili və peşəsi olmayan qadına biz kömək etmək istəsək də, edə bilmirik. O insanlara iş tapmaq mümkün deyil. Halbuki, dərzilik, zərgərlik, toxuculuq və sair kimi peşəsi olsa ən azı maddi baxımdan özünü və övladlarını təmin edə bilər.

***- Qənirə xanım, nikahsız evliliklərdə boşanma zamanı problemlərin, qadının və uşaqların hüquqlarını təmin etməyin hüquqi yollarını tapmaq mümkün deyilmi?***

- Bu cəmiyyətin yaralı yeridir. Mən sizin vasitənizlə bütün qızlara və onların valideynlərinə səslənirəm, rəsmi nikah kəsilmədən qızlarınızın ər evinə köçməsinə icazə verməyin. Bəzən deyirlər ki, toy olsun , bir ay ərzində kəsdirərik. Ancaq bizim rastlaşdığımız hadisələr göstərir ki, o ailələr iki il, üç il nikahsız yaşayır. Uşaqlar nikahdankənar doğulur, qadının nikahı və yaşadığı yerdə qeydiyyatı yoxdur. Ailələr və qızlar özləri gərək buna yol verməsin. Ailə qurduqdan sonra qadın həyat yoldaşının evində qeydiyyata düşməlidir. Buna çox ciddi önəm vermək lazımdır. Problemlərin çoxu bundan yaranır. Qadın tanıyıram ki, 15 yaşlı övladı var, bu gün boşanırlar, ancaq hələ də atası evində qeydiyyatdadır. Halbuki yaşadığı evi həyat yoldaşı ilə bərabər zəhmət çəkib tikib. Bundan sonra çətin vəziyyətdə qalır. Bu cür qadınların sayı yüzlərlədir.

***- Nikah zamanı tərəflər arasında əmlak müqaviləsinin bağlanmasına münasibətiniz necədir?***

- Mən bunu dəstəkləyirəm. Düzdür, bunu qınayanlar da var. Biz nikaha girənlərin tibbi müayinədən keçməsini deyəndə də eyni reaksiyanı verirdilər ki, insan haqlarına ziddir və sair. Ancaq biz o insanlara sonradan evlənməyi qadağan etmirdik, sadəcə onları və övladlarını gözləyən xəstəliklərdən xəbərdar olmalarını təmin edirdik. Artıq bunun nəticələrini görürük ki, nə qədər insanda QİÇS, siflis xəstəlikləri, talassemiya daşıyıcılığı var. Bəzi cütlüklərin hər iki talassemiya daşıyıcıdır, biz onları gələcəkdə xəstə övlad dünyaya gətirməmək üçün xəbərdar etmiş olduq. Çünki övladları potensial risk daşıyır. Mən nikaha girən tərəflərin əmlak müqaviləsi bağlanmasını da dəstəkləyirəm və bu fikrin tərəfdarıyam. Bunu məcburi şəkildə tətbiq etmək lazımdır. Çünki könüllü şəkildə bunu etmirlər. Bu gün əmlak müqaviləsini bağlamağı ayıb hesab edənlər, sabah məhkəmə qapılarında bir birinə nələr demirlər... Bunu zamanında sivil şəkildə həyata keçirmək ən doğrusudur.



### "Ali təhsili olmayan qızları peşə təhsilinə yönləndirməliyik"

***- Əmlakla yanaşı, boşanmalar zamanı qadınların alimentin alınması ilə bağlı çətinlikləri də problemlərdən biridir. Boşanan qadınların böyük əksəriyyəti bundan əziyyət çəkir. Bu problemin həlli yolu nədir, sizcə?***

- Birinci problem odur ki, boşananların sayı artır və əsasən övlad anada qalır. Bəzən körpə uşaqla tək qalan anaya həyat yoldaşı kiçik məbləğdə alimenti belə vermir. Çıxılmaz vəziyyətdə olan qadınlar çoxdur. Alimentlərin ödənməsi ilə bağlı çox ciddi problemlər var. Məsələ sadəcə ödəmək imkanı olmamaqla bağlı deyil. Bəzilərinin imkanı da var, ancaq aliment verməməklə qadını, əslində isə həm də uşağını cəzalandırır. Biz bu məsələnin həlli kimi, Aliment Fondunun yaradılmasını təklif edirik. Bir çox ölkələrin bununla bağlı təcrübəsi var. Əgər kişi qadına aliment ödəməkdən imtina edirsə, bu qadına aliment məbləğini Aliment Fondu verəcək. Dövlət isə həmin pulu ödəməli olan atadan inzibati qaydada alır. Əgər o ata işsiz olmasını əsas gətirirsə, fond məşğulluq idarələri vasitəsilə ona iş yeri təklif edir. Ata bundan da imtina edirsə, məsuliyyətə cəlb olunur. Dövlət qadınlarımızın və uşaqların düşdükləri çətinlikdən çıxması üçün belə bir mexanizmlə dövriyyəyə girir. Buna ölkəmizdə həddindən artıq ehtiyac var. Biz qanunlarda da dəyişiklik etdik, alimenti ödəməkdən uzun müddət imtina etməyin məsuliyyəti həbsə qədər gedib çıxa bilər. Ancaq bu da məsələni tamamilə həll edə bilmir. Alimentlə bağlı keçmiş ərindən şikayət edən qadınlara qarşı da bölgələrdə güclü ictimai qınaq var. Ancaq bu qınaq qadınlara qarşı yönəlməməlidir. Bütün bunları nəzərə alaraq, Aliment Fonunun yaradılmasını və ya hansısa müvafiq qurumların içərisində belə bir qurumun yaradılmasını vacib hesab edirəm. Parlamentdə də bu problemi qaldırdım, bəzi həmkarlarım da dəstəklədilər.

***- Boşanmış qadınlarla bağlı ictimai rəy də birmənalı deyil. Ən çox da bu səbəbdən bəzi qadınlar üzləşdikləri zorakılığa rəğmən boşanmaq istəmirlər.***

- Biz cəmiyyət olaraq bu məsələlərə baxışımızı dəyişməliyik. İnsanlar boşananda bunu mədəni şəkildə etməyi bacarmırlar, halbuki ortada uşaqlar var. Əksər ailələrdə uşaq anada qalırsa, ata tərəfinə nifrət aşılanır. Atada qalırsa, mütləq anaya bir "əxlaqsız" damğası vurulur. Hər iki tərəf bir-birindən intiqam almaq üçün uşaqdan alət kimi istifadə edirlər. Bu mənəvi bir məsələdir və əziyyətini də uşaqlar çəkir. Biz ictimai qınağı da bu istiqamətdə yönəltməliyik. Bu məsələləri həll etmək üçün hamımız birləşməliyik, parlament, dövlət qurumları, KİV, ziyalılar - hər kəs bu problemlərin həlli üçün çalışmalıdır. Bu yaxınlarda qadın sığınacağında oldum. Uşaqlar var ki, ataları təhdid edir deyə məktəbə gedə bilmirlər, sığınacaqdan çıxa bilmirlər. Qadın var ki, əri qumar oynayıb, külli miqdarda pul uduzub, sonra qadının adına bankdan pul götürüb, ödəmədikdə isə qadının həbsxanaya düşməsinə səbəb olub. Sonra isə övladlarına analarının əxlaqsız olduğu üçün həbsə düşdüyünü bildirib. Hər gün çox ağrılı həyat hekayələri eşidir, görürük. Cəmiyyət olaraq biz bunlara imkan verməməliyik.

***- Bu maarifləndirməni necə qurmaq olar ki, ictimai rəydə bəzi məsələlər yerinə otursun?***

- Televiziyalarda ailə bağlı proqramlar olmalıdır. Ancaq indiki bəzi proqramlar ailələrə xeyir verməkdənsə, ziyan vurur. Bu proqramlar şou vasitəsinə çevrilməməlidir. Təkcə mənfi nümunələr yox, yaxşı ailə modelləri də efirə çıxarılmalıdır, gənclərə örnək olmalıdır. Qadınlara qarşı zorakılığa "artıq yetər!" deməyin zamanı gəldi. Qadına qarşı zorakılıqla bağlı cəzalarımız da sərtləşdirilməlidir. İctimai qınaq da öz yerində. Bu artan aqressiyanın səbəbləri də araşdırılmalıdır. Artıq intihar xəbərləri də adiləşib. Bu intiharlar isə bizim, ətrafımızın, cəmiyyətimizin laqeydliyindən yaranır. Bu laqeydlikdən qurtulmalıyıq. Həmin insanın intihar edənə qədərki vəziyyətini yəqin ki, ailəsi də, ətrafı da görür. Lakin laqeyd yanaşdıqları üçün zamanında əl uzatmırlar. Bir insan çarəsizlik yaşayırsa, sonunda psixoloji böhran yaşayır. Ona görə də, özəlliklə qadınların çarəsizliyinin intihara qədər gedib çıxması məni çox narahat edir. Hər qadın intiharının sonunda da anasız övladlar qalır. Bir az daha həssas toplum olmalıyıq, başqalarının dərində yanmalıyıq, sadəcə özümüzü düşünməməliyik.

❑ **Nərgiz LİFTİYEVA**
**Foto: Məğrur MƏRD**

YENİ MÜSAVAT
N 211 (6532) 26 sentyabr 2016

# Akif Çovdarovdan qəzəbli məktub - "Ölərəmsə..."

## Həbsdəki general xərçəng xəstəsi imiş: "2011-ci ildən bu xəstəliyik əziyyət çəkirəm; ...mədəm, öd kisəm və bütün limfa vəzilərim amputasiya olunaraq götürülüb"

**Ləğv edilmiş MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin həbsdə olan sabiq rəisi, general Akif Çovdarov səhhətinin ağır olduğunu, 1 saylı Bakı İstintaq Təcridxanasında əziyyət çəkdiyi xəstəliklə bağlı lazımi müayinə şəraitinin olmadığını deyir. Bu barədə onun vəkilləri də mətbuata və ən son olaraq, "Yeni Müsavat"a açıqlama veriblər.**



Lakin Ədliyyə Nazirliyinin Baş Tibb İdarəsinin Müalicə İşinin Təşkili İdarəsinin rəisi İftixar Qurbanov A.Çovdarovun səhhətinin ağır olması ilə bağlı yazılanların əsassız olduğu barədə əks açıqlama verib. O, qeyd edib ki, Çovdarovun Müalicə Müəssisəsinə köçürülməsinə ehtiyac yoxdur. İ.Qurbanov Ədliyyə Nazirliyinin Müalicə Müəssisəsində ixtisaslaşmış kardioloq-həkim olmaması ilə bağlı deyilənlərin də doğru olmadığını və müəssisənin lazım olan bütün avadanlıqlarla təchiz olunduğunu söyləyib.

Musavat.com-un əldə etdiyi məlumata görə, İ.Qurbanovun bu açıqlaması həbsdə olan generalı hiddətləndirib. Çovdarov bu qəzəbini Ədliyyə Nazirliyinin özünə məktubla çatdırıb. Musavat.com Çovdarovun İftixar Qurbanova yazdığı qəzəb dolu məktubun sürətini əldə edib. MTN generalı səhhəti ilə bağlı mətbuata verdiyi müsahibələrə, istintaqa təqdim etdiyi rəylərə görə İftixar Qurbanovu sərt şəkildə qınayıb.

Çovdarov İftixar Qurbanoya ünvanladığı məktubda ilk olaraq səhhəti ilə bağlı məlumatları qeyd edib. Ardınca isə həbsdən əvvəl keçirdiyi əməliyyatlar, əziyyət çəkdiyi xəstəliklər barədə fikirlərini əlavə edib.

### "Kimlərin sifarişi ilə müsahibə verdiyinizi yaxşı bilirəm"

"...Kütləvi informasiya vasitələrində səhhətimlə bağlı verdiyiniz müsahibə dərc olunub. Müsahibənizdə səhhətimin normal olduğunu və hər həftə həkim-kardioloq tərəfindən müayinə olunduğumu göstərmisiniz. Həmin yalan dolu müsahibəni hansı məqsədlə və kimlərin sifarişi ilə verdiyinizi yaxşı bilirəm"- deyə Çovdarov məktubunun əvvəlində qeyd edib.


Musavat.com
Bakı İstintaq Təcridxanasında saxlanılan
Çovdarov Akif Teymurxan oğlu tərəfindən.
Musavat.com

Daha sonra Çovdarov xərçəng xəstəliyindən əziyyət çəkməsi barədə də İftixar Qurbanovu məlumatlandırıb: "Səhhətimlə bağlı məlumatsız olduğunuzu görərək, bir daha xatırlatmaq istəyirəm ki, mən 2006-cı ildən ürəyin işemik xəstəliyindən, aorta-karonar şuntlama əməliyyatından sonrakı vəziyyət, səyrici aritmiya, taxsistolik forma xəstəliklərindən əziyyət çəkirəm. Bununla bağlı 2006-cı ilin may ayında Almaniyada ağır cərrahiyyə əməliyyatı keçirmişəm. Həmçinin, 2011-ci ildən xərçəng xəstəliyindən əziyyət çəkirəm və 2011-ci ilin may ayında 6 saatdan artıq çəkən cərrahiyyə əməliyyatı nəticəsində mədəm, öd kisəm və bütün limfa vəzilərim amputasiya olunaraq götürülüb".

A.Çovdarov məktubunda yazıb ki, onun bu dediklərini Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertizası və Patoloji Anatomiya Birliyinin 102/KEŞ saylı, 13 may 2016-cı il ekspert rəyi, səhhəti ilə bağlı təcridxananın Tibb-Sanitar Hissəsində saxlanılan müayinə sənədləri, o cümlədən, Tibb Baş İdarəsinin müraciətinə əsasən Akademik C.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutunun həkimləri tərəfindən 11-12 fevral 2016-cı il tarixdə keçirilmiş konsilium nəticəsində verilmiş rəy və mütəmadi olaraq aparılmış kardioqrammanın nəticələri sübut edir.

Bütün bunları sadalayan Çovdarov İftixar Qurbanova qeyd edilənlərə nəzər yetirməsini məsləhət görüb və məktubuna bunları əlavə edib: "Dəfələrlə həkimlər tərəfindən verilmiş rəylərdə arterial qan təzyiqinin, nəbz vurğuları sayının və ritminin qısa zamanlar fasiləsində tez-tez və kəskin dərəcədə dəyişməsi, qanın laxtalanma vaxtının 3 dəqiqə olması müəyyən edilib. Lakin verdiyiniz müsahibədən belə görünür ki, sizin ya mənim səhhətimdən ümumiyyətlə xəbəriniz yoxdur, ya da sizə verilən göstəriş əsasında özünüzü bilməməzliyə vurursunuz.

Sual vermək istəyirəm ki, xərçəng xəstəliyindən əziyyət çəkdiyim halda sonuncu dəfə nə vaxt həkim onkoloq tərəfindən müayinə olunmuşam? Cavabını özüm verərək bildirirəm ki, həbs olunandan sonra cəmi bir dəfə 2016-cı ilin may ayında səhhətimlə bağlı ekspertiza keçirilən zaman həkim onkoloq tərəfindən müayinə olunmuşam. Həmin müayinədən sonra keçən dörd ay ərzində bir dəfə də olsun həkim onkoloq tərəfindən müayinə olunmamışam. Halbuki Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertizası və Patoloji Anatomiya Birliyinin 102/KEŞ saylı 13 may 2016-cı il tarixli ekspert rəyində mənim xərçəng xəstəliyindən əziyyət çəkdiyim açıq aydın şəkildə göstərilib".

### Çovdarov öz vəsaiti hesabına müayinə olunmaq istəyir

A.Çovdarov məktubunda öz vəsaiti hesabına müalicə almasına şərait yaradılmasını istədiyini də yazıb: "Dəfələrlə rəsmi şəkildə müraciət edərək öz vəsaitim hesabına həkim onkoloq tərəfindən müayinə olunmağımı xahiş etmişəm. Ancaq müraciətimə bu günə qədər münasibət bildirilməyib. O zaman sual edirəm ki, hansı əsasla nümayişkaranə şəkildə müsahibə verərək mənim səhhətimin normal olduğunu bildirirsiniz?"

Cinayət işi materialları ilə tam şəkildə tanış olmadığnı qeyd edən Çovdarov bunu səhhəti ilə bağlı yaranan problemlərlə əsaslandırıb. İ.Qurbanov tərəfindən səhhəti ilə bağlı verilən rəylərə qəzəblənən Çovdarov onu savadsızlıqda və ağılsızlıqda suçlayıb.

### "Həddən artıq savadsız və ağılsız..."

İttiham dolu məktubda yazılanlardan: "Məlum olduğu kimi, qısa müddət öncə cinayət işinin materialları ilə tanış olan zaman istintaq qarşısında vəsatət qaldırmışdım. Səhhətimin cinayət işinin materialları ilə tanış olmağa imkan verib-verməməsinin aydınlaşdırılmasını tələb etdim. Siz yenə özünü torpeda kimi irəli verərək səhhətimin tam normal olduğunu və mənim cinayət işinin materialları ilə tanış ola biləcəyim barədə heç bir tibbi əsası olmayan məktubu şəxsən öz imzanız ilə istintaqa təqdim etdiniz. Həmin dövrdə istintaq məndən hər gün 1000-1200 vərəqlə tanış olmağı tələb edirdi. Mən isə səhhətimin buna imkan vermədiyini bildirirdim.

Məhz həmin qanunsuz məktubunuz əsasında ibtidai istintaq məni cinayət işinin materialları ilə tanış olmaqdan məhrum edərək, tez-tələsik cinayət işinin materialları ilə tanış olmadan işi yekunlaşdıraraq, baxılması üçün məhkəməyə göndərdi. Halbuki, özünüz tam sağlam olmağınıza baxmayaraq, gün ərzində 1000-1200 vərəqdən ibarət cinayət işinin materialları ilə tanış ola bilməzsiniz. Çünki bu, fiziki cəhətdən mümkün deyil. Hesab edirəm ki, insan belə qanunsuzluğu iki səbəbdən edə bilər. Ya həddən artıq savadsız və ağılsız olduğundan etdiklərinin fəsadlarını qavraya bilmir, ya da vəzifəsini itirməkdən elə qorxur ki, onun üçün bütün qanunsuzluqlara getməyə hazır olur. Bu iki səbəbin hansına görə mənə qarşı belə qanunsuz əməllər törətdiyinizi yəqin ki, özünüz gözəl bilirsiniz".

Səhhəti ilə bağlı açıqlamalar verən İftixar Qurbanovu başqalarının diktəsi ilə danışmaqda ittiham edən Çovdarov öləcəyi təqdirdə günahkar olaraq onu görəcəklərini yazıb.

### "Əziyyət çəkdiyim xəstəliklərdən ölərsəm..."

Çovdarov İ.Qurbanova nə zamansa etdiklərinə görə hesab verəcəyini də xatırladıb. Məktubdan sitat: "Hörmətli İftixar "həkim", bir daha xatırlatmaq istəyirəm ki, əgər göstəriş yerinə yetirən, asılı məmur obrazından çıxıb normal həkim kimi mənim xəstəliyimlə bağlı sənədləri tədqiq etsəniz, səhhətimin hansı vəziyyətdə olduğunu yaxşı görərsiniz. Ancaq baş verənlərdən görünən budur ki, kimlərsə sizin əliniz ilə məni məhv etməyə çalışır.

Onu da qeyd etmək istəyirəm ki, ailə üzvlərimə sizin bütün qanunsuz hərəkətlərinizlə bağlı, o cümlədən səhhətimlə bağlı verdiyiniz rəy və rəsmi müsahibələri daim toplayaraq saxlamalarını tapşırmışam. Çünki mən xəstəliyimin real olaraq hansı vəziyyətdə olduğunu və qanunsuz olaraq normal həkim müayinəsindən məhrum edildiyim üçün gün-gündən səhhətim pisləşdiyindən, istənilən an bu xəstəliklərdən ölə biləcəyimi gözəl bilirəm. Əgər əziyyət çəkdiyim xəstəliklərdən ölərsəm, sizdən mənim sağlamlığımın normal olması barədə verdiyiniz məktub (rəy) və müsahibələrinizə görə mütləq hesab tələb olunacaq. Bu gün tələb olunmasa belə, nə zamansa tələb olunacaq. Bunu özünüz də gözəl bilirsiniz".

A.Çovdarov məktubunun sonunda İftixar Qurbanova bildirib ki, onun bu əməlləri ilə bağlı ədliyyə naziri Fikrət Məmmədova, baş prokuror Zakir Qaralova müraciət edib. Həmin qurumlar tərəfindən hər hansı bir ölçü götürülməyəcəyi təqdirdə məhkəməyə müraciət olunacağını yazan Çovdarov bu məktubun bir nüsxəsini ailə üzvlərinə, bir nüsxəsini də xitab etdiyi İftixar Qurbanova göndərildiyini əlavə edib.

Qeyd edək ki, A.Çovdarova qarşı Cinayət Məcəlləsinin 308.2 (Vəzifə səlahiyyətlərindən sui-istifadə, bu Məcəllənin 308.1-ci maddəsi ilə nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə), 311.3.1 (Rüşvət alma, qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən), 311.3.2 (Rüşvət alma təkrar törədildikdə), 311.3.3 (Rüşvət alma külli miqdarda törədildikdə), 311.3.4 (Rüşvət alma hədə-qorxu tətbiq olunmaqla törədildikdə) və 145.3-cü (Qanunsuz azadlıqdan məhrum etmə, iki və ya daha çox şəxsə qarşı törədildikdə; təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadına qarşı törədildikdə; yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə; bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə; zərərçəkmiş şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə; silahdan, yaxud silah kimi istifadə edilən əşyalardan istifadə etməklə törədildikdə, bu əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi açılıb.

❑ **İlkin MURADOV**



# "Getmək istəyirsən, nə danış, nə din..."

Samir SARI

O gün facebook dostlarımızdan biri mühacirət havasına köklənən dostlarına dair status yazmışdı, mən də Aşıq Alının məşhur misrasını götürüb şərh yazdım: "Bir gün eşidərsiz, Alı da köçdü".

Dostum ya musiqisevər deyil, ya da 35-40 il əvvəl Aşıq Alının sözlərinə bəstələnən və Zeynəb Xanlarovanın oxuduğu "Nə qaldı" mahnısının populyar olduğu vaxt körpə olub, ona görə də məşhur misra ona tanış gəlmədi və belə bir sual verdi: "Hansı Alı?"

Qısaca izah etmək lazım gəldi ki, söhbət nədən gedir. Dostum təkrarən, türkün sözü, gülücük işarələri qoyaraq yazdı ki, əvvəlcə elə bilib söhbət Rza Alıdan ("Azadlıq" qəzetinin əməkdaşı) gedir.

Düzdür, iqtibas etdiyim misrada söhbət Aşıq Alının Avropaya köçməsindən yox, dünyadan köçməsindən gedirdi, amma çoxlarının fikrində mühacirət və potensial mühacirlər olduğu üçün frekansların qarışması təbiidir.

Gerçəkdən də bu saat xeyli insan (özüm rəqəm və ya faizli göstərici yazmıram - yanlış olar) ölkədən köçüb getmək barədə düşünür. Çamadanlarını qablayanlarla yanaşı, oturub qara gününü qablayanlar da var.

Fikir vermişəm, hər dəfə ölkədə seçki-filan olanda ölkədən getmək istəyənlərin sayında artım olur. Bu niyə belədir, bunu görək sosioloq, politoloq, konspiroloqlar araşdırsın.

Filoloqların biləcəyi iş deyil bu. Onlara qalsa, yuxarıda etdiyim kimi, məşhur şeirlərdən misralar söyləyəcəklər: "Vətən mənə oğul desə, nə dərdim"; "Qürbətdə xan olunca, vətənində dilən gəz"; "Vətənin sevməyən insan olmaz" və s.

Amma köçmək istəyənlərin ovqatı poeziyalıq deyil. Onlar bu ovqata sonradan, ev, iş tapandan, uşaqları yerbəyer edəndən sonra köklənəcəklər. Vətən nostaljisi o zaman qabaracaq və kövrək, həzin sətirlər sosial şəbəkədə sellənəcək.

Əlbəttə, heç kəs vətənini, doğma şəhərini, kəndini, qohum-əqrəbasını kefindən tərk etməz. Bunun ciddi səbəbləri olmalıdır. Pis güzəran o səbəblərdən biri və ən yekəsidir. Amma köçüb xaricdə yaşayan milyonçular da var. Onlar burada bəy kefində yaşayırdılar, milyonlarını da götürüb gedib, orda lord kefində yaşayırlar. Hərçənd gözlərinin biri burdadır, hərdən hissə qapılır, qayıtmaq istəyirlər. Sadəcə, kimsə onları ayıldır ki, ağlınız Çovdarovun türmədə olmasına getməsin, ölkə çovdarovlarla qaynaşır, gedərsiniz, tutub basarlar ağzıbirə, əlinizdə-ovcunuzda nə varsa, alarlar, oturun oturum aldığınız yerdə.

Budur, keçmiş müdafiə naziri Səfər Əbiyev hazırda Çexiyada yaşayır. O boyda var-dövlətin yiyəsi ora niyə gedib? Baş-qulağı dinc olsun deyə. Sabah kimsə gəlib deməsin ki, gəl ifadə ver, nazir olanda milyonluq maxinasiyalar eləmisən.

Şair Mirzə Sakit o gün yazmışdı ki, Səfər də Avropada sığınacaq tapırsa, politik statusumun boyunu yerə soxum. Şair haqlıydı. Bu necə ədalətli Avropadır ki, milyonçu sabiq nazirə də sığınacaq verir, cibində 20 qəpiklə gələn dissident şairə də.

Odur, Qambiyanın sabiq daxili işlər naziri çamadanını götürüb cumub İsveçə, siyasi sığınacaq istəyib. Nə var, nə var, ölkə prezidenti onu işdən çıxarıb. Güman ki, sabiq nazir tutulacağını hiss edib, ona görə qaçıb. Heç demə, zamanında bu nazir insanlara işgəncə vermək, rüşvətxorluq da daxil xeyli qanunsuz əməlləri ilə ad çıxarıb. İndi adam dissident olub və İsveçə sığınıb. İsveç hökuməti ona sığınacaq verəcək, verməyəcək, sonranın işidir, amma o, hazırda əmin-amanlıqdadır. Ağlı olsa, vaxtında ev-zad da almış olardı - Əbiyev kimi.

Ancaq bu işin də zibili çıxıb. Avropa ölkələri miqrant qəbulunu dayandırıblar. Çünki Suriya və İraq camaatı məcburiyyət üzündən elliklə Avropaya axışıblar, yerləşdirmək çətindir. Hətta uzaq İslandiyaya da gedib çıxıblar. O gün bir video yayılmışdı: bir neçə ərəb qaçıb kilsəyə sığınmışdılar. Amma İslandiya polisi onların qolunu burub maşına basdı, aeroporta aparıb gəldikləri ölkəyə, Norveçə yolladı.

Biz elə bir ölkədə yaşayırıq ki, burada heç kim "mən heç vaxt mühacirət etmərəm" deyə bilməz. Dünya dolanar, dövran dəyişər, kələf dolaşar, üst-baş bulaşar, adamın səsi Finlandiya ilə İsveçin arasındakı Aland adalarından gələr.

**Bir də görərik, Facebookda bayatı yazıblar:**

*Dağı duman alanda,*
*Yox, bir salam alan da.*
*Fələk elə vurub ki,*
*Sığınmışam Alanda.*

# Məşhur polkovnik: "Azərbaycan nəinki "İsgəndər" raketlərinə cavab vermək, düşməni tam məhv etmək gücündədir"

**Hərbi-siyasi məsələlər üzrə ekspert, ehtiyatda olan tanınmış polkovnik Şair Ramaldanov Milli.Az-a müsahibə verib. Ekspert İrəvanda sentyabrın 21-də hərbi paradda "İskəndər" komplekslərinin nümayiş etdirilməsinə xüsusi toxunub:**

- Əgər "İsgəndər" raketləri artıq Ermənistana məxsusdursa, təbii ki, hədəf ilk növbədə Azərbaycan və burada yerləşən obyektlər olacaq. Əgər onlar Ermənistanın yox, Rusiyanındırsa, o zaman həmin silahların Azərbaycandakı hansısa obyektə yönəlməsi ehtimalı çox azdır. Çünki Rusiyanın Ermənistandakı bazasının tapşırıqlarından biz də məlumatlıyıq. Lakin parada çıxarılan "İskəndər" komplekslərinin Rusiyaya və ya Ermənistana məxsus olması hələ ki, mübahisəlidir. Ermənistanın bugünkü iqtisadi vəziyyətini nəzərə alsaq, onların belə bir silah sistemləri almağa imkanının olmasına inanmıram.

**- Sizcə, "İsgəndər"lərin Ermənistana verilməsi Qarabağ münaqişəsinin həllinə necə təsir edəcək?**

- Bu gün Azərbaycan ordusu yalnız müdafiə xarakterli tapşırıqları yerinə yetirir. Ancaq Silahlı Qüvvələrimiz Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızı azad etməkdə israrlıdır, bu, onun haqqıdır. Bunu beynəlxalq aləm də, Ermənistan da yaxşı bilir. Lakin müşahidələr göstərir ki, Ermənistanın və onun havadarlarının bu cür hərəkətləri nəticəsində zaman keçdikcə problemin sülh yolu ilə yox, hərbi yolla həll ediləcəyi ehtimalı daha da artır. Bundan başqa, bilirik ki, məsələdə Rusiyanın öz maraqları var, eləcə də digər dövlətlərin də burada maraqları toqquşur. Yəni belə çıxır ki, problemin münaqişə formasında saxlanması bəzi dövlətlərin marağındadır. Bura hər an alovlana bilər bir regiondur.



Şair Ramaldanov

**- Bəs Azərbaycanın istər "İsgəndər" raketləri olsun, istərsə də Rusiya tərəfindən Ermənistana verilən digər yeni müasir silah sistemlərinin qarşısını almağa, onlara qarşı əks tədbirlər görməyə imkanları varmı?**

- Biz bilirik ki, bu məsələ ortaya çıxandan sonra ali baş komandanın göstərişi ilə Müdafiə Nazirliyində keçirilən müşavirədə tapşırıqlar dəqiqləşdirildi, bəzi məsələlər nəzərə alındı. İndi həmin istiqamətlərdə işlər gedir. Hamı bilir ki, prezident İlham Əliyev problemi sülh yolu ilə həll etmək istəyir. Əgər hələ də bunun üçün imkanlar tükənməyibsə, hansısa işıq ucu görünürsə, ondan istifadə edir. Ancaq bununla yanaşı, dövlət başçısı orduya böyük etimad göstərir və onun lazım gələrsə, torpaqları azad etməsi üçün daim ən müasir silahlarla təchiz edilməsinə böyük diqqət və səylə yanaşır. Hazırda Azərbaycan Silahlı Qüvvələrinin arsenalında istər "İsgəndər" olsun, istərsə də digər silahları olsun, onlara qarşı dura biləcək yetərli qədər müvafiq silah və texnika var, bunun üçün lazımi tədbirlər görülüb. Digər tərəfdən, bizim tapşırığımız yalnız onlara qarşı hansısa tədbir görməkdən ibarət deyil. Qarşımızda duran əsas vəzifə və tapşırıq Azərbaycan torpaqlarını işğalçıdan azad etməkdir. Yəni biz nəinki onlara cavab vermək, hətta torpaqlarımızı azad etmək, düşməni tam məhv etmək gücündəyik. Mən buna tam əminəm, qəti şübhəm yoxdur. Bu gün Azərbaycandakı güc və vasitələr, silah-sursat, texnika, aparılan işlər, islahatlar, mövcud döyüş hazırlığı və s. göstərir ki, Azərbaycan istənilən vaxt bunu etmək iqtidarındadır.

# Hakimiyyətə yaxın deputat ABŞ-ı Azərbaycana təhlükə adlandırdı

## Zahid Oruc: "Bu gün ölkəmizə təhlükə məhz öz mənafeləri uğrunda vuruşan dairələrin niyyətlərindən qaynaqlanır"

**ABŞ Silahlı Qüvvələrinin qərargah rəislərinin Birləşmiş komitəsinin rəhbəri Cozef Danford Rusiyanın təcavüzkar hərəkətlərini ölkənin milli maraqları üçün ən böyük potensial təhlükə adlandırıb. Bu barədə "Amerikanın səsi" radiosu məlumat yayıb. Danford bildirib ki, Rusiya prezidenti Vladimir Putinin Ukrayna, Krım, Gürcüstandakı hərəkətlərinə baxdıqda, onu deməyə əsas verir ki, Rusiyanın davranışları və mühüm qaynar nöqtələrdə silahlanma həcmi Rusiyanı ABŞ-ın milli maraqları üçün ən böyük potensial təhlükəyə çevirir.**



Zahid Oruc

ABŞ generalının bu bəyanatı Azərbaycanın maraqları üçün əsas təhlükənin haradan gəldiyi sualını aktuallaşdırır. Bu barədə söhbət etdiyimiz Milli Məclisin təhlükəsizlik və müdafiə komitəsinin üzvü Zahid Oruc bildirdi ki, ABŞ dünya nəhəngi kimi özünün maraqlarını həyata keçirmək istəyir: "Bu gün həmin maraqlar dünyanın özü üçün əlavə təhlükələrə çevrilib. Yaxın Şərqdə baş verən hadisələr artıq yüz illərə yaxınlaşmaqdadır. Birləşmiş Ştatların niyyəti o regionu sabitlik, əmin-amanlıq məkanına çevirə bilmir. Asiya məkanında müxtəlif problemlər mövcud olsa da qeyd olunan böyük insan tələfatları orada yoxdur. Bununla bərabər Çin həmin məkanda sabitləşdirici rol oynamaqdadır. Əsasən postsovet məkanı ölkələri ətrafında müxtəlif müharibə ocaqları yaradılır və İranla da bağlı proseslər uzun illər boyu gərginlik mənbəyi olaraq qalmaqdadır. Bu mənada Azərbaycan daxil, bir çox ölkələri Rusiya əleyhinə qaldırmaqla uzun on illər boyu müxtəlif tarixi problemləri də körükləyərək bu xalqları bir-birinə düşmən eləyən məhz Qərb dairələri olub. Şübhəsiz ki, bizim Milli Təhlükəsizlik Doktrinamızın tələblərindən çıxış etsək. birinci ərazi bütövlüyümüzə yönəlmiş təcavüzü, təcavüzkar Ermənistanı maraqlarımıza təhlükə olaraq ön yerə qoyuruq. İkincilərin sırasında da mən qlobal niyyətlərini kiçik ölkələr hesabına reallaşdırmaq istəyən və regional hökmranların əleyhinə bu dövlətlərdən faydalanan ölkələri qeyd etməyi doğru sayıram. ABŞ kimi dövlətlərin əli ilə 1990-cı illərdə Rusiya ilə düşmənçiliyimiz daha da dərinləşmişdi. Bunu İranla da bağlı həyata keçirirdilər, Türkiyənin özünü regional proseslərə fəal qarışmağa qoymurdular. Beləliklə, Azərbaycan kimi ölkələr müstəqil olaraq özünün təhlükəsizlik arxitekturasını formalaşdıra bilmirdi. Nəticə etibarilə biz ABŞ-dan nə müstəqilliyimizə, azadlığımıza dəstək almaqdıq, nə də hərbi qüvvələrimizin formalaşmasında onlar fəal şəkildə iştirak etdilər. Nə yaxşı ki, Xəzərdə qurulmuş məlum transmilli layihələr müəyyən qədər Amerikanın marağını bu bölgəyə gətirdi və onlar ən azı, öz mənafeləri naminə müxtəlif sabitləşdirici planlarda maraqlı oldular. Bunun kənarında ABŞ bölgəyə silah satmamaq adı ilə, əslində regiona NATO-nu daşıyıb gətirməklə bölgədə guya hərbi-siyasi balansı bərpa eləmək adı altında öz mənafeləri uğrunda davalar apardı. Biz əgər həmin riskləri bölüşmüş olsaydıq və o prosesdə ön yerə çıxmaq istəsəydik, bu gün Ukraynadan daha ağır vəziyyətə düşərdik. Bu gün Azərbaycan özünün təhlükəsizliyini Rusiya ilə münasibətlərin hesabına qoruyub saxlayır. Mən hesab edirəm ki, ABŞ-ın maraqları üçün Rusiyanın əleyhinə bir forpost olub vuruşmalı deyilik. Bu, bizə çox böyük bəlalar gətirərdi. ABŞ dünyada jandarma rolunu müxtəlif bölgələrdə uğurla yerinə yetirməyib, həmin bölgələrə sülh gətirməyib. Terror antiterror mübarizəsi adı altında daha da güclənib, daha da kütləvi qırğınlara səbəb olub. Ona görə də biz öz maraqlarımız naminə bölgə uğrunda vuruşan böyük dairələrin mənafeləri üçün yem olmalı deyilik. Azərbaycana təhlükə bu gün məhz həmin mənafeləri uğrunda vuruşan dairələrin niyyətləridir".

**Deputat vurğuladı ki, Azərbaycan üçün hazırda Ermənistandan sonra təhlükə qlobal maraqları urunda dava aparan ölkələrdən gəlir:** "Onlar bizim maraqlarımız üçün dava aparmırlar. Mənafe uğrunda dava aparanlar isə ABŞ və digər Qərb dövlətləridir. Azərbaycan hazırkı dövrdə Rusiyadan təhlükə gözləmir və Ermənistanda nümayiş olunan "İsgəndər" raketlərinin Azərbaycana hazırda təhlükəsi yoxdur. O raketlər Qərbə qarşı tuşlanıb. Onu ermənilərin istifadə eləməyə ixtiyarları yoxdur. O raketlər Rusiyanın pultu ilə idarə olunur".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 211 (6532) 26 sentyabr 2016

# "Çalışırlar ki, ölkəmizi cəzalandırsınlar"

## Fəzail Ağamalı: "Ölkə prezidenti Avropa İttifaqının həmin anti-Azərbaycan qüvvələrinə ciddi qulaqburması verdi"

**"Baxış bucağı"**

**Ötən həftə Avropa Parlamenti Azərbaycanla münasibətləri normallaşdırmaqla bağlı addım atdığı halda, Venesiya Komissiyası ilə Bakının münasibətləri qəfildən gərginləşdi. Görünən budur ki, rəsmi Bakı da bu situasiyanı gözləmirmiş və verilən reaksiyalar da bunu deməyə əsas yaradır. AVP sədri, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Fəzail Ağamalı ilə söhbətimizdə Bakı ilə Qərb təşkilatları arasındakı münasibətlərdən danışdıq.**

***- Fəzail bəy, Azərbaycan hökuməti ilə Qərbin bəzi dairələri arasında "savaş"ın yeni konturları görünməkdədir. Sizcə, bu dəfə nə baş verir?***

- Bütün bunlar Azərbaycana qarşı təzyiqin, təhdidin yeni variantlarıdır. Uzun illər ərzində ən ciddi siyasi hadisələr ərəfəsində Azərbaycana buna bənzər təzyiqlər olub, gələcəkdə də bunun olmasını istisna etmirəm. Bəli, Avropa Parlamentinin Azərbaycana qarşı uzun illərdən bəri davam edən qərəzli münasibətinə Azərbaycan həm prezident, həm də parlament səviyyəsində özünün adekvat cavabını verdi. Ancaq Azərbaycan dövlətinin Avropa İttifaqına daxil olan ölkələrlə intensiv xarakter daşıyan ikitərəfli, hətta üçtərəfli münasibətləri yüksələn xətlə inkişaf edirdi və bu gün də inkişaf edir. Avropa İttifaqının ağıllı insanları başa düşdülər ki, Azərbaycanla diktə dilində danışıb onu təcrid etməklə, ondan uzaqlaşmaqla, ona təhdid xarakterli münasibət bəsləməklə ölkəmizlə münasibətlərdə çox ciddi problemlər yarada bilərlər, bunu dərk etdilər. Ona görə də həmin ağıllı insanlar, həm Avropa Parlamentindən, həm də Avropa İttifaqından nümayəndə heyəti ilə Azərbaycana gəlməyi zəruri hesab etdilər. Ölkə prezidenti də çox yüksək səviyyədə, konkret faktlarla, arqumentlərlə Avropa İttifaqının həmin anti-Azərbaycan qüvvələrinə ciddi qulaqburması verdi, onlara dərs keçdi, sübut etdi ki, siz Azərbaycana qarşı çox ədalətsiz mövqedəsiniz. Eyni zamanda Azərbaycan dövlətinin iradəsini ortaya qoydu ki, ölkə prezidenti ilə bir şəklinə görə Şahtaxtinskinin diplomatik missiyasına son qoyulur, buna adi bir məsələ kimi baxılır. Onda Azərbaycan dedi ki, yaxşı, belədirsə, sənin buradakı ofisinə nə ehtiyac var, buyurun, ofisinizi burdan götürün, aparın! İndi isə ölkə prezidenti dedi ki, buyurun, Şahtaxtinskinin hüquqlarını bərpa edin, ondan sonra gəlin, burada ofisinizi açın! Çünki bunun şəcərəsi, nəsli Azərbaycana çox böyük töhfələr verib, sıradan bir insan deyil. Lap sıradan bir insan da olsaydı, Azərbaycan əsillidirsə, Azərbaycan dövləti bu cür insanların yanında olmalıdır, necə ki, oldu. Bu, Azərbaycan dövlətinin gücü deməkdir. Beləliklə, hər zaman hücuma məruz qalanda Azərbaycan geri çəkilmir, adekvat addım atır.

İndi nə üçün son vaxtlar Venesiya Komissiyası referendumu bəhanə edərək anormal, ağlasığmayan bir rəylə mövqeyini ifadə etdi? Təbii ki, bunun bizimçün heç bir əhəmiyyəti olmayacaq, referendum keçiriləcək, xalq öz iradəsini ortaya qoyub buna müsbət rəyini bildirəcək, buna şübhəm yoxdur. Demək, onların dedikləri kağız üzərində qalacaq. Bundan başqa, BMT-nin insan hüquqları ilə bağlı qurumun Azərbaycandakı nümayəndəsi cənab Mişelin hesabatı da qərəzli münasibətini gördük. Yenə də Azərbaycana təzyiq var. Digər tərəfdən, ABŞ-da anti-Azərbaycan qüvvələr Azərbaycana qarşı dinləmələr keçirir və bu dinləmələrdə eyni zamanda Dağlıq Qarabağdakı qondarma rejiminin nümayəndəsi orda iştirak və çıxış edir, anti-Azərbaycan mövbqeyi ilə fərqlənən amerikalılar bu prosesdə aparıcı rol oynayır. Eyni zamanda çox qəribədir, Azərbaycanda antimilli qüvvələrin içində yer alan Xədicə İsmayılova yenə də öz fəaliyyəti ilə ermənilərin yanındadır. Azərbaycanı ittiham edir, ölkəmizə obyektiv münasibət bəsləyənlərin üzərinə hücuma keçir. Əli Kərimli öz oğlunu Azərbaycanla bağlı dinləmələrə göndərir, anti-Azərbaycan qüvvələrinin içərisində yer alır. Buyurun, mənzərə budur!

***- Bu basqıların səbəbləri nədir?***

- Azərbaycan bir müddət öncə özünün çox əhəmiyyətli bir təşəbbüsünü reallaşdıra bildi. Rusiya-Azərbaycan-İran üçlüyünün yaradılması və bununla bağlı üç prezidentin Bakıdakı görüşündə ortaya iradə qoyulması, "Şimal-Cənub" dəhlizinin açılması və Azərbaycanın İran və Rusiya arasındakı münasibətlərin daha yüksək səviyyədə qurulmasında, eyni zamanda Azərbaycanın dövlət maraqlarının burada yer almasında oynadığı rol ABŞ-ı son dərəcədə qıcıqlandırır. Açıq şəkildə edə bilmir, Kozlariç və digərlərinin əli ilə bizə qarşı təzyiq edir, BMT nümayəndəsinin Azərbaycana qarşı qeyri-obyektiv məruzəsini ortaya qoyur, Venesiya Komissiyasının vasitəsilə referenduma özünün anormal mövqeyini ifadə edir. Bütün bunlar hamısı siyasi sifarişlərdir. Məqsəd budur ki, Azərbaycanın bu gün regionda atdığı addımlar ABŞ-ın strateji maraqlarına uyğun gəlmədiyi üçün çalışırlar ki, ölkəmizi cəzalandırsınlar.

ABŞ-ın Rusiya və İrana münasibəti də bəllidir. İndi təbii ki, Azərbaycan bu iki dövlətin arasında öz maraqlarını önə çəkməklə, bir dəhliz yaradırsa, bu dəhliz eyni zamanda Rusiya ve İranla yanaşı, Azərbaycana böyük üstünlüklər gətirilirsə, bu, artıq ABŞ-ın maraqlarına ziddir. Ona görə də bir tərəfdən Rusiyaya qarşı sanksiya qərarları qəbul edilir, digər tərəfdən İran yeni sanksiyalarla təhdid edilir, həmçinin Azərbaycan hədəfə alınır. Məncə, məsələnin mahiyyətində bu dayanır.

***- Neft gəlirlərinin azaldığı bir zamanda Azərbaycan təbii ki, Dünya Bankından, digər qurumlardan kreditlər almaqda maraqlıdır. Bəzi ekspertlər hesab edir ki, iqtisadi problemlərin mövcudluğu şəraitində dünyadan təcrid olunmaq baha başa gələ bilər. Elə isə beynəlxalq təşkilatlar və aparıcı güclərlə konfrontasiya şəraiti ölkəmizi ağır situasiya ilə üz-üzə qoya bilərmi?***

- Bu gün beynəlxalq aləmdə böyük güclərin qarşı-qarşıya durması və yuxarıda bəhs etdiyim situasiya Azərbaycan və Azərbaycan kimi ölkələrə xeyir gətirmir. Azərbaycan çox ciddi bir strateji məkanda yerləşir, ölkəmizin geosiyasi vəziyyəti bu iri dövlətlərin toqquşmuş olduğu mərkəzlərdən biridir. Şükürlər olsun ki, prezidentimiz kifayət qədər ağıllıdır, böyük təcrübəsi var, dünyada gedən bütün prosesləri yüksək səviyyədə təhlil edib nəticə çıxara bilir və bu çətinliklərin Azərbaycandan yan keçməsi üçün konkret addımlar atır. Təsadüfi deyil ki, məhz bunun hesabına Azərbaycan dövləti gəlib yüksək inkişaf səviyyəsinə çıxmaqdadır. Ancaq beynəlxalq aləmdə yaranmış olan xoşagəlməz durum, dövlətlər arasındakı münasibətlərin gərginliyi, eyni zamanda son zamanlar Türkiyə ilə bağlı baş vermiş olaylar ABŞ-la Rusiya və İranın maraqlarının bölgədə ciddi şəkildə toqquşması, Yaxın Şərqdə, "qulağımızın dibində" gedən müharibələr əlbəttə, bizim xeyrimizə deyil və bizə xoş məqamlar vəd etmir. Ona görə də vəziyyət kifayət qədər mürəkkəbdir. Ancaq mən ümidvaram ki,



**"Azərbaycanın neft pullarının kifayət qədər sığortası var və bu pula kiminsə yiyələnməsi istisnadır"**

Azərbaycan dövləti özünün indiki siyasəti, müstəqil xətti, ilə ikitərəfli dövlətlərarası münasibətlərlə yaranmış olan son dərəcə gərgin beynəlxalq vəziyyətdə indiyədək olduğu kimi, bundan sonra da özünü xoşagəlməz situasiyalardan, kataklizmlərdən sığortalayacaq.

Çünki Azərbaycanın həyata keçirtdiyi xarici siyasət çoxqütblüdür və balanslaşmış siyasətə söykənir. Ona görə də dünya artıq qəbul etməyə başlayır ki, Azərbaycan müstəqil siyasət yeridir, gəlin bu müstəqil siyasəti qəbul edək, ona hörmətlə yanaşaq.

***- Bu da bir gerçəklikdir ki, böyük maliyyə resurslarına malik olan dövlətlər və hakimiyyətlərlə bağlı hər zaman çeşidli planlar hazırlanıb, həyata keçirilib. İran şahının varidatının taleyi indiyədək məlum deyil, Liviya, Misirin keçmiş prezidentlərinin milyardlarının da taleyi bəlli deyil. Azərbaycanın da böyük neft vəsaitləri var və bu pullar ölkə xaricindəki banklarda saxlanılır. Bu mənada ölkəmizə qarşı bənzər planlar hazırlana, hakimiyyətlə bağlı ssenarilər işə salına bilərmi?***

- Bunlar istisna olunmur. Bəli, belə bir təcrübə var. Bu, Liviyada, Misirdə, Yəməndə də oldu. Başqa təcrübələr də var. Səddam Hüseynlə bağlı olaylarda da bu, özünü göstərdi. Çox təəssüf ki, bu qanqster siyasəti beynəlxalq hüquqda ciddi yer almaqdadır. Dövlətin pulunu mənimsəyirlər, bunu da ayrı-ayrı şəxslərin adı ilə bağlayırlar. Əgər konkret olaraq o fərdlərin adına pul varsa, bu, başqa məsələdir. Ancaq əgər dövlətin pulu ayrı-ayrı ölkələrin banklarında dövriyyəyə buraxılıbsa və o, dövlətin, xalqın puludursa, buna əl atmaq beynəlxalq səviyyəli cinayətdir. Məncə, Azərbaycanın neft pullarının kifayət qədər sığortası var və bu pula kiminsə yiyələnməsi istisnadır. Nəzərə almalıyıq ki, Azərbaycan dövlətinin başçısı ilə, prezidentlə Azərbaycan xalqının çox sıx birliyi var. Əslində Azərbaycana qarşı bu cür cəhdlər artıq tətbiq olunmaqdadır. Radikal dini cərəyanların vasitəsilə, Milli Şuranın və AXCP-nin rəhbəri kimi Əli Kərimli, leyla yunuslar, xədicə ismayıllar, sosial şəbəkələr, jurnalistlər, ictimai fəallar, antimilli insanlar vasitəsilə Azərbaycanda qarışıqlıq yaratmağa çalışırlar. Lakin xalqla dövlətin, prezidentin sıx birliyi həmin layihələrin həyata keçməsinə imkan vermir, bundan sonra da verməyəcək.

Azərbaycan xalqının mütləq əksəriyyəti bu gün dövlətin və prezidentin yanındadır. Hətta özünü radikal müxalifət hesab edən bəzi partiyaların üzvlərinin də bu baxımdan mövqeyi tamamilə onların rəhbərlərindən fərqlənir. Təsadüfi deyil ki, onlar həmin partiyaları tərk edirlər. Bu gün AXCP və Müsavat Bakıda bir ofis partiyasına çevrilib. Onların sosial dayaqları regionlarda demək olar ki, yoxdur. Onlar Azərbaycan mühitində belə siyasi qüvvə kimi yoxdurlar. Ona görə də xalqımızın iradəsi, dövlətimizin gücü, prezidentimizin müdrüklüyü həmin antimilli, Azərbaycan dövlətinə zərbə vura biləcək, istiqlalımıza təhlükə yarada biləcək o layihələrin həyata keçirilməsinə imkan verməyəcək.

***- Fəzail bəy, referendumdan sonrakı Azərbaycan haqqında nələr düşünürsünüz?***

- Ciddi, mütərəqqi xarakter daşıyan dəyişikliklərdir. Bu dəyişikliklər Azərbaycanda dövlətçiliyimizin gücləndirilməsinə, idarəçilik sisteminin təkmilləşməsinə, onun konkretləşməsinə, vətəndaşla məmurlar və dövlət arasındakı münasibətlərin daha yüksək səviyyədə və sivil formada qurulmasına, insan hüquq və azadlıqlarının daha da dərinləşməsinə, sahibkarlığın dövlət tərəfindən himayə olunmasına çox ciddi töhfələr verə biləcək bir dəyişikliklərdir. Mən tamamilə əminəm ki, xalqımızın müsbət rəyindən sonra dediyim bütün istiqamətlərdə ciddi dəyişikliyin şahidi olacağıq və Azərbaycan həmin sahələrdə yeni bir mərhələyə adlayacaq, buna qətiyyən şübhə yoxdur...

❑ **Elşad PAŞASOY**



# Cəsur yaltaqlar ölkəsi

**Zamin HACI**
zaminhaci@gmail.com

**İnternetdə bir video virus kimi sürətlə yayılmaqdadır, həmin videoda YAP-ın Cəbrayıl rayon şöbəsinin üzvü referenduma aid nəsə iclasda çıxış edir. (Yenə Cəbrayıl? Məşhur "ingilis turisti Ceyms Bonnar" və monarxiya aşiqi Kamılxan arvaddan sonra bu, Cəbrayılın Azərbaycan ictimai fikrinə son 1 ildə atdığı artıq üçüncü selbədir və bir rayon üçün çoxdur. Başqa rayonlardan da təşəbbüslər gözləyirik, yoxsa hakimiyyət sizin sədaqətinizdən şübhələnib Soğanverdilər-Cinqobulu-Qırdıqaçdılar kənd yolunun əsaslı təmirinə ayrılacaq 5 milyon manatı basıb yeyər, qəpik üzü görməzsiniz). Çıxış edənin ismi-şərifi İntiqam Azəri-dir, bunu istəsən çox simvolik saymaq olar - azərbaycanlıların intiqamı elə bu cür olur, bundan o yana getməz.**

Söhbət ondadır ki, İntiqam bəy videoda gah iqtidarı tərifləyir, gah Elçibəyə xoş sözlər deyir. Ən gülüncü isə onun xaricdə - Norveçdə, Amerikada və sairə sivil dünya ölkələrində guya seçki saxtalaşdırılması, oralarda məmurların xalqın qanını içməsi, özlərinə oğurluqla villa ucaltması və sairə haqda dedikləridir. Videonu camaata maraqlı edən də elə bu parodiya hissəsidir, çünki hamı daxilən başa düşür ki, bunlar yalandır.

Ancaq gəlin bir az dərindən düşünək: guya yapistlərin bütün çıxışları İntiqam Azəri-nin çıxışından nə ilə fərqlənir? Burada sadəcə yüngülvari şişirtmə var, vəssalam. Elə eyni günlərdə Səyavuş Novruzovun "Bütün dünya bizə paxıllıq edir", YAP qəzetinin şefi Hikmət əkənin "Qərb imperializmi ölkəmizə hücuma keçib" və Elmar Məmmədyarovun "Xaricilər gəlib bizim təcrübəni öyrənsin" sözləri yayılmışdı.

Bu mənada, İntiqam bəyi uzağı Ezop dilinin daşıyıcısı saymaq olar, Ezop isə qul idi, qul dilindən zövq almaq da qullara xasdır. Eyni zamanda, adam əgər bu siyasəti bəyənməyib parodiya edirsə, YAP sıralarında nə gəzir? Demək nə istədiyini bilmir. Nəticə budur.

Ümumiyyətlə, azərbaycanlılar hazırda nə istədiklərini bilməyən bir toplumdur. Biz gələcəyimizi necə görürük, ölkəmizin hansı istiqamətə getməsini arzu edirik - bu haqda heç kimdə aydın təsəvvür yoxdur. Nə iqtidarda, nə müxalifətdə. Nə millətçisi millətçidir, nə dindarı dindar. Yaltağı cəsura bənzəyir, qəhrəmanı qorxağa.

Referendum nə üçün keçirilir, iqtidar bununla nəyə nail olmaq fikrindədir, heç iqtidarın özünə aydın olmadı. O üzdən təbliğatsız-zadsız, sakitcə prosesi yola verdilər. Müxalifətin 3 ciddi sayılası qanadı var, bunların da konstitusiya referendumuna münasibəti iqtidardan çox az fərqləndi, misal üçün, Milli Şura iki gün qabaq tərəfdarlarına üz tutub "evdə oturun, məntəqəyə getməyin" tapşırığı verib. Dəhşət müqavimətdir! Əsl zen-buddizm üslubudur: "Heç nə etməmək ən böyük müdriklikdir". Bir ara narıncı geyim də var idi, onu bərpa eləsək, tam buddizmdir. Divanda uzanıb ayaq barmağının ucuna, yaxud tavana baxsan respublikamız demokratik inkişaf edəcəkdir.

Müsavat Partiyası Milli Şuranın əvəzinə mitinq təyin eləməsi, REAL isə bir-iki vərəq imza toplayıb meydandan qaçması ilə yadda qaldı.

Əlbəttə, repressiya altında nəsə eləmək çox çətindir, ədalət naminə bunu unutmuruq. Hər üç qurumun üzvləri həbs edilir, sıxışdırılır, mühacirət edir və sairə. Ancaq bu ritorika - "bizi əzirlər, yoxsa belə-belə edərik" - iqtidarın ritorikasından nə ilə fərqlənir? Axı yapistlər də deyir xaric qoymur qabağa gedək, Qərb bizə təzyiq edir. Onlar bunları sıxır, bunlar onları, hamı sıxıntı içində yaşayır. Əcəb yerdir.

Təbii ki, hamısı bəhanədir, öz acizliyinin, daşıdığı ada layiq olmamağın əlamətidir. Təzəlikcə müxalifətin bir mitinqindən sonra rayondan gəlmiş müxalifətçilərlə söhbət edirdim. Onlar 100 mindən çox sakini olan bir rayonu təmsil edirdilər, soruşdum, məlum oldu orda bunların partiyasının cəmi 50-60 üzvü var. Səbəbindən asılı olmayaraq, bu, iflasdır. Əgər narazı adamlar varsa, niyə onları partiyanıza, siyasi qurumlara cəlb edə bilmirsiniz? Axı ölkəmizə, elə dünyaya da istənilən fors-major anında ərazidə idarəçiliyi üzərinə götürməyə layiq qüvvə lazımdır. Bu qüvvənin ayrı-ayrı elementləri həm iqtidarda, həm müxalifətdə var, ancaq pərən-pərəndir. Səbəbi yuxarıda yazdım: məqsəd məlum deyil.

**Məşhur Çin müdrik məsəlində deyilən kimi: "Qaranlıq otaqda qara pişiyi tapmaq çətindir, xüsusən də o pişik orda yoxdursa". Məzahir müəllim bu gün məntəqələrdə həmin pişiyi axtaracaq. Təcrübə göstərir ki, tapacaq və axırda üzünü bizə tutub qəşəng bir "miyau" da eləyəcək. Biz də öz siçan deşiyimizdə daha dərinə çəkiləcəyik.**

# Müdafiə və Qarabağ strategiyamızda mühüm gəlişmə




## Erməni-rus təhlükəsinə qarşı Bakının "Sehrli çubuq"u - "Dəmir günbəz"i daha etibarlısı əvəzləyir...

### Azərbaycan işğalçı ölkənin hərbi paritet yaratmasına heç vaxt imkan verməyəcək, bu yöndə İsrail vazkeçilməz müttəfiq-tərəfdaşa çevrilməkdədir; ilin sonunadək bu dövlətdə səfirliyimiz açılsa, təəccüblü olmayacaq; yəhudi politoloq: "Bakı İsrailin müasir sistemləri hesabına "İsgəndər" raketləri də daxil, havadan bütün hücumları dəf edəcək"

**Qarabağ danışıqları növbəti dəfə dalana girmək üzrədir - özü də bu dalan yenə işğalçı Ermənistan və onun əsas havadarı Rusiya sayəsində qaçılmaz olub. İrəvandakı 21 sentyabr hərbi paradı və paradda Rusiyanın bağışladığı deyilən (hələ ki rəsmi Moskva təkzib etməyib)"İsgəndər" raket komplekslərinin nümayişi, eyni gündə işğal altındakı Ağdamda erməni silahlı qüvvələrinin təlimlərə başlaması bu qənaəti xeyli möhkəmlədib.**

Bu isə o deməkdir ki, prezidentlərin növbəti birbaşa görüşü ya baş tutmayacaq, ya da baş tutsa belə, erməni tərəfinin öz köhnə iddialarına köklənməsi fonunda simvolik xarakter daşıyacaq. Yəni aprel döyüşlərindən sonra nizamlama prosesində gözlənilən nəticə yenə olmayacaq. Adekvat şəkildə müharibə riski böyüyəcək təbii ki. Siyasi təhlilçilərin bu yöndə narahatlıq və xəbərdarlıqları artmaqdadır.

***

"Görünür, gözlənilən payız danışıqları ya baş tutmayacaq, ya da baş tutsa da, heç bir nəticə verməyəcək. Ona görə ki, ermənilər tamamilə başqa istiqamətə köklənib. Onlar elə düşünür ki, guya 2-5 aprel müharibəsində itirdikləri əraziləri geri qaytara bilərlər". Qarabağ danışıqları ətrafında son durumu şərh edən politoloq Qabil Hüseynli bu fikirdədir (Ölkə.az).

"Rusiya Azərbaycana silah satmaq istəyir və bundan da çox böyük gəlir götürür. Hazırda Rusiyadan silah alan ölkələrin sayı çox azalıb. Onların içərisində Azərbaycan ön sırada gəlir. Rusiyaya pul lazımdır. Bu pulu da əldə etmək üçün ən gözəl mənbə hərbi sənaye kompleksidir ki, silahlar münaqişə olan ölkələrə satılsın", - deyə politoloq Moskva üçün ölkəmizin hərbi-texniki önəmindən danışarkən qeyd edib.

Lakin onun sözlərinə görə, Azərbaycan bu dəfə fərqli davranacaq: "Azərbaycan texniki parametrlərinə görə, yeni texnologiyalara dayanan silahlar almağa üstünlük verir. Bakı bundan sonra Rusiya silahlarından daha üstün silahlar əldə etməyə çalışacaq. Bu istiqamətdə İsraillə əməkdaşlıq çox sərfəlidir. Sabah Bakıda silah sərgisi keçiriləcək. Həmin sərgidə İsrail yeni və texnoloji üstünlüklərə malik, dünyada analoqu olmayan silahlarla təmsil olunacaq. Eyni zamanda İsraillə danışıqlar gedir ki, Azərbaycan həmin silahları almaqla yanaşı, o silahların ölkəmizdə istehsalını da təmin edəcək. Hazırda Azərbaycanda İsraillə müştərək bir sıra müasir silahların istehsalı davam edir. Həmin silahlar Ermənistanda yoxdur".

**Ekspert Azərbaycan İsraildən əlavə, Pakistanla da hərbi əməkdaşlığa maraqlı olmasına diqqət çəkib:** "Pakistan Azərbaycana müasir tipli, Çinlə birgə istehsal edilmiş qırıcı təyyarələr göndərməyə hazır olduğunu bildirib. Həmin təyyarələr bir sıra texniki üstünlükləri ilə yanaşı, qiymət baxımından da rus təyyarələrindən ucuzdur. Bizim başqa çıxış yolumuz yoxdur, ordu sürətlə yeni silahlarla təmin edilməli, təlimlərə ara verməməlidir. Müdafiə Nazirliyində keçirilən son müşavirədə Ermənistanın bütün hərbi obyektlərinin müşahidə altına götürülməsi və onların məhv edilməsi üçün indidən tədbirlər görülməsi haqqında göstəriş verilib. Azərbaycanın buna imkanı var".

Q.Hüseynli də belə vəziyyətdə yeni müharibə ehtimalı kifayət qədər real sayır. "Bunun da əsas səbəbkarı Rusiya və onun regiondakı əlaltısı Ermənistandır. Danışıqlar prosesinə söz verən Rusiya ümumiyyətlə, son vaxtlar bu danışıqların keçirilməsi barədə fikir də səsləndirmir, yaxasını hər şeydən kənara çəkərək əl altdan, xəyanətkarcasına təyyarə ilə göndərə bilmədiyi raketləri quru yolla, bizim də çox kömək etdiyimiz Gürcüstanın ərazisindən Ermənistana ötürür. Ermənistana gedən silah-sursatın böyük hissəsi Gürcüstan quru yolu ilə göndərilir. Gürcüstan tərəfi isə Rusiya tərəfindən Ermənistanın militarisləşdirilməsinə, silahla təmin edilməsinə maneçilik törətmir. Halbuki Gürcüstanın torpaqları Rusiyanın işğalı altındadır" - sonda politoloq əlavə edib.

***

Beləcə, Rusiyanın "hərbi balans" bəhanəsi ilə öz forpostunu silahlandırmaqda davam eləməsi, o sırada "İsgəndər"lə bağlı yaşanan qalmaqal, nəticə etibarilə kövrək sülh danışıqlarının pozulması həqiqətən də ölkəmizi öz hərbi taktikasını gücləndirmək, bütövlükdə özünün Qarabağ strategiyasına düzəliş etmək zorunda qoyur. Çünki işğala məruz qalan tərəf kimi Azərbaycan heç vaxt təcavüzkarın nəinki hərbi cəhətdən ondan üstün olmasına, hətta paritet yaratmasına belə razı ola bilməz.

Bu yöndə isə Bakının köməyinə gerçəkdən də ən əvvəl özünün ən müasir və modern hərbi texnologiyaları ilə İsrail gələ bilər. Aprel döyüşləri də göstərdi ki, həmin texnologiyalar hətta Rusiyanın özündə yoxdur və istehsalı gözlənilmir. Bu istiqamətdə Azərbaycanla İsrail arasında əlaqələr yüksələn xətlə inkişaf edir və yəqin ki, yaxın perspektivdə, vurğulandığı kimi, növbəti sanballı anlaşmaların şahidi olacağıq.

Rusiyanın "İsgəndər" riyakarlığı sözsüz ki, bu prosesi sürətləndirəcək. Bu kontekstdə İsrailin baş naziri Benyamin Netanyahunun qarşıdakı Bakı səfəri ikiqat önəm kəsb edir. Hətta istisna deyil ki, Bakı-Təl-Əviv yaxınlaşması fonunda İsraildə Azərbaycan səfirliyinin açılması məsələsi də nəhayət, öz müsbət həllini tapsın. İlin sonunadək bu hadisə də baş versə, gərək təəccüblü olmasın.

Bu hadisə Azərbaycana münasibətdə vaxtaşırı qeyri-dost münasibəti sərgiləyən Rusiya və İranla yanaşı, işğalçı Ermənistan üçün əlavə çəkindirici faktor olacaq, qaynar başlar üçün "soyuq duş" effekti yaradacaq. Həm də o səbəbə ki, yəhudi dövləti ilə isti və yaxın münasibətlər, avtomatik şəkildə güclü beynəlxalq yəhudi lobbisinin himayəsi deməkdir.

***

"Azərbaycan İsrailin müasir raketdən müdafiə sistemləri (RMS) vasitəsilə öz ərazisini bütünlüklə müdafiə edə bilər". Haqqin.az xəbər verir ki, bunu İsrailin Rusiyadakı sabiq səfiri, "Avropa-Asiya" İnstitutunun rəhbəri Svi Maqen deyib. Onun sözlərinə görə, İsrailin RMS-ləri "İsgəndər" raketləri, pilotlu və pilotsuz uçan təyyarələr, hətta minomyot mərmiləri də daxil, havadan olan ən geniş spektrli hücumları dəf etməyə hesablanıb: "Hərbi əməkdaşlıq çərçivəsində Azərbaycan öz müdafiəsini "Sehrli çubuq" müasir İsrail sistemləri hesabına təmin edə bilər. Bu sistem ən uzaq məsafə və yüksəkliklərdə belə ballistik raketləri müəyyən edib məhv etmək qabiliyyətinə malikdir".

Bu yerdə xatırladaq ki, az öncə Bakı və Təl-Əviv arasında İsrailin modern "Dəmir gümbəz" raket əleyhinə sistemi ilə bağlı anlaşma əldə olunduğu haqda məlumat yayılmışdı. İsrailli politoloq xəbəri təsdiqləyir və əlavə edir ki, İsrail başqa ölkələrə silah satmağa ehtiyatla yanaşsa da, Azərbaycanın durumu İsrailin vəziyyətinə yaxın olduğu üçün yanaşma fərqlidir: "Fakt budur ki, böyük olmayan bir dövlət müxtəlif xarici təhdidlərə məruz qalır. Belə vəziyyətdə Azərbaycan İsrail RMS-ləri əldə eləməklə öz təhlükəsizliyini tam təmin edə bilər. İsrail hökuməti Azərbaycanla hərbi və başqa sahələrdə əməkdaşlığı yüksək qiymətləndirir. Müasir silahlarda maraqlı olan və buna maddi imkanı olan Bakı İsrail silahının etibarlı alıcısıdır".

***

**"Dəmir günbəz"in ardınca "Sehrli çubuq"... Bu, erməni-rus iş birliyi və "İsgəndər" təhlükəsinə qarşı Bakının ən güclü kontur gedişi və cavab gedişi olardı. Beləda Azərbaycanın paritet üçün Rusiyadan bahalı "İsgəndər" komplekslərini almasına da lüzum qalmayacaq.**

❑ **Analitik xidmət**

# Azərbaycan irimiqyaslı hərbi təlimlərə hazırlaşır

## Hərbi ekspert: "Türkiyə ilə də ortaq təlimlər mütləq keçiriləcək

**Son vaxtlar Azərbaycan həm özü, həm də qardaş Türkiyə ilə birgə hərbi təlimlərə sanki ara verib. Halbuki, bu cür təlimlər Ankara-Moskva münasibətlərinin gərgin olduğu dövrdə də keçirilib. İşğalçı Ermənistanın Azərbaycan ərazilərində son hərbi manevrləri isə ona adekvat cavab vermək zərurəti yaradıb.**



**Hərbi ekspert Üzeyir Cəfərov** bildirdi ki, Azərbaycan hərbi təlimlərə ciddi diqqət ayırır: "Azərbaycan hərbi təlimlərini ötən il planlaşdırıb. Təlimlər bölmələr və briqadalar üzrə keçirilir. Bizim Türkiyə və Gürcüstanla keçirəcəyimiz hərbi təlimlər bizdən asılı olmayan səbəblərdən arxa plana keçdi. Təlimlər onsuz da ilin sonuna qədər keçiriləcək. Bildiyiniz kimi, Türkiyə və Gürcüstanda hərbi nazirlər dəyişdi. Azərbaycan hərbi təlimlərə tam hazırdır. Silahlı Qüvvələrin döyüş hazırlığını yoxlamaq üçün qərargahlarda hərbi təlimlər keçirilir. Birgə təlimlərdə sadəcə, müvəqqəti fasilə yaranıb. Amma oktyabr və noyabr aylarında onların reallaşması gündəmdədir. Hərtərəfli o təlimlər keçiriləcək. Proqram bir qədər də genişləndirilib. Bir müddət bundan əvvəl Azərbaycanın müdafiə naziri Qəbələdə Türkiyə və gürcüstanlı həmkarı ilə bu barədə müzakirələr apardı və tərəflər arasında niyyət sazişi imzalandı. Bu sahədə hər şey qüvvədədir. Düşünürəm ki, hərbi təlimlərin yubanmasının baş vermiş hadisələrlə heç bir əlaqəsi yoxdur.

Bir faktı da unutmaq olmaz ki, Azərbaycan öz təlimlərini Rusiya və Ermənistana mesaj vermək üçün keçirmir. Sadəcə, ölkəmizin bu təlimləri keçirmək haqqıdır, çünki torpaqları işğal altındadır. Azərbaycan irimiqyaslı təlimini iki il öncə qardaş Türkiyə ilə keçirmişdi. Ondan bir il sonra da bu tipli təlimlər keçirildi. Gürcüstan da sonradan bu prosesə qoşuldu. Azərbaycan mütləq bu təlimləri yenidən keçirəcək. Bu yaxın zamanlarda baş tutacaq. Çünki plan üzrə hərbi təlimlər keçirilir və bu sahədə bir dəyişik yoxdur, yəni hər şey qüvvəsində qalır. Təlimlər Türkiyə ilə yanaşı ölkəmizə daha çox lazımdır".

**Hərbi ekspert Türkiyədə baş verən 15 iyul qiyamının da hərbi təlimləri yubatdığını istisna etmədi:** "Sözsüz ki, qardaş ölkədə baş verən qiyam da buna təsir etdi. Çünki 15 iyul qiyamından sonra Türkiyə Silahlı Qüvvələrində təmizləmə əməliyyatı aparıldı, araşdırmalar getdi. Bu proseslər deməzdim ki, hərbi təlimləri durdurdu, sadəcə, bir qədər yubatdı. Təlimlərin heç bir halda ləğvindən söhbət getmir. Türkiyə ilə Azərbaycan strateji müttəfiqdir. Eyni cəbhədən çıxış edirik. Buna görə də irimiqyaslı hərbi təlimlər bu il də olacaq. Belə təlimlər nazirlər səviyyəsində deyil, ölkələrin rəhbərləri səviyyəsində razılaşdırılır. Qoşunların iştirakı ilə bağlı bütün zəruri məsələlər nəzərə alınır. Bunlar sıradan bir məsələlər deyil. Onu da qeyd edim ki, bu məsələlərdə ölkələr arasında heç bir problem yoxdur. Ermənistanın son paradda göstərdiyi silahlara gəlincə, onlarsız da bir işimizi görürük. Onlara uyğun olaraq nəyisə etmirik. Quru qoşunlarımız hər an tam hazır vəziyyətdədir".

❑ Cavanşir ABBASLI

# Deputatdan Azərbaycanla bağlı önəmli xəbərdarlıq

## Fazil Mustafa: "ABŞ-la da, Avropa Birliyi ilə də qırıcı üslubdan uzaq durmalıyıq, çünki bu fırtınada təhlükə yaranarsa, heç Rusiyanın xilasediciləri də köməyimizə gəlməyəcək"

**Deputat, Böyük Quruluş Partiyasının (BQP) sədri Fazil Mustafa Avropa Parlamentinin (AP) bir illik gərginlikdən sonra Azərbaycanla münasibətləri normallaşdırmaqla bağlı atdığı addımları, Bakıya böyük bir nümayəndə heyətini göndərməsini şərh edərkən bildirib ki, AP-nin Azərbaycana önəm verməsi səbəbsiz deyil.**

O, musavat.com-a açıqlamasında vurğulayıb ki, Avropa məkanında hazırda hər kəsi düşündürən əsas məsələ ayrı-ayrı ölkələrdəki sabitlik faktorudur və bu baxımdan Azərbaycan daha cəlbedici ölkə kimi qəbul olunur: "Həm də enerji layihələrində daha yaxşı alternativlər tapmaq ideyaları o qədər də uğur qazanmadı və Azərbaycanla əməkdaşlığın əhəmiyyəti artmış oldu. Sadəcə, bu qurumun Azərbaycanın əsas problemi olan Dağlıq Qarabağ məsələsinə dəqiq və aydın münasibətinin olmaması əlaqələrin dərinləşmə ehtimalını xeyli azaldır. Bütün hallarda münasibətlərin inkişafı hər iki tərəfin faydasınadır və hər iki tərəf də bunun fərqindədir".

**F.Mustafa AP-nın münasibətləri bərpa etmək qərarı ilə eyni zamanda Venesiya Komissiyasının Azərbaycanla bağlı neqativ mövqedən çıxış etməsi, referendum qərarına mənfi rəy verməsi arasında əlaqə görmədiyini də vurğuladı:** "Bu qurumlar bir-biri ilə əlaqəli olsa da, Avropa İttifaqının maraqları Azərbaycanda referendum və ya seçki məsələlərinə indeksli deyil. Avropa Birliyini hazırda narahat edən məsələ enerji təchizatında Rusiyadan asılılıqdan necə qurtumaqdır. Bu baxımdan da həmin rəyin münasibətlərin məcrasını dəyişəcək qədər təsirli olacağını düşünmürəm".

Diqqətçəkən odur ki, bir müddət əvvəl ABŞ-da Azərbaycanla bağlı dinləmələr keçirildi. Belə müzakirələrlə bağlı həm iqtidar, həm də müxalifət təmsilçilərinin fərqli mövqeyi var. İndiki dönəmdə Azərbaycanla bağlı müzakirələr nəyə xidmət edir? Bu, Azərbaycana təzyiq məqsədi daşıyır, yoxsa dinləmələr islahatlara, demokratiyanın inkişafında maraqdan xəbər verir?

**F.Mustafanın bu məsələyə fərqli baxışı var:** "ABŞ Azərbaycanla bağlı illərdir ki, dinləmələr keçirilir. Ancaq hələ də ABŞ-ın Azərbaycan kimi ölkələri normal dinlədiyinin şahidi olmamışam. Bu cür dinləmələr, hansısa maraqların təmin olunması üçün bir manevr kimi düşünülür. Ancaq Azərbaycan tərəfinin ABŞ-ın maraqları ilə bağlı əslində maksimumları və minimumları bəllidir. Əgər bu cür dinləmələrdə ABŞ Azərbaycandan demokratiya tələb edirsə, bunun açılışı verilməlidir ki, bu, Liviyaya, Misirə, İraqa və ya Suriyaya vəd olunan demokratiyaların hansındandır? Ona görə də nə Azərbaycan iqtidarı, nə də müxalifəti o qədər sadəlövh deyil ki, bu cür dinləmələrin nəticəvi hissəsinə ciddi yanaşsın. Azərbaycanda bu cür dinləmələrə deyil, onun arxasında duran korporativ maraqlara diqqət yetirilir və bunun üzərində baş sındırılır. Ümumilikdə isə, ABŞ-ın prinsipsiz xarici siyasəti indiki məqamda Azərbaycanın faydasına ola biləcək qərarların qəbuluna ümid vəd etmir".



*"Bəs, Azərbaycana qarşı Qərbdən təzyiqlər rəsmi Bakını Rusiyaya daha da yaxınlaşdıra bilərmi"* sualına F.Mustafa belə cavab verib: "Azərbaycan və digər sovet şinelindən çıxmış ölkələr haçan Rusiyadan uzaqlaşmışdı ki, indi də yaxınlaşsın? Biz Rusiyanın hüquq qanunlarının təsiri altında olmasaq da, cazibə qanunundan kənarda qala bilməmişik. Ukrayna da, Orta Asiya da, Qafqaz ölkələri də belədir. Burada əsas səbəb ABŞ-ın bölgə ilə bağlı siyasətinin qeyri-müəyyənliyidir. Rusiya ilə yaxınlaşmamız dünyanın siyasət okeanında baş verən fırtınalarla əlaqəlidir, bizim kimi kiçik gəmilərdə üzən dövlətlər, hansısa "Titanik"lərin yaxınlığında fırtınanın keçməsini gözləmək məcburiyyətindədir. Rusiyanın kobud üslubu var, ancaq yaxşı və ya pis xarakterini açıq ortaya qoyan ölkədir, yəni nə istədiyini və nə verə biləcəyini aydınlaşdırmaq çətin deyil. ABŞ isə artıq dostluğu ilə düşmənçiliyi bəlli olmayan bir nəhəngə çevrilib. Türkiyə kimi ən yaxın müttəfiqini Suriyada Rusiya ilə birgə hərbi iməcilik keçirməyə vadar edən bir ölkənin Azərbaycana hansı sürprizlər hazırlayacağı təqribən aydın olur. Liviya, Suriya, İraq göz önündədir, o zaman Azərbaycanın öz qonşuları ilə sabit münasibətlər qurmaqdan başqa yolu qalırmı? Bununla belə, ABŞ-la da, Avropa Birliyi ilə də qırıcı üslubdan uzaq durmalıyıq. Çünki bu fırtınada bir təhlükə yaranarsa, heç Rusiyanın xilasediciləri də köməyimizə gəlməyəcək".

❑ E.PAŞASOY

# Referenduma (səsverməyə) gedək (mi)...



Elşad MƏMMƏDLİ
elshad1978@mail.ru

**Sentyabrın 26-da ölkəmizdə referendum keçiriləcək. Konstitusiyaya müxtəlif maddələr üzrə 29 əlavə və dəyişiklik ediləcək. Referendum Aktına daxil edilən məsələlər əsasən iki istiqaməti əhatə edir: insan hüquq və azadlıqları məsələlərində qaydalar sərtləşdirilir, dövlət idarəçiliyi üzrə sistem və idarəetmə qaydaları dəyişdirilir.**

Əslində, olduqca ciddi, taleyüklü məsələlərdir. Prezidentlik müddətinin uzadılması, vitse-prezidentlik institutunun yaradılması, parlament seçkilərində yaş məhdudiyyətinin dəyişdirilməsi ilə yanaşı, de-yure vətəndaşların və dövlətçilik ənənələrinin möhkəmləndirilməsi yönündə də bir sıra dəyişikliklər nəzərdə tutulur; məsələn, ordu sisteminin təkmilləşdirilməsi, terror və dövlətçiliyə təhlükə törədə biləcək məsələlərdə cəzanın sərtləşdirilməsi, mülkiyyətin sosial məsuliyyət, öhdəlik yaratması və sair... Eyni zamanda, bəzi məqamlar sırf korrektə xarakterlidir, daha konkret göstərilir yeni layihə üzrə.

Referendum ərəfəsində təşviqat kampaniyasının kifayət qədər aktiv keçməməsində iqtidarı daha çox qınayır bir çoxları.

Amma özünü demokratik qüvvə hesab edənlərin və vətəndaşların da günah payı daha böyükdür məncə. Çünki dünyanın hər yerində və istənilən iqtidara seçkini, referendumu müqavimətsiz keçirmək maraqlıdır. Müqaviməti təşkil etməli olan, özünü demokratik düşərgə hesab edən qüvvələr isə referendum öncəsi iqtidarla deyil, öz aralarında çəkişdilər, "mən daha artıq müxalifətəm" iddiası, hikkəsi ilə "mitinq-mitinq oyunu" oynadılar. Ölkəni idarə etmək boyda iddiaları olan müxalifət partiyalarının rəhbərləri bir araya gəlib, ümumi bir təşviqat qrupu yarada, qeydiyyatdan keçirə bilmədilər. Əli Kərimli cinahı ilk gündən özünü əziyyətə verib imza-filan toplamadı. Müsavat Partiyası isə necə imza topladısa, axırda xeyli imza nəzərə alınmadı. Əgər səmimi mübarizə fikirləri vardısa, AXCP, Milli Şura üzvləri Müsavata imza yığmaqda kömək edəydilər, 40 min əvəzinə 60 min imza toplayaydılar, MSK-nı fakt qarşısında qoyub təşviqat qrupu qeydiyyatdan keçirəydilər. Bununla ən azı telekanallarda, rəsmi dövlət qəzetlərində ödənişsiz təbliğat imkanı qazanacaqdılar. İstənilən seçki, referendum hər şeydən öncə bir qüvvə kimi mövcudluq təsbiti, demokratik ənənələri yaymaq imkanıdır. Müxalifət bu imkanı əldə etməkdə maraqlı görünmədisə, qalan şeylər hamısı demaqogiya hesab oluna bilər.

Bütün bunların fonunda iqtidar çox sakitliklə, asanlıqla, hətta qanunları belə pozmadan, saxtakarlıqlar etmədən referendumda istədiyi nəticəyə nail olacaq. Məntiqlə başqa cür olmalı da deyil...

Düzü, cəmiyyətdə, vətəndaşlarda da çox qəribə bir yanaşma var; insanlar sanki ondan heç nə asılı olmadığını düşünürlər. Düzdür, burada seçkiyə və müxalifətə inamsızlıq da mühüm amildir. Ancaq vətəndaşlıq hüquqlarından könüllü imtina ilə də nəyəsə nail olmaq mümkün deyil. Referenduma çıxarılan məsələlər, konstitusiyaya ediləcək dəyişikliklər yaxşıdır, pisdir, bu, məsələnin başqa tərəfidir və bunu xalqa müxalifət izah etməli idi. Onlar da etmədi. Heç şübhəsiz ki, hər zaman özlərinin görməli olduğu işləri jurnalistlərin, medianın üzərinə yükləməyə çalışan müxalifətçilər yenə də bu mənasız "taktika"dan yararlanmağa çalışacaqlar. Ki, bəs saytlar, qəzetlər yazmadı, çağırış etmədi. Ancaq tam yanlış yanaşmadır; medianın işi müşahidə etdiklərini yazmaq, xəbər verməkdir. Bu yazım da məhz seçki kampaniyasının nəticələrinə dair apardığım müşahidələrin yekununun oxucuya çatdırılmasıdır...

26 sentyabr referendumu ilə bağlı indi yalnız bir addım atıla bilər; referenduma getmək və səsvermədə iştirak etmək. Deyəcəksiniz ki, bu, nəyi dəyişəcək? Ən azı vicdanınız rahat olacaq ki, mən, mənim üçün çap olunmuş bülletenin başqası tərəfindən, onun istədiyi kimi doldurulub qutuya atılmasına imkan vermədim. İkincisi, seçki məntəqəsinə getmək, seçki prosesinin nə olduğunu, önəmini anlamaq üçün mütləq bu hüquqdan yararlanmaq lazımdır. Bəlkə elə bu dəyişiklər vətəndaşın xoşuna gələcək, iqtidarın təklifini dəstəkləyib referenduma çıxarılan məsələlərə "hə" deyəcək? Yaxud bununla razılaşmayacaq, "yox" deyəcək? Və ya hansı dəyişikliklə razılaşacaqsa "hə", razılaşmadığına "yox" deyəcək? Bütün bunlar isə yalnız seçki məntəqəsinə getdikdən sonra həll edilə bilən məsələdir. Evdə oturub öz-özünə danışmaqla, "mən kiməm ki" düşüncələrinə qapılmaqla daha pis bir psixoloji durum yaranır. Ən azı gedib seçki bülletenini oxuyub, konstitusiyamızda nələrin dəyişdiyini bilməyən vətəndaş sonra heç bir halda hansısa məmura "konstitusiyada belə yazılıb" deyə də bilməyəcək. Axı konstitusiya dəyişir, gedib baxmaq, bilmək lazımdır...

**Müxalifət proseslərdən uzaqda dayandıqca, seçici isə iradəsini seçki məntəqəsində ifadə etmək missiyasını öz boynuna götürməyənə qədər iqtidarı qınamaq çox absurd görünəcək..**



# Rusiya Qarabağın "açar"ını tapdı...

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Rusiya prezidenti Vladimir Putin SSRİ-nin xiffətini çəkdiyini şəxsən etiraf edib. Elə onun "SSRİ-ni dağıtmaq lazım deyildi" sözləri də bunu təsdiqləyir. Deməli, Avrasiya İqtisadi Birliyinin əslində "Yeni SSRİ" olması barədə səslənən ehtimallar heç də əsassız deyilmiş, Putin nə yolla olur-olsun imperiyanı bərpa etmək istəyir...**

SSRİ-nin Rusiyaya nələr qazandırdığı ilə işimiz yoxdur, amma bu qanlı imperiyanın caynağında 70 il çapalayan Azərbaycanın başına gələnləri düşündükcə ürəyimiz parçalanır. 1920-ci ildə müsəlman şərqində qurulan ilk demokratik dövlətimizin süquta yetirilməsindən sonra minlərlə aydınımız, dövlət adamımız, vətənpərvər insanımız məhv edildi, sürgünə göndərildi, nə qədər evlər başsız qaldı. Budur SSRİ-nin bizə verdiyi.

Bizə "Böyük Vətən Müharibəsi" kimi sırınan II dünya müharibəsində də 300 mindən artıq insanımızı itirdik. Həmin o imperiyanın nümayəndələri hətta bundan sonra da Azərbaycana, onun insanına münasibətini dəyişmədilər, yalnız 50-ci illərdə, Stalin öləndən sonra "xalq düşməni" damğasını götürməyə qərar verdilər bizim millətin qaymaqlarının üzərindən. Daha sonra nələr gördük? Hətta SSRİ-ni alman faşizmindən xilas edən Bakı neftinə, gecəli-gündüzlü çalışan insanlarımızın zəhmətinə görə də bizə saygı göstərmədilər, başımıza açdıqları oyunlara görə utanmadılar, üzrxahlıq eləmədilər.

Əksinə, Azərbaycanı məhv etmək üçün çeşidli planlar cızdılar, qəpik-quruşun qarşılığında kimyəvi zavodların, tütün, pambıq sahələrinin zəhərində boğdular, "Keçici qırmızı bayraq"larla başımızı qatdılar. Ən sonda da başımıza 20 yanvar müsibətini gətirdi həmin o əziz-xələf SSRİ. O imperiya bizə ölkəboyu Şəhidlər Xiyabanları qazandırdı...

Rusiyalı politoloq Aleksandr Proxanov da Putinə cavabında xatırladıb ki, "SSRİ-ni Qarabağ münaqişəsi dağıtdı". Bəli, "soyuq müharibə" illərində ABŞ dünyanın ikinci supergücünü, SSRİ-ni dağıtmaq üçün çeşidli planlar cızırdı. Lakin əgər Kreml separatçılıq meyllərini beşiyindəcə boğsaydı, o halda SSRİ-nin də ömrünü uzatmaq olardı...

Üstündən 25 il keçib. Ancaq görünür Moskva yenə də Azərbaycanın müstəqil dövlət olaraq mövcudluğu ilə barışa bilmir. Elə ona görədir ki, Qarabağın işğalda qalmasına hər cür dəstək verməkdə davam edir. Çünki Azərbaycan Qarabağı azad edərsə, bölgənin çox qüdrətli bir dövlətinə çevrilər, proseslərə aşkar diktə etmək şansı qazanar. Odur ki, hansı yolla olursa-olsun, Azərbaycanı "gömrük boyunduruğu"na keçirməyə çalışır. Rusiya XİN-in başçısı Segey Lavrov da Bakıya son səfərində ölkəsinin məqsədi barədə işarə vurmuşdu.

Aprel müharibəsində cəmi üç gün susa bilən Rusiya sonrakı dönəmlərdə aktiv fəaliyyətə keçdi, prezident, baş nazir, xarici işlər naziri və digər səviyyələrdə Bakıya səfərlər oldu, bəyanatlar verildi, daha nələr... Üstəlik də Rusiya hakimiyyətinə yaxın mənbələrdən vaxtaşırı "ilin sonunadək filan rayon azad olunacaq" tipli açıqlamalar gəldi. Nəticə?

Budur, nəticəsi göz qabağındadır və neçə gündür haqqında danışılır. Rusiya işğalçıya "ordunu rədd elə Qarabağdan" demək əvəzinə, ona "İsgəndər" raket kompleksini verdi. Belə mülahizələr səslənir ki, Kreml yaz aylarından bəri Ermənistandakı anti-Rusiya aksiyalarını yatırmaq, Sərkisyan hakimiyyətini qəzəbli kütlədən qorumaq üçün özünə məxsus "İsgəndər"ləri nümayiş etdirib. Əgər bu, belədirsə, yenə də yanlışdır!

Söhbət qonşu dövlətin ərazisini işğalda saxlayan ölkədə keçirilən hərbi paradda nümayiş olunan dəhşətli silahdan gedir. Söhbət həm də ondan gedir ki, bunu Ermənistana ermənipərəst Argentina yox, Qarabağ məsələsinin tənzimlənməsində "açar" rolunu oynayacağına az qala dünyanı inandıran Rusiya verib! Belə çıxır Kreml Qarabağdakı müharibə ocağını "İsgəndər" raketi ilə "söndürmək" istəyirmiş. "Açar" deyilən bu imiş. Belə "açar" olmaz olaydı...

Elə Amerikanın nüfuzlu "Stratfor" analitik-kəşfiyyat mərkəzi də deyib ki, "İsgəndər" raketləri aprel döyüşlərindən sonra Azərbaycanı ehtiyatla davranmağa vadar edəcək. Deməli, Rusiya Qarabağ məsələsini "dondurmağı" qərara alıb, necə ki, baş nazir Medvedev bunu təklif etmişdi. Ancaq Bakı da öz tədarükünü görməkdədir və yazda "don"u açılan Qarabağı "İsgəndər"lə də yenidən dondurmaq mümkün olmayacaq. Rusiya Qarabağdakı növbəti savaşı necə dayandıracaq, bax, bu, maraqlıdır. O zaman Kremlin "atəşi kəsin, açar məndədir" sözünə kimsə inanmayacaq...

**Rusiya hakimiyyətində kadr dəyişiklikləri kampaniyası ən yüksək pillələrə qədər çatıb. Rusiya Dövlət Dumasının spikeri Sergey Narışkin Xarici Kəşfiyyat Xidmətinin rəhbəri vəzifəsinə təyin olunub. Bu barədə Rusiya prezidenti Vladimir Putinin imzaladığı fərman oktyabrın 5-də qüvvəyə minəcək. Putinin digər fərmanı ilə, Xarici Kəşfiyyat Xidmətinin hazırkı rəhbəri Mixail Fradkov təqaüdə göndərilib.**



# Putinin siyasi varisinin kimliyi bəlli olur - keçmiş cangüdən...

## Vyaçeslav Volodinin Dumaya rəhbər təyinatının səbəb və nəticələri

**Ardınca isə prezident Vladimir Putin Kreml administrasiyasının rəhbərinin müavini Vyaçeslav Volodini Dövlət Dumasının spikeri postuna namizəd irəli sürüb.** Virtualaz.org "The Financial Times" qəzetinə istinadən qeyd edib ki, Narışkinin kəşfiyyata rəhbər göndərilməsi Vyaçeslav Volodinin sürətli yüksəlişi üçün yolu açır. İndi Volodin spiker postunu tutmaqla növbəti nəsil Rusiya siyasi elitasının super ağır çəkili fiqruna çevrilir: "Volodin üçün son kadr dəyişikliyi xidmətdə nəhəng irəliləyiş oldu. 52 yaşlı məmur əvvəl Dövlət Dumasının deputatı olub, ancaq 2011-ci ilin sonlarından Prezident Administrasiyasında işləyirdi. Orada o, siyasi partiyalar sistemini dəyişdirmək üçün kulislər arxasından işlər aparıb, "Vahid Rusiya" partiyasının seçkilərdə pis nəticə göstərməsindən və Moskvada Putinə qarşı etirazlardan sonra siyasi sistemi dəyişib".

Ötən ay Putin özünün çoxdankı siyasi tərəfdaşı Sergey İvanovu prezident administrasiyası rəhbərliyindən azad edib, protokol xidmətinin rəhbərini onun yerinə gətirib. Volodini isə spiker vəzifəsinə namizəd kimi nəzərdə tutub. Qəzet yazır ki, bu təyinat Rusiyanın güc strukturlarında, regional hakimiyyət orqanlarında və prezident administrasiyasında uzun illərdir Putinlə birlikdə yol gəlmiş, siyasi çəkiyə malik elita nümayəndələrinin əvəzlənməsinə yönəlmiş kadr dəyişikliklərinin kulminasiya nöqtəsidir. "Financial Times" qeyd edir ki, Narışkinin Volodinlə əvəzlənməsi Rusiyaya Qərb ölkələri ilə parlament əlaqələrini genişləndirməyə imkan verəcək. Çünki Krıma görə Narışkinə sanksiyalar tətbiq olunub.

Qəzetə danışan mənbələr deyiblər ki, Volodin son seçkilərdə hakim partiyaya Dövlət Dumasında əvvəlki 343 yerə nisbətən 450 yer əldə etməyə imkan verən parlament kampaniyasının arxitektoru idi. İndi isə onu mükafatlandırıblar: "Onun çox böyük ambisiyaları var və o, gözəl günlərin birində prezident olmaq istəyir. Volodinin siyasi karyerası inanılmaz sıçrayışla yüksəlib. İndi inanmaq çətindir ki, o, düz 15 il maşın-traktor stansiyasında mexanizator işləyib. Sonra Saratovda kənd təsərrüfatının mexanikləşdirilməsi institutuna daxil olub. Nəhayət o, öz gücünə, himayəsi Saratov qubernatorunun müavini vəzifəsinə qədər yüksəlib. O vaxtkı qubernator Dmitri Ayatskov Volodini həddən artıq ambisiyalı olduğu üçün yanından uzaqlaşdırıb, Moskvaya göndərib. Tanıyanlar deyir ki, Volodin anadan siyasətçi doğulub, dahi manipulyatordur və prezident olmaq ambisiyalarından xali deyil".



Sözgedən kadr dəyişikliklərini və bu dəyişikliklərin Rusiyanın qonşusu olan respublikalara münasibətinə təsir edib-etməyəcəyini şərh eləyən politoloq Qabil Hüseynli öncə bildirdi ki, Sergey Narışkin təcrübəli siyasətçidir, amma professional kəşfiyyatçı deyil: "Ümumiyyətlə, Rusiyada uzun müddətdir Xarici Kəşfiyyat Xidmətinə rəhbər gətirilən adamlar həmin idarənin içərisindən çıxmış professionallar olmur. İndi yenicə Xarici Kəşfiyyat Xidmətinin rəisi vəzifəsindən çıxarılan Fradkov da bu sahənin adamı deyildi. Bu vəzifəyə o baş nazir vəzifəsindən çıxarıldıqdan sonra təyin edilmişdi. İndi onu çıxarıb yerinə neçə ildir Dumanın spikeri seçilən Narışkini təyin edirlər. Narışkin də güclü siyasətçi kimi, hətta "boz kardinal" adlandırılsa belə, indi təyin olunduğu sahənin peşəkarı deyil. Hər halda Narışkin də bir müddət sonra Fradkov kimi pensiyaya göndəriləcək. Belə görünür ki, Putinin komandasında ciddi etimadsızlıq mühiti formalaşıb. Kadrlara etibarın səviyyəsi xeyli aşağı düşüb. İndi Dumaya sədr gətirilən Vyaçeslav Volodin vaxtilə Putinin cangüdənlərdən biri olmuş adamdır və Sankt-Peterburq kadrlarındandır. Bunun hesabına sürətlə vəzifə pillələrinə irəli çəkilib. Volodinə Putinin etibar etdiyi bildirilir. Hətta Rusiyada bir sıra təhlilçilər Volodinin Putinin siyasi varisi olacağını, bu adamı Putinin prezident hazırladığını deyirlər.

Belə fikirlər də yayılıb ki, Putinin komandasının içərisində ciddi narazılıqlar, hətta parçalanmalar var və son vaxtlar ard-arda həyata keçirilən şok kadr yerdəyişmələri də bununla bağlıdır. Putinin ikinci dəfə 7 illiyə prezident seçiləcəyi sual altındadır. Həm daxili vəziyyətin dəyişməkdə olması, həm də beynəlxalq birliyin hətta Dumaya seçkinin nəticələrini qəbul etməməsi bu ehtimalı yardır. Rusiyanın siyasi sistemində ciddi böhranın yaşandığını görməmək mümkün deyil. Komanda uğurlu iş apara bilmir və ölkədə vəziyyət gün-gündən pisləşir, işsizlərin sayı artır. Belə kadr dəyişiklikləri həm də əhalinin narazılığını azaltmağa hesablanıb. Lakin artıq bu cür variantlarla xalqa təsir etmək əvvəlki kimi mümkün görünmür. Təsadüfi deyil ki, son zamanlar Putinin reytinqinin aşağı düşməyə başladığı bildirilir. Odur ki, Putin kadrları dəyişməklə şahmat dili ilə desək, öz ətrafında "qala qurması" aparır, şəxsi sədaqəti olan adamları hakimiyyətin mühüm rıçaqlarına gətirir, öz şəxsi hakimiyyətinin təhlükəsizliyini təmin eləməyə çalışır".

**Segey Narışkinin Xarici Kəşfiyyat Xidmətinə rəhbər təyinatının, spiker vəzifəsinə V.Volodinin gətirilməsinin Rusiyanın qonşu respublikalarla münasibətlərində hansısa dəyişikliklərə gətirib çıxarıb-çıxarmayacağına gəlincə, politoloq dedi ki, bu münasibətlərin necə olmasını Putin müəyyənləşdirir:** "Ayrı-ayrı məmurlar çox cüzi formada prezident Putinin yeritdiyi siyasətə təsir etmək imkanına malikdirlər. Bütövlükdə siyasi xəttin formalaşmasında formal olaraq iştirak etsələr də, siyasi xəttin əsas istiqamətlərini müəyyənləşdirən Putindir. Putinin xəttinə qarşı hər hansı mövqe nümayiş etdirmək ciddi uğursuzluqla nəticələnə bilər. Ona görə də son kadr dəyişiklikləri hakimiyyətin qonşu ölkələrə münasibətində hər hansı dəyişiklik yaratmayacaq. Münasibətlərin necə olması, hansısa müsbət və ya mənfi tendensiyanın qabarması birbaşa Putinin münasibətindən qırılmaz surətdə bağlıdır. Narışkinin və ya Volodinin bu münasibətləri ciddi şəkildə dəyişdirmək imkanlarına malik olmayacaqlar".

❑ Etibar SEYİDAĞA

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 211 (6532) 26 sentyabr 2016



# Ermənistan sülh səylərini sabotaj edir

## Heç bir beynəlxalq təpki görməyən işğalçı tərəf təzədən inkarçı mövqeyə köklənib; **rəsmi Bakıdan Ermənistana xəbərdarlıq:** "İrəvan dərk etməlidir ki, status-kvo və hərbi təxribatlara arxalanmaq böyük səhvdir..."

**Ermənistandakı hərbi paradda "İsgəndər" operativ-taktiki raket komplekslərinin nümayişi, həmçinin təcavüzkar ölkənin işğal altındakı ərazilərimizdə hərbi təlimlərə başlaması şübhə yox ki, sülh prosesini bir az da qəlizə salacaq. İrəvanın son təxribatlarından sonra Azərbaycan və Ermənistan prezidentlərinin görüşü də qeyri-müəyyən müddətə öz aktuallığını itirir. Onsuz da rəsmi Bakı görüş xətrinə görüşlərin keçirilməsinin əleyhinə idi, mövcud şərtlər isə belə təmasları daha mənasız və məntiqsiz edəcək.**

**O üzdən ATƏT-in Minsk Qrupu həmsədrlərinin regiona planlaşdırılan budəfəki səfərinin əvvəlkilərdən xeyli çətin keçəcəyi şəksizdir - əgər ümumiyyətlə, bu cür səfərlərə hansısa lüzum qalıbsa.** Yeri gəlmişkən, təəssüf doğuran haldır ki, vasitəçilər nə Azərbaycanın işğal altındakı torpaqlarında erməni qüvvələrinin növbəti dəfə hərbi təlim keçirməsini, nə də bu təlimlə kövrək danışıqlar prosesinin sabotaj edilməsini hər hansı şəkildə qınamadılar. Bu da onların Dağlıq Qarabağ münaqişəsinin həllində ədalətli münsif olmadıqlarını bir daha ortaya qoydu.

***

**Əfsus ki, Azərbaycan tərəfi beynəlxalq tribunalardan bu acı gerçəyi dönə-dönə bəyan eləsə də, hələ ki heç bir ciddi dəyişiklik yoxdur.** Son olaraq Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov BMT Baş Məclisində Azərbaycan adından etdiyi çıxışda sərt Qarabağ reallıqlarını, o sırada Ermənistanın işğalçı siyasətini və bu siyasətə dünya ictimaiyyətinin loyal yanaşmasını diqqətə çatdırıb.




**Həll olunmamış silahlı münaqişələr, terrorizm, zorakı ekstremizm, təcavüzkar separatizm, dözümsüzlük, etnik və dini zəmində ayrı-seçkiliyin ən ciddi problemlər olduğunu deyən Elmar Məmmədyarov ardınca bildirib:** "Sonuncu ümumi müzakirələrdən ötən müddət ərzində Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması ilə bağlı heç bir əsaslı irəliləyiş əldə olunmayıb. Ermənistan beynəlxalq hüququ və konfliktlə bağlı BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə qəbul olunmuş 822, 853, 874, 884 saylı qətnamələrin tələblərini kobud şəkildə pozaraq, Dağlıq Qarabağ regionu və yeddi ətraf rayon da daxil olmaqla, Azərbaycan ərazilərini işğal altında saxlamaqda davam edir. Ərazilərin hərbi işğalının birbaşa nəticəsi olaraq əlaqələrin qırılması, ölkəmizin sosial-iqtisadi cəhətdən tam şəkildə inkişaf etdirilməsi və regionun istifadə olunmamış iqtisadi perspektivlərinin reallaşdırılmasına ciddi əngəl törədir. Eyni şəkildə regionun daxili və regionlar arası əlaqələr baxımından tam potensialı hələ də istifadə olunmamış qalır. Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın yürütdüyü siyasət və qanunsuz fəaliyyəti münaqişənin siyasi həllinin əldə edilməsi perspektivlərini sarsıdır və regionda sülh, təhlükəsizlik və stabilliyə bilavasitə təhlükə yaradır".

**Nazir onu da haqlı olaraq qeyd edib ki, xoş niyyətlə danışıqlar aparmaq əvəzinə, Ermənistan münaqişənin sülh yolu ilə həllinə yönələn bütün cəhdləri pozur:** "BMT Təhlükəsizlik Şurasının tələblərinə tamamilə məhəl qoymayan və beynəlxalq hüququ kobud şəkildə pozan Ermənistan öz qoşunlarını Azərbaycan ərazilərindən çıxarmaqdan imtina edir, zor gücünə məcburi köçkünə çevrilmiş yüz minlərlə Azərbaycanlının öz doğma yurd-yuvalarına geri qayıtmasının qarşısını alır və işğal olunmuş ərazilərin fiziki, demoqrafik və mədəni xarakterini dəyişdirməklə mövcud status-kvonu daha da gücləndirməyə çalışır... Ermənistan habelə atəşkəsi pozmaqda davam edir. Bundan başqa, Ermənistan işğal etdiyi Azərbaycan ərazilərində qüvvələr cəmləşdirir və möhkəmləndirilmiş hərbi istehkamlar tikir".

**Azərbaycan XİN başçısı bir daha işğalçı ölkəyə xəbərdarlıq edib:** "Ermənistan dərk etməlidir ki, status-kvo və hərbi təxribatlara arxalanmaq böyük səhvdir. Özünü əzab çəkən tərəf kimi göstərməklə münaqişənin əsl səbəblərinin kökünə dair beynəlxalq ictimaiyyəti riyakarcasına aldatmaq cəhdləri uğursuzluğa məhkumdur. Azərbaycan Ermənistandan işğal olunmuş ərazilərdə özünün hərbi mövcudluğunu dayandırmağı və münaqişənin vaxtı uzanmış siyasi həllinin tapılması üçün xoş niyyətlə Azərbaycanla danışıqlarda iştirak etməyi gözləyir. Münaqişə yalnız Azərbaycanın suverenliyi və ərazi bütövlüyü əsasında beynəlxalq səviyyədə tanınan sərhədləri daxilində həll edilə bilər. Ermənistan nə qədər tez bu reallığı dərk etsə və öz silahlı qüvvələrini işğal olunmuş Azərbaycan ərazilərindən çıxarsa, münaqişə bir o qədər tez həll ediləcək, habelə Ermənistan və onun əhalisi əməkdaşlığın perspektivləri, eləcə də iqtisadi inkişafdan faydalanacaq".

***

**Nazirin çıxışındakı sonuncu məqama xüsusi diqqət yönəltmək lazım gəlir.** Nə yazıq ki, Azərbaycanın illərdir atəşkəs dövründə işğalçı tərəfə etdiyi ədalətli sülh və iqtisadi inteqrasiya təklifləri havadan asılı qalmaqdadır. Məsələ də ondadır ki, Ermənistanın işğalçılıq siyasətinin altını ən çox elə onun öz xalqı çəkir. Xırdalamağa nə lüzum, Virtualaz.org-un xüsusi müxbiri Vahan Martirisyanlnm aşağıdakı qeydləri də yetərlidir.

**Martirosyan yazıb:** "Bu günlərdə, sentyabrın 21-də Ermənistan müstəqillik gününü qeyd edib. Bəzi ekspertlərin qiymətləndirməsinə görə, müstəqilliyin 25 illiyinin bayram edilməsinə dövlət büdcəsindən 35 milyon dollardan çox vəsait xərclənib. Bu, ölkədə etirazla qarşılanıb və bir çoxları artıq hakimiyyətin də açıq etiraf etdiyi ağır iqtisadi vəziyyətdə belə xərcləri yersiz hesab ediblər. Belə ki, ictimai fəal və fotoqraf Qrant Akobyan özünün Facebook səhifəsində Ermənistandakı ağır sosial durumu əks etdirən fotoşəkillərlə paylaşıb və yazıb: "Əziz həmvətənlər, mənim ürəyim parçalanır. Müstəqilliyin 25 illiyini qeyd edirik və buna milyonlar xərclənir, halbuki eyni vaxtda minlərlə ailə kasıblıq həddindən aşağıda yaşayır (ac, dərmansız, köməksiz, evsiz). Bunlar sadəcə, sözlər deyil, bunu bilərək və görərək, bir tikə çörək də boğazımdan keçmir, bəs bu əclaflar belə bayramlar təşkil edərək necə doyunca yeyib içə bilirlər?"

**Necə deyərlər, əlavə şərhə ehtiyac qalmır.**



## "Müharibə olsa, Ermənistan xəritədən silinəcək" - proqnoz

**"Guya silahlar Ermənistana 200 milyon dollarlıq kredit adı altında verilir. Ancaq təkcə Ermənistana verilən "İsgəndər"lərin dəyərinin 2 milyard dollar olduğu məlumdur". Bu sözləri politoloq Qabil Hüseynli Rusiyanın işğalçı Ermənistana ötürdüyü son silahlarla bağlı deyib (Axar.az).**

Onun sözlərinə görə, Rusiyanın özünün ciddi iqtisadi və sosial problemlərinin olmasına baxmayaraq, səxavətlə Ermənistana milyardlarla dollarlıq silah ötürməsinin hansı xarakter daşıdığını anlamaq çox çətindir: "Rusiya Cənubi Qafqaza münasibətində kəskin dönüş edib. Məqsəd isə Azərbaycanın ehtimal edilən həmləsindən Ermənistanı qorumaqdır. Ermənilər yenidən rusun səsi ilə danışmağa başlayıblar. Ermənistanın bölgədə sülhü təhdid edən bəyanatlarına qarşı Azərbaycan çox ciddi cavab tədbirləri görür".

Politoloq bölgədə müharibə başlayacağı təqdirdə Ermənistanın bir dövlət kimi xəritədən silinəcəyini deyib: "Dünənədək sülhdən danışan, Minsk Qrupunun həmsədri kimi tərəfləri bir araya gətirərək onları müəyyən razılaşmalara meyllendirəcəyini deyən Rusiyanın birdən-birə Ermənistanı silahlandırması onun bölgədəki mövqeyinə də xələl gətirəcək. İstisna deyil ki, Azərbaycan bu məsələ ilə bağlı diplomatik kanallarla Rusiya ilə danışıqlar aparır. Ən yaxşı halda Rusiya Azərbaycana da "İsgəndər" raketlərini sata bilər. Ancaq bu, bölgədə müharibə ehtimalını artırır. Bölgənin bu dərəcədə silahlandırılması Rusiyanın silah satışını genişləndirsə də, ciddi nəticələr verəcəyi qənaətində deyiləm. Onsuz da Rusiyanın Suriyada imici kifayət qədər zəifləyib. Postsovet məkanındakı münaqişələrlə bağlı üzərinə böyük məsuliyyət düşən Rusiyanın Dağlıq Qarabağla bağlı siyasətində dəyişiklik etməsinə gəldikdə isə Moskvanın hansı niyyət güddüyünü hələ sona qədər dəqiqləşdirə bilməmişik. Hesab edirəm ki, bu məsələləri beynəlxalq təşkilatların müzakirəsinə çıxarmağın vaxtıdır".

YENİ MÜSAVAT
N 211 (6532) 26 sentyabr 2016

# "Cəmiyyətimizdə aqressiya savadsızlıqdan qaynaqlanır"

## Nevropatoloq Qalib Əsədov: "Zəhərli ilanlardan və zəlzələdən necə qaçırsınızsa, mübahisələrdən də elə qaçın"

**İnsan yaşadığı mühitin məhsuludur deyirlər. Təəssüf ki, bu gün cəmiyyətimizdə bir aqressiya, gərginlik hökm sürür, intiharlar baş alıb gedir. Bütün neqativ hadisələr isə şübhəsiz ki, insanın psixikası, əsəbləri ilə əlaqəlidir. İnsanların bu qədər gərgin olmasının səbəbləri, əsəbləri cilovlamağın qaydaları, mübahisələrdən qaçmağın yolları barədə suallarımıza cavab almaq üçün nevropatoloq Qalib Əsədovla söhbətləşdik.**

***- Hazırda insanların həyat tərzində özünü göstərən qeyri-adi gərginlik, əsəbilik nədən qaynaqlanır?***

- Son vaxtlar insanlarda aqressiya artıb. Burada əsas günah məhz uşaqların tərbiyəsində baş vermiş səhvlərdədir. İndiki uşaqlar heç bir əziyyət görmür. Ata-anaları onların hər istəklərini həyata keçirir. Hətta bu, o həddə çatıb ki, uşaq gecə yarısı ayağını yerə döyüb nəsə istəsə belə, valideynləri dərhal gedib onun arzusunu yerinə yetirir. Nəticədə uşaqda belə bir fikir formalaşır ki, problemini həll etmək üçün, istədiyinə nail olmaq üçün qışqırmaq, haray-həşir salmaq lazımdır. Məhz onların ərköyün böyüdülməsi, hər istədiklərinin yerinə yetirilməsi nəticəsində onlar elə formalaşırlar ki, kiçik bir problemi faciə kimi qəbul edirlər. Onlarda cəmiyyətə, problem yaradan insanlara qarşı hiddət, qəzəb yaranır və arzularına çatmaq üçün bəzən təzyiqə əl atırlar. Aqressiyanın artmasına ikinci səbəb kimi məktəblərdə təlim-tərbiyə işlərinin düzgün təşkil olunmamasını göstərmək olar. Bildiyimiz kimi, bütün məktəblərdə psixoloq var. Bəs onlar vəzifələrini düzgün yerinə yetirirlərmi? Müxtəlif konfranslar, tədbirlər, tematik işlərin keçirilməsi, çətin tərbiyə olunan uşaqlarla, onların valideynləri ilə fərdi söhbətlər nə dərəcədə aparılır? Keçmişdə pioner, komsomol təşkilatları var idi. Bu təşkilatlarda uşaqlarla iş aparılır, onlara yaxşılıq, dostluq etmək, vətənpərvər olmaq kimi keyfiyyətlər təbliğ olunurdu. Amma indi bu iş aparılmır və hər kəs öz eqosuna xidmət edərək sadəcə, öz həyatını yaşayır. Cəiyyətdəki aqressivliyin digər səbəbi də Kütləvi İnformasiya Vasitələri, televiziyalardır. İndiki, gənc nəsildə Rembolar, Rocky Balbolar, Bruslilər, Polad Alemdarlar və Mematilər yetişir və onların idealları məhz bu personajlardır. Onlar isə problemi ancaq öldürməklə, döyməklə və müxtəlif aqressiv üsullarla həll edirlər. Buna baxan gənclər də problemlərini məhz bu yolla həll etməyə çalışırlar. Düzdür, keçmişdə də döyüş filmləri var idi. Amma orada düşüncə, məntiq, intellekt ön planda göstərilirdi. Çox təhlükəli haldır ki, yeniyetmələr özlərini kriminal aləmin avtoritetlərinə bənzədir və bununla da fəxr edirlər. Bu gün idmanın döyüş növləri daha çox reklam olunduğu halda elmlə bağlı və intellektual verilişlər efirlərdə yox dərəcəsindədir. Bizim ölkəmizdə 700 bal yığan və ya Oksford, Kembric, Harvard kimi universitetlərdə təhsil alan tələbələr var. İdmançılarımızı hamı tanıdığı halda, bu tələbələri, bu savadlı gənclər heç kimə məlum deyil. Amma mən deyərdim ki, həmin gənclər hansısa olimpiada çempionundan daha üstün və ölkə üçün də daha gərəklidir. Bu intellektlərin lazımi səviyyədə təbliğ olunması uşaqlarda oxumaq həvəsini daha da artırar, savadlı adam isə heç vaxt aqressiv ola bilməz. Aqressiyanı yaradan səbəblərdən biri də dinin radikal qoludur.

***- Bu gün hətta az yaşlı uşaqlarda belə əsəbilik var, ailə mühitinin, məktəbə qədər təhsilin, məktəbin uşaqların əsəb sisteminə hansısa səviyyədə təsiri varmı?***

- Ümumiyyətlə. əsəbləşmək insana xas keyfiyyətdir. Sadəcə, müdrik insan əsəblərini cilovlamağı bacarır. Müdrik olmaq üçün də oxumaq lazımdır. Təhsilin səviyyəsi aşağıdırsa, belə cəmiyyətdə cahil insanların sayı artır. Bu cür insanlar da əsəblərini cilovlaya bilmir. Baxın, məsələn, toylarda hansısa bir bəhanə ilə adətən kimlər dalaşır? Savadsız, mədəniyyəti, təhsili aşağı olanlar. Ziyalı isə nəyin bahasına olursa olsun əsəblərini cilovlaya bilir. Və yaxud balaca uşaqlar həmişə dalaşırlar. İnsan yaşa dolduqca, kamilləşdikcə daha ağıllı olur. Müdrik insanlar isə problemlərini sakit yolla həll edirlər. Cəmiyyətimizdə aqressiya savadsızlıqdan qaynaqlanır. Eyni zamanda hüquq-mühafizə orqanlarının bəzən xuliqanlıq edən ünsürlərə, asayişi pozan belə aqressiv insanlara loyal münasibəti cəmiyyətdə belə adamların daha da qol-qanad açmasına rəvac verir. Məsələn, bu yaxında Nərimanov parkında qıza təpik atan oğlanı dövlət tapmalı və ictimai qınağa çevirməli idi. Oğlan video kameralara düşüb. Nədən hələ də bu adam tapılmayıb və ictimai qınaqla üzləşməyib? Düzdür, sosial şəbəkələrdə kifayət qədər müzakirə olunsa da, operativ reaksiya yoxdur. Axi bu "gədələr" sabah sənin, mənim, başqasının əzizlərinə qarşı belə hərəkət edəcək və özünə oxşar varlıqlar da onu "qəhrəman" edəcəklər.

***- İnsanın qəbul etdiyi qidaların, ümumiyyətlə qida rejiminin əsəblərə təsiri varmı?***

- Qidalanmanın, oturaq iş rejiminin əsəblərə heç bir təsiri yoxdur. Dediyim kimi, əsəbiləşmək insana xas keyfiyyətdir. Amma əsəbləşən insanın özünü necə aparması onun əxlaqından və zəkasından asılıdır. İnsan nə qədər qışqırırsa, səviyyəsini o qədər aşağı salır. Oxuculara demək istəyirəm ki, əgər qışqırmaq, dalaşmaq istəyirsinizsə, düşünün ki, mən axı səviyyəli insanam və qarşımdakının səviyyəsinə düşməyəcəm. Mübahisədən, davadan istənilən formada qaçmaq mümkündür.

***- İntiharlar çoxalıb. Bu intiharları doğuran səbəblər sırasında insanın psixi durumu çox rol oynayır yoxsa sosial iqtisadi səbəblər?***

- İntiharların bir neçə növü var. Məsələn, aprel döyüşlərində zabitimizin biri öz vücudu ilə qumbaranın üstünü örtdü və öz ölümü bahasına olsa belə, neçə əsgərin həyatını xilas etdi. Bu intihar olsa da, qəhrəmanlıqdır. Belə qəhrəmanlıqlar mən deyərdim ki, hətta təbliğ olunmalıdır. Sovetlər vaxtı 2-ci Dünya müharibəsində belə adamlara qəhrəman adı verilirdi. Bir də var, insan çıxır "Koroğlu" metrosunun yaxınlığındakı körpüyə və deyir ki, filan problemim həll olunmasa özümü atacam. Bu yalançı intihardır. Yalançı intihar nəzər diqqət cəlb etmək üçündür. Bəzən o adamlar sözünü deyərkən ayağı sürüşür və həqiqi intihar baş verir. Təbii ki, söhbət intihardan gedirsə, insanın psixoloji vəziyyətində olan problemlər nəzərə alınır. İntiharlar zəncirvari olur. Xatırlayırsınızsa, Türkiyədə "Bu akşam ölürüm, beni kimse tutamaz" adlı bir mahnı vardı. Bu mahnının klipi təzə çıxanda Türkiyədə nə qədər insan özünü atıb intihar etdi. Yaxud kimsə özünü körpüdən atır, sonra bu hallar təkrar olmağa başlayır. Elmdə buna "Verter fenomeni" deyilir. KİV-lərdə, televiziyalarda bunun təbliğ olunması zəncirvari reaksiya əmələ gətirir. Ona görə də bəzi ölkələrdə intiharların televiziya vasitəsi ilə göstərilməsi qadağandır. Mən reanimasiyada işləyəndə intihar etmiş insanlar yaxınları tərəfindən xilas edilərək xəstəxanaya gətirilirdi. Onlar deyirdilər ki, bizi xilas edin, ölmək istəmirik. Sağalandan sonra deyirdilər ki, intihar etmək kimi axmaq bir fikir haradan ağlıma gəldi bilmirəm. İntihar etmək istəyəndə hansısa psixoloq ona kömək etməyə gəlir. O, əslində vaxtı uzadır. İntihar etmək istəyən insanla 5-10 dəqiqə söhbət olunarsa, o adamın fikri yayınır və intihar etməkdən vaz keçir. Bu gün insanlar problemləri ilə baş-başa qalıb. Onlar dərdlərini heç kimlə bölüşmürlər, çünki heç kimə inanmırlar. Məsələn, xarici ölkələrdə etimad telefonu var. Anonimdir, həmin adam zəng edir və problemini danışır məsləhət alır. İnsanın başına elə bir problem gələ bilər ki, onu nə valideynlərinə, nə də yaxınlarına deyə bilməz. O, psixoloqun da yanına gedə bilmir, qorxur ki, onun sirrini yayarlar. İnsanlar cəmiyyətin onu anlamamasından qorxaraq. çıxış yolunu intiharda görür. Amma bilməlidirlər ki, istənilən problemin həlli, çıxış yolu var. İstənilən emosional stress 12 dəqiqə davam edir. 12 dəqiqəyə əsəbiləşən insanın beynindən adrenalin çıxır. Əgər sonradan siz əzab çəkirsinizsə, demək, onu özünüzə psixoloji təlqin edirsiniz. Hətta sevgiliniz sizi atsa belə, ailəniz dağılsa belə onun stressi 12 dəqiqə çəkir. Təəssüf ki, Azərbaycanda nevropatoloqa, psixiatra müraciət etməyi ayıb bir iş bilirlər. Bizə mentalitet cəhətdən yaxın olan Türkiyədə belə, bu cür deyil. Biz hətta psixi xəstəni belə psixiatr yanına göndərə bilmirik. O dəqiqə deyirlər ki, onu dəli hesab edirsiniz?

***- Normal əsəb sisteminə sahib olmaq üçün əsas şərt nədir?***

- İlk növbədə təhsil, oxumaq, öyrənmək. İnsanlar maarifləndirilməlidir. İnsan nə qədər çox oxusa, dünya görüşlü olsa, onun əsəb sistemi də o qədər normal olacaq. Elm insanları təbliğ olunmalıdır. Bizim Azərbaycan televiziyasında bircə dənə də olsun elmi-kütləvi veriliş deyə bilərsinizmi? Efirlərdə ancaq ailə məişət problemləridir. Düzdür, bu cür sosial verilişlər də lazımdır, amma elmi də unutmaq olmaz. Gəncləri oxumağa, təhsilə həvəsləndirmək lazımdır. Valideynlər uşaqlara qarşı daha diqqətli davranmalıdır. Heç bir halda uşağa nəzarəti itirməməlidirlər. Qalmaqallar, şou xarakterinə təşkil olunan, insanlarda aqressiv fikirlər aşılayan verililişlərdən imtina olunmalıdır. Bu gün gənclər, cəmiyyət hansısa şou-biznes ulduzunu daha yaxşı tanıyır, nəinki Lütfüzadəni. Bu yaxında bir toydaydım. Azərbaycanın çox tanınmış bir akademikinə söz verdilər. O da olduqca mənalı bir çıxış etdi. Sonra isə heç bir təhsili olmayan şou-biznes ulduzlarndan biri gəldi. İnsanlar onu az qala ayaq üstə alqışladılar. Çünki KİV akademiki, elm adamını yox, məhz belə savadsızları reklam edir.

***- İnsanlar əsəbiləşəndə həkim məsləhəti olmadan bir sıra sakitləşdirici dərmanlar qəbul edirlər. Bu ziyanlıdırmı?***

- Ot tərkibli sakitləşdiricilərin heç bir ziyanı və faydası yoxdur. İnsana psixoloji cəhətdən elə gəlir ki, o dərmanı qəbul edib sakitləşdi. Bu gün apteklərdə satılan əsl sakitləşdirici dərmanlar həkim resepti, hətta möhürü olmadan verilmir. Mən insanlara tövsiyə edərdim ki, əsəbiləşəndə yaxşı olar ki, həmin mühitdən uzaqlaşıb, məsələn, alış-verişə getsinlər və ya stadionda qaçıb enerjilərini atsınlar. Qaynananızla dalaşmısınızsa, mağazaya düşüb bir çörək alıb gəlin, sakitləşəcəksiniz. Mübahisədən qaçmağın ən rahat yolu sakit durmaqdır. Sakit dura bilmirsənsə, mühitdən uzaqlaşmalısan. Zəhərli ilanlardan və zəlzələdən necə qaçırsınızsa, mübahisələrdən də o cür qaçın. Mübahisə qurtarandan sonra onun iştirakçılarının hər biri on haldan doqquzunda əvvəllər olduğu kimi özlərinin haqlı olduğuna daha möhkəm inanmış olurlar. Siz mübahisəni uda bilməzsiniz. Bilməlisiniz ki, qalib gələndə belə uduzursunuz. Nəyə görə? Ehtimal edək ki, siz öz opponentiniz üzərində zəfər çaldınız və onun bu məsələdə heç bir qiymət kəsb etmədiyini sübuta yetirərək öz arqumentlerinizlə onu yıxıb sürüdünüz. Bəs o? Siz onun özünü alçaldığını hiss eləməyə məcbur etdiniz. Siz onun qürurunu yaraladınız və sizin triumfunuz onda yalnız qisas yanğısını doğuracaq. Beləcə siz yeni bir düşmən qazandınız. Sizə bu lazımdırmı?



**"Sevgiliniz sizi atsa belə, ailəniz dağılsa belə, onun stressi cəmi 12 dəqiqə çəkir"**

***- Filosoflar ruhi sakitliyi xöşbəxtliyin əsas əlaməti hesab edir. Bu fikirlə razısınızmı?***

- Bu dünyada hamı xoşbəxtlik axtarır və onu tapmağın yalnız bir üsulu, bir düzgün yolu var - öz düşüncələrinin üzərində nəzarətdir. Xoşbəxtlik xarici şəraitdən asılı deyil. Bu daxili şəraitdən asılıdır. Sizi xoşbəxt və ya bədbəxt edən sizin kim olduğunuz və ya harada olmağınız deyil. Sizi bu cür edən sizin bu haqda nə düşündüyünüzdür. Məsələn, iki nəfər eyni bir yerdə ola bilər, eyni bir işlə məşğul ola bilər, hər ikisi bərabər kapitala, cəmiyyətdə bərabər çəkiyə malik ola bilər. Bununla belə onlardan biri xoşbəxtdir, o biri yox. Niyə? Nöqteyi-nəzərlərin fərqli olması səbəbindən. Biri deyir nə yaxşı ki, işim var, şikəst deyiləm, heç kimə möhtac deyiləm. O biri isə deyir ki, bu nə həyatdır mən yaşayıram, camaat villada yaşayır, xaricə istirahətə gedir, mən bədbəxtəm və sairə. Tanıdığım bir fəhlə var. Günün altında 5-10 manata külə dönərək qan-tər içində günəmuzd işləyir, amma çox xoşbəxt olduğunu deyir. Çünki çəkəcəyi bir qayğı yoxdur və o, bunu xoşbəxtlik sanır. Ona görə də oxuculara məsləhət görərdim ki, hər səhər evdən çıxanda qamətinizi dikəldin, başınızı elə yüksək tutun ki, elə bil ona tac qoyulub. Sinə dolusu nəfəs alın. Mövsümdən asılı olmayaraq Günəşin işığını için. Dostlarınızı təbəssümlə salamlayın və görüşəndə hər bir əli ürəkdən sıxın. Yanlış başa düşülməkdən qorxmayın. Öz bədxahlarınz, düşmənləriniz, sizə paxıllıq edənlər barədə heç bir an da olsa düşünməyin. Bütün fikirlərinizi nə etmək istədiyinizin üzərində cəmləyin. Başınızı aşağı salıb vicdanla işinizi görün. Günlərin bir günü başınızı qaldırıb görəcəksiniz ki, ətrafınızdakı hər kəs sizə hörmət edir və sənətinizin zirvəsindəsiniz.

❑ Günel MANAFLI

YENİ MÜSAVAT
N 211 (6532) 26 sentyabr 2016

# Jurnalistin qəzaya düşən atası hələ də komadadır

## İmdad Əlizadə: "Nə xəstəxanada saxlamağa imkanımız var, nə də gətirməyə evimiz..."

**Bu ilin fevral ayının 14-də jurnalist İmdad Əlizadənin qəza keçirən atası, yazıçı-publisist Əli Əliyevin durumu hələ də kritikdir və komadan ayılmayıb. 8 aydır komada olan 70 yaşlı yazıçının ailəsi o möcüzənin baş verəcəyi günü gözləyir.**



Lakin ailənin qayğıları bununla bitmir. Bir tərəfdən atalarının durumu ilə bağlı nigarançılıq, digər tərəfdən külli miqdarda vəsait tələb edən müalicənin xərcləri, eləcə də yaşadıqları mənzilin acınacaqlı vəziyyətdə olması ailəni çətin vəziyyətə salıb. Musavat.com-un əməkdaşları jurnalist İmdad Əlizadənin ailəsinin düşdüyü bu çətin durumu ictimailəşdirmək üçün onların yaşadıqları mənzilə baş çəkib.

1993-cü ildə Laçın rayonundan qaçqın düşən ailə 22 ildir uşaq bağçasında yaşayır. Köhnə tikilinin birinci mərtəbəsində məskunlaşan 9 nəfərdən ibarət ailənin yaşam şəraiti olduqca çətindir. Binanın zirzəmisi qurunt suları ilə dolduğundan mənzildə rütubət hiss olunur. Rütubətdən evin divarların boyası qopub tökülüb, evin döşəməsi də nəmişlikdən çürüyüb. Ailə üzvləri isə rütubətin yaratdığı revmatizm və allergiya xəstəliklərindən əziyyət çəkirlər.

**Jurnalist İmdad Əlizadə** deyir ki, evlə və maddi durumları ilə bağlı problemləri olsa da, bu gün onları ən çox narahat edən məsələ atalarının sağlıq durumudur. Bu günə qədər Əli Əliyevin müalicəsinə 76 min manat vəsait xərclənib. Artıq ailənin müalicəni davam etdirməyə, atalarını xəstəxana şəraitində saxlamağa maddi imkanları yoxdur. Lakin mənzil şəraiti normal olmadığı üçün xəstəni evə gətirmək də onun həyatı üçün birbaşa risk təşkil edir: "Fevral ayının 14-də atamı Dərnəgül yolunda maşın vurdu və həmin gündən atam komadadır. Sentyabrın 17-də əməliyyat olundu, lakin vəziyyətində heç bir müsbət dəyişiklik olmayıb. Ümidlə yaşayırıq ki, atamız komadan çıxacaq. Atama ən ağır kəllə-beyin travması diaqnozu qoyulub. Beyninin hər yerində zədə var. Biz əlimizdən gələni edirik, qalanı isə Allahın təqdiridir".

**Problemin digər tərəfi isə müalicənin həddindən artıq baha olmasıdır. Aylardır komada olan Ə.Əliyevin xəstəxanada qalmasının bir günü ailəyə 400-500 manata başa gəlir**: "Mərkəzi Klinik Xəstəxanada qaldığı müddətdə biz oraya 68 min manatdan artıq pul ödədik. Bu bizim imkanımız xaricində olan xərclər idi. Sağ olsun, dostlar kömək elədi, xüsusən də bir xeyirxah dostumuz bu məbləğin böyük bir hissəsini üzərinə götürdü. Bu müddətdə çox çətin günlər yaşadıq. Məcbur qalıb atamın "54 gün erməni mühasirəsində" kitabını yenidən çap edib satışa çıxartdıq, bu kampaniyadan 8 min manatdan çox pul əldə etdik və xəstəxana xərclərini ödədik. Atam 1993-cü il martın 30-dan mayın 23-nə kimi Laçın və Kəlbəcər rayonları ərazisində erməni mühasirəsində qalıb. 2012-ci ildə o, mühasirə xatirələrini "54 gün erməni mühasirəsində" adlı kitabında çap etdirib. Atam və onunla birgə mühasirədə qalmış 18 nəfərin əzablı günlərindən bəhs edən "54 gün mühasirədə" adlı sənədli film də çəkilib. Bu kampaniyadan gələn vəsaitləri də müalicəyə xərclədik və indi yenə çətin durumdayıq. Bu prosesin nə qədər davam edəcəyini, atamın komada nə qədər qalacağını, ayılıb-ayılmayacağını heç bir həkim bilmir. Bu xəstəlik həm xəstənin özü, həm də yaxınları üçün tibbdə ən ağır vəziyyət hesab olunur. Müalicəyə vəsait tapılmasa mən məcburam ki, atamı xəstəxanadan evə köçürəm. Ancaq bunun çox böyük riskləri var. Atamın tibbi statusu onun evə köçürülməsinə imkan verməsə də, pul tapmasaq buna məcbur olacağıq".







**İmdad Əlizadə deyir ki, normal bir şəraitdə reanimasiya xəstələrinin yaşaması riskli olduğu halda, bu şəraitsiz evə atasının gətirilməsi mümkün deyil. 22 ildir burada yaşayan ailənin başqa ümid yeri də yoxdur:** "Uşaq bağçasında yaşayırıq. Binanın zirzəmisi su ilə dolub, divarlardan nəmişlik yağır. Reanimasiya xəstəsinin burada qalması qeyri-mümkündür. Biz indi bu vəziyyətdən çıxış yolu axtarırıq. Bugünkü maddi durmumuz evi təmir etməyə, şəraiti düzəltməyə imkan vermir. Çünki əlimizə gələn bütün pulu, aldığımız maaşı ən zəruri tələbatlarımızı çıxmaqla xəstəxanaya ödəyirik. Atamın komadan ayılmaq şansı var və biz ümidlə bunu gözləyirik. Onun üçün isə xəstəxana şəraitində müalicəsi davam etməlidir. Müalicəsinin davam etməsi üçün isə maddi vəsait lazımdır. Mən dövlət qurumlarına, xeyirxah insanlara, müraciət edirəm ki, bu vəziyyətdən çıxmağımıza yardım etsinlər".

İmdad Əlizadə onu da vurğuladı ki, qəza törədib atasını bu vəziyyətə salan Seymur Qarayev adlı şəxsdir. O, xəstənin müalicəsinə maddi-mənəvi kömək etməkdən imtina etməklə yanaşı, min bir bəhanə ilə ailəyə pul ödəməkdən yayınır: "Bu günə qədər xərclərin yalnız 3600 manatını Seymur ödəyib, bu, heç xərcin 5 faizi də deyil. O, dəfələrlə vəd versə də, hər dəfə bizi aldadıb və yardım etməyib".

**Qəza ilə bağlı məhkəmə prosesinə gəlincə, İmdad Əlizadə bildirdi ki, atasının vəziyyətinə görə işin istintaqını yekunlaşdırmaq mümkün olmayıb və bu səbəbdən iş məhkəməyə göndərilməyib:** "Atam ya sağalmalıdır, ya da Allah göstərməsin digər bir variant olarsa, həkimlər rəy verəcək ki, qəza ölümlə nəticələnib. Hazırda koma vəziyyəti davam etdiyinə görə, yekun rəyi vermək və işi məhkəməyə göndərmək mümkün deyil. İşin istintaqı ilə bağlı bir narazılığımız yoxdur. Avtotexniki ekspertizanın rəyində də yazılıb ki, qəza sürücünün günahı ucbatından baş verib, qəzanın qarşısını almaq üçün imkanı olsa da bundan istifadə etməyib".

Sonda İmdad Əlizadə atasının yeni çapdan çıxan kitabına ürək sözlərini yazıb bizə bağışlayır. İlk səhifəni müəllif üçün saxlayıb, ikinci səhifədən yazır. Biz də ümid edirik ki, növbəti reportajı Əli Əliyev sağlığına qovuşub evinə döndüyü zaman hazırlayacağıq və o zaman kitabın ilk səhifəsinə onun özünü ürək sözləri yazılacaq...

**Bunun üçün isə xeyirxah insanların və aidiyyəti dövlət qurumlarının jurnalistin ailəsinə yardım etməsi vacibdir.**

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar: Məğrur MƏRD**





# Şəhid atası fəryad edir

## Ağstafa sakini: "Oğlumun adını ləkələnməsinə dözə bilmərəm"

**Ağstafa rayonu, Dağ Kəsəmən kəndinin sakini, şəhid atası Sahib Yolçuyev redaksiyamıza gələrək şikayətlənib. Şəhid atası bildirib ki, ötən ilin iyunun 23-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Qazax rayonu sahəsində qoşunların təmas xəttində hərbi yoldaşları ilə birgə minaya düşərək həlak olan oğlu Turan Yolçuyevin adına bir ildən sonra satqın damğası vurulub:**

"Oğlum uzun müddət Qazaxda yerləşən N saylı hərbi hissədə manqa komandiri olub. Xidmət etdiyi müddətdə Müdafiə Nazirliyinin fəxri fərmanı, korpus komandirinin təşəkkürnamələri ilə təltif olunub. 2015-ci il 23 iyunda, səhər saatlarında o, iki yoldaşı, əsgər Babacanov və Musa Musayevlə birgə postu tərk ediblər. Komandirinin dediyinə görə, onlar özbaşına bu cür hərəkət ediblər. Babacanov ifadəsində bildirib ki, onlar ermənilərlə 40-50 metrlik sərhəddə dayanıblar. Turanla Musayev bir ağacın altında söhbət etdikdən sonra geri qayıdıblar və minaya düşüblər. Hər ikisinin ayağını mina aparıb. Babacanovun dediyinə görə, ayılanda görüb ki, oğlum telefonla hərbi hissəyə zəng edərək, kömək istəyib və telefonu ona verərək hissəyə qayıtmağını, kömək gətirməyini xahiş edib. Babacanov hərbi hissəyə dönərkən yolda güllə səsləri eşidib. Kimsə hər iki yaralı əsgəri güllələyib. Onların kim tərəfindən vurulduğu hələ də bilinmir.

Beləcə, 2-3 gün cəsədləri götürmək mümkün olmayıb. Sonradan Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə cəsədlər ərazidən çıxarılıb və bizlərə təhvil verilib. Oğlumu mənə təhvil verəndə axşam çağları idi. Cəsədi qoymaq üçün hansı morqa müraciət etdimsə məni yaxın buraxmadılar. Məcbur qalıb cəsədi gecə saat 1-də dəfn etməli oldum. Ekspertizadan bildirdilər ki, minaya düşdükdən sonra avtomatın qundağı ilə oğlumun başına vurub, sonra isə güllələyib, ciblərində axtarış aparıblar. Əvvəlcə bizə bildirmişdilər ki, hər iki əsgər hərbi xidmətlərini yerinə yetirərkən həlak olublar. Lakin bir ildən sonra, ötən aylarda mənə dedilər ki, sənin oğlun satqınlıq edərək qəsdən yoldaşlarını düşmən sərhədinə aparıb".

**Şəhid atası olay barəsində ilginc məlumatlar açıqlayıb**: "Öncə deyirdilər ki, onları güllələyən əsgər Babacanov olub. O, öz ifadəsində bunu təsdiqləyib. Lakin Babacanov sonrakı məhkəmələrdə bildirdi ki, onu vəhşicəsinə döyərək həmin ifadəyə qol çəkməyə məcbur ediblər. Mən bu işdə daha çox cənfəşanlıq edən, rayonun bələdiyyə üzvü Hamlet Hajalıyevdən şübhələnməyə başladım. Çünki rayon kiçik yerdir, şayiə tez yayılır. Hamı bilirdi ki, Hamlet İran-Ermənistan sərhədindən narkotik maddələr keçirir. Yayılan məlumatlar görə, oğlum və digər əsgərlər onun əməllərindən xəbərdar olublar. Hamlet Hajıyevin hərbi hissənin komandiri ilə yaxın dostluq əlaqələri olub. Onun əməllərinin ört-basdır edilməsi üçün oğlum və digər əsgər yoldaşlarının öldürülməsinə qərar verilib. Günahı isə Babacanovun boynuna atırlar. Mən bu barədə dəfələrlə ölkə prezidentinə, aidiyyəti orqanlara məktublar yazdım. Nəhayət, bir gün onu külli miqdarda narkotik maddə ilə həbs etdilər. O, hal-hazırda da istintaq altındadır. Lakin onun həbsindən sonra əsgərlərin ölümü ilə bağlı istintaqda dəyişikliklər edilməyə, Hamlet Hajıyevin xeyrinə addımlar atılmağa başlanıldı. Məni isə çağırıb dedilər ki, ərizə yaz ki, oğlum ilə bağlı istintaq işinə xitam verilsin. Məni buna məcbur etdilər. Dedilər ki, sənin oğlun satqınlıq edib. Bir gündən sonra yenə də çağırıb tanış olmadığım qovluqlara qol çəkməyimi tələb etdilər. Xahiş etdim ki, onlarla tanış olum sonra qol çəkərəm, lakin icazə verilmədi, dedilər ki, bu dəqiqə qol çəkməlisən.

Mən 28 yaşında gənc oğlumu şəhid vermişəm. Hazırda 5 yaşlı oğlu yetim qalıb. Bu acımız azmış kimi Hamlet Hajıyevin işini ört-basdır etmək, onu həbsdən qurtarmaq üçün şəhid oğlumun adını ləkələməyə çalışır, ona satqın damğası vurmaq istəyirlər. Ataya bundan da ağır zərbə ola bilərmi?! Oğlumun adının bu cür ləkənlənməsi mənə əzab verir, mən buna dözə bilmərəm. Bizim ailə buna layiq deyil. Atam müharibə veteranıdır, əmim Sovet İttifaqı qəhrəmanı olub. Oğlum da xidməti müddətində layiqincə Vətəninin keşiyində durub. Niyə məhz bu adla ləkələmək istəyirlər balamı? İnanıram ki, bir azərbaycanlı kişi ortaya çıxıb şəhid övladımın adına vurulan yalan ləkəni götürə biləcək".

**Yazıda adı qeyd olunan şəxslərin də mövqeyini dərc etməyə hazırıq.**

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 211 (6532) 26 sentyabr 2016

# Teleaparıcı: "Düşünür ki, toya getmirsənsə, acından ölürsən"



**Teleaparıcı Samir Bayramlı ilə şəhər restoranlarının birində bir araya gəldik. Musavat.com saytının suallarına cavab verən aparıcı ilə söhbətə yeni işlərindən başladıq:**

***- Yeni mövsüm başlayır. Hazırladığınız yeni layihə var?***

- Keçən dəfə mənə dedilər ki, dəxili olan da, olmayan da efirdə oldu, bir sən olmadın. Hələ ki, bir layihəm yoxdur. Mən kiminsə dalınca qaçıb, iş xahiş edə bilmərəm. Bunu bacarmıram. Mən hər zaman təkliflərə uyğun çalışmışam. Televiziya və ya layihə rəhbəri zəng edib, təklif irəli sürüb, bəyənmişəmsə, onlarla çalışmışam. Mən sponsordan, ondan-bundan xahiş edib, iş ərsəyə gətirə bilmərəm. Bu məndə alınmır. Hələ ki, layihə yoxdur. Olan zaman mətbuata açıqlayacağam.

***- Uzun müddətdir ki, efirdə eyni simaları görürük. Sizcə, efirə niyə yeni simalar gəlmir?***

- Bəlkə də, yeni simalar gəlir, mən görməmişəm. Bizdən sonra da televiziyaya gəlib, məşhurlaşan aparıcılar var. Amma sevilmək və aktual olmaq məsələsi öz yerində qalır. Hər kəs bu sənətə 1 məqsəd üçün gəlmir. Çoxlarında 100 məqsəd var, amma işini sevmək və doğru görmək onlar arasında yoxdur. Çoxu məşhur olub toya getmək, qohum-qonşu üçün populyar olmaq istəyir. Ona görə də teleaparıcı kimi tanınmır. Onlar gördüyü işə dəyər vermir. Amma istedadlı uşaqlarımız var. Nədənsə, onların da bəziləri Amerikaya gedir. Yəqin orada daha rahat yaşayırlar.

***- Əvvəl tamadalar var idi, indi onları şoumenlər əvəzləyib. Hazırda bir çox aparıcı toylarda şoumenlik edir. Çoxları isə toya getməkdən şikayətçidir ki, işlərinə yaxşı vaxt ayıra bilmirlər.***

- Azərbaycanda aparıcı olaraq toya gedən ilk iki nəfərdən biri mən olmuşam. 2007-2008-ci illərdən söhbət gedir. O zaman mənə hələ toy aparıcılığı çatmırdı. Sadəcə, toy sahiblərinin istəyi olurdu, məni dəvət edirdilər. Mən heç vaxt həyatımı toya bağlamamışam. Ona görə də ayın 30 gününün 25-i toya getmirəm. İndi hamı toya gedir. Allah hər kəsin ruzisini versin. Lakin bəzi aparıcılar var, onlar bəzi şeylər var ki, onu etməməlidi, amma edir.

***- Yeni layihəniz yoxdur, ayda 5 toya ya gedirsiniz, ya getmirsiniz. Necə dolanırsınız? Əlavə biznesiniz varmı?***

- Allah ruzimi yetirir. Əvvəllər biznesim olsa da, indi yoxdur. Toya getməsəm də, tədbirlərə, konsertlərə aparıcı kimi gedirəm, təşkilatçılıq edirəm. Bəziləri düşünür ki, toya getmirsənsə, acından ölürsən. Gedirsənsə, milyonersən. Ayda 15 dəfə 300 manatlıq toya getdiyimə, 2 dəfə gedib eyni pulu qazanıram.

***- Azərbaycanda tanınmış simalar ölkədə baş verən proseslərə münasibət bildirməyə çəkinir, çoxları düşünür ki, mövqe ortaya qoysalar, onlar üçün problem yaranacaq.***

- Məndən hansı mövzuda fikrimi soruşublarsa, demişəm. Məşhurlar isə düşünür ki, hansısa məsələyə münasibət bildirsələr, başqa yerə yozulacaq. Məsələn: Mənim daxilimdə prezidentimizi qarşı sevgi var, onun siyasətini dəstəkləyirəm. Bunu deməkdən də çəkinmirəm. Bu fikrimi kimsə, yanlış anlaya bilər. Məşhurlara da demək istəyirəm ki, fikirlərini bölüşməkdən çəkinməsinlər.

❑ **Könül İBRAHİM**
**Foto müəllifindir**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Elan

**Qəbələdə bağ sahibi olmaq istəyənlərin nəzərinə!**

**Qəbələnin gözəl ərazisi olan Vəndam kəndində yola yaxın, dağın ətəyində, meyvə ağacları ilə dolu 54 sot torpaq sahəsi satılır. Hissə-hissə də (6 sot) almaq mümkündür.**

**Əlaqə telefonu: (050) 371-01-60; (070) 335-90-15**



## Təbib Darya xanım

Onurğa yırtığı, osteoxandroz, sağalmaz yaralar, yanıqlar, uzun müddət yataqdan sonra əmələ gələn yaralar, diabetdə trafik xoralar, varikoz genişlənmələr və digər xəstəlikləri cərrahi müdaxiləsiz, xüsusi məlhəmlərlə və xüsusi metodika ilə inyeksiyalarla müalicə edirəm.

**Tel: 051- 634- 40-01**




## Ebru Gündeşdən boşanma xəbərinə reaksiya: "Rza bəy nə deyirsə..."

**Türkiyəli müğənni Ebru Gündeş hazırda həbsdə olan İran əsilli iş adamı Rza Zərrabdan ayrılması xəbərinə reaksiya verib. Musavat.com Türkiyə mətbuatına istinadən xəbər verir ki, E.Gündeş ərinin mediaya yolladığı yazılı müraciətə və orada yazılanlara cəmi bir cümləlik reaksiya verib: "Rza bəy lazım olanı deyib, qərarım doğrudur".**

E.Gündeş uzun müddətdir ki, həyat yoldaşı ilə boşanmaq istəyib. Amma qarşı tərəfin buna etiraz etməsi nəticəsində proses daim təxirə salınıb. Cütlüyün vəkili Şeyda Yıldırımın bu ilin martında təkzib etdiyi boşanma iddiası dünən hər iki tərəfin təsdiqi ilə mediada yayımlanıb.

Hazırda ABŞ-da məhbəs həyatı yaşayan R.Zərrab vəkili Volga Gökçe tərəfindən mediaya çatdırıb ki, müğənninin boşanma tələbi ilk olaraq, 13 iyul tarixində R.Zərraba çatdırılıb. Son günlər isə E.Gündeş prosesin sürətləndirilməsini tələb edib. Nəhayət, dünən boşanma vəkalətnaməsi R.Zərraba çatdırılıb.

Rza Zərrab bəyanatında bunları bildirir: "13.09.2016-cı ildə arvadım Əbru Gündəş vəkili vasitəsilə tərəfimə boşanmaq istədiyini çatdırıb, eyni zamanda prosesi dərhal yekunlaşdırmaq üçün yenə də vəkili vasitəsilə mənə təzyiq göstərib və son olaraq 23.09.2016-cı il tarixdə boşanma vəkalətnaməsini tərəfimə göndərmiş vəziyyətdədir. İçərisində yer aldığım bu sıxıntılı mərhələyə baxmayaraq arvadımın boşanma qərarını hörmətlə qarşıladığımı ictimaiyyətə bildirirəm. Hörmətlə, Rza Zərrab".

❑ **SEVİNC**



## Rövşən Lənkəranskinin düşmənlərinə qarşı birləşdilər

**Berlində azərbaycanlı "qanuni oğru" Rövşən Canıyevin (Lənkəranski) düşmənlərinə qarşı türk və çeçen mafiya klanları birləşib. Bu barədə sputnik-ə kriminal aləmə yaxın olan mənbə məlumat verib.**

Klanların birləşməsi Rövşən Lənkəranskinin yaxın dostu və Avropa "obşakı"na (xəzinəsinə) nəzarət edən çeçen Həmzət Qastamirovun (Şeyx Həmzət) təşəbbüsü ilə baş verib. Şeyx Həmzət qüvvələrini son illər Almaniyada yaşayan mafioz klanın lideri Bülənt Bafralı və cinayətkar aləmdə nüfuzlu olan Sedat Şahinlə birləşdirib.

Mənbənin bildirdiyinə görə, belə bir birləşmə kriminal aləmdə son 26 ildə ilk dəfə baş verir. Türk və çeçen mafioz klanları 2013-cü il yanvarın 13-də öldürülmüş Aslan Usoyanın (Ded Xasan) klanına qarşı birləşib.

## Göygöldə toy karvanında qəza - 1 ölü, 7 yaralı

**Göygöl rayonunda ölümlə nəticələnən yol nəqliyyat qəzası baş verib. APA-nın qərb bürosunun məlumatına görə, hadisə rayonunun Yeni Qızılca kəndində qeydə alınıb. Toy karvanında hərəkət edən "Niva" markalı avtomobil "VAZ 2107" markalı avtomobilə toqquşub. Qəza nəticəsində 1 nəfər ölüb, 7 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Yaralılar Gəncə Şəhər Təcili Tibbi Yardım Xəstəxanasına yerləşdirilib.**

Faktla bağlı Göygöl Rayon Polis Şöbəsində araşdırma aparılır.

YENİ MÜSAVAT
N 211 (6532) 26 sentyabr 2016

# Dünyadakı səs-küylü, ilginc, gülməli və bahalı boşanma hadisələri

## Varlılar ayrılanda sərvətləri də yerindən oynayır...

**Son bir həftədə Azərbaycan oxucusu üçün yaddaqalan iki boşanma hadisəsi oldu. Bunlardan biri Hollivud ulduzları Ancelina Coli ilə Bred Pit, digəri isə Rza Zərrabla Ebru Gündəşin boşanma xəbəri oldu. Bu xəbərlərin hər ikisi bir anda medianın gündəmində yerləşdi.**

"Yeni Müsavat" mövzunun aktuallığını nəzərə alaraq, dünyadakı səs-küylü boşanma hadisələrinə nəzər salıb. Məlum olub ki, xeyli qabarıq siyahı formalaşıb. Öncə ilginc, hətta deyərdik, gülməli boşanma olaylarının siyahısına diqqət yetirək.

Hindistanın Bombey şəhərində bir nəfər həyat yoldaşından daha çox sevgi-məhəbbət istədiyi, amma bu istəyinə cavab ala bilmədiyi üçün boşanma ərizəsi ilə məhkəməyə müraciət edib. O, ərizəsində arvadı tərəfindən məcbur edildiyi üçün dərmanlar qəbul etdiyini, amma bu dərmanlar üzündən də xəstəxanaya düşdüyünü deyib. Arvadının istəklərini yerinə yetirməyi rədd etdiyi zamanlarda isə yoldaşının təhdidi ilə qarşılaşdığını söyləyib. İddia boşanma ilə nəticələnib. Ancaq bu bilinən ən qəribə boşanma hekayəsi deyil.

İtaliyada anasından ayrıla bilməyən kürəkən, bal ayına gedəndə anasını da apardığı üçün evliliyi 3 həftə çəkib. Almaniyada bir qadın həyat yoldaşının təmizlik xəstəliyi üzündən boşanmağa qərar verib. Yaxşı bəs niyə? Yoldaşının son qərarı "çirkli" olduğu üçün divarı uçurub yeni divar tikmək istəyi olub. 15 ilin tamamında evlilik başa çatıb.

30 yaşında olduğu halda yoldaşına 24 yaşı olduğunu söyləyən qadının yalanı 10 il sonra açılıb. Bu yalan isə boşanma ilə nəticələnib.

2001-ci ildə evindəki quşlar sayəsində bir qadın həyat yoldaşının onu aldatdığını öyrənib və boşanmağa qərar verib.

99 yaşı olan ər 96 yaşlı yoldaşının 60 illik eşq məktublarını tapdığı üçün boşanma ərizəsi ilə məhkəməyə üz tutub. Bu ayrılıqla dünyanın "boşanan ən yaşlı cütü" adı ilə "Ginnesin rekordlar kitabı"na düşüblər.

Fransız bir qadın həyat yoldaşını 20 ildir onunla yaşamadığı üçün məhkəməyə verib. Hakim "romantik zərər" verdiyi üçün ərə 14 min dollar dəyərində təzminat cəzası verib və onları boşayıb.

**Bunlar boşanma yox, sərvət xərclənməsidir**

Amerikanın Celebrity Cafe portalı məşhurlar arasında ən bahalı boşanmaların reytinqini müəyyənləşdirib. Reytingə Maykl Cordan ilə xanımı Xuanitanın boşanması başçılıq edir. 17 il birgə yaşadıqdan sonra 2006-cı ildə ayrılmış cütlüyün boşanması Cordana 168 milyon dollara başa gəlib. O, eks-xanımına məhz bu qədər pul ödəyib.

İkinci yerdə müğənni Nil Daymond və prodüseri Mörfinin boşanmasıdır. Mörfi bundan 150 milyon dollar qazanıb.

İlk üçlüyü məşhur rejissor Stiven Spilberqlə aktrisa Emi



İrvinqin boşanması qapayır. Boşanma Spilberqə 100 milyon dollara başa gəlib.

Sərvəti "Forbes" tərəfindən 8,8 milyard dollar qiymətləndirilən rusiyalı milyarder Dmitri Rıbolovlev keçmiş arvadına 3,3 mlrd avro (4,5 mlrd dollar) ödəməli olacaq. Bu qərarı Cenevrə məhkəməsi verib. Ərlə arvad evlənəndə nikah müqaviləsi bağlamayıblar. Buna görə də İsveçrə qanunvericiliyinə görə, onların bütün əmlakı evlilik dövründə birgə yığılmış sərvət sayılır, uyğun olaraq boşanma zamanı yarı bölünür. Amma vəkil bildirir ki, Cenevrə məhkəməsinin qərarından şikayət etmək mümkündür. Ər-arvad birlikdə 24 il yaşayıb, altı ildir ki, əmlakı bölməklə məşğuldurlar. Rıbolovleva 2008-ci ildə boşanma ərizəsi verib və buna səbəb ərinin ona xəyanət etməsi olub.

Onluqdakı sonrakı cütlüklərin qiymətlərində kəskin azalma müşahidə edilir. Müasir şou-biznesdə sənətçilər pulları ilə ehtiyatlı davranmağa üstünlük verirlər. Məsələn, müğənni Madonna və həyat yoldaşı Qay Riçinin boşanması 92 milyon dollara başa gəlib. Digər tanınmış rejissor Ceyms Kameron həyat yoldaşı, aktrisa Linda Hamiltona vur-tut 50 milyon ödəyib. "Bitlz" qrupunun keçmiş üzvü Pol Makkartninin qalmaqallı boşanması isə ona nisbətən ucuz başa gəlib. Müğənni həyat yoldaşı Hizer Millzə 46,8 milyon dollar verməli olub.

Reytinqi aktyor Maykl Duqlas və Diandra Lyükerin boşanması bağlayır. Cütlük 45 milyon dollarla nikahlarını pozublar. Aktyor Rassel Brend 30 dekabrda Keti Perri ilə boşanmaya verdi. Cütlük 2010-cu ilin oktyabrında evləndi. Müsahibədə 36 yaşlı Mark jurnalistlərə bildirib: "Təəssüf ki, Keti və mən ayrılırıq, amma mən həmişə onu sevəcəyəm, biz dost qalacağıq".

İnneyd O'Konnor 8 dekabrda Las-Veqasda Barri Xerridjaya ərə getdi. Cütlüyün nikahlarının 18 günündən sonra boşanıblar. Aktyor Terrens Xovard və arvadı Mişel Gent 2010-cu ilin yanvarında gizli evlənib. Amma Gent barışmaz fikir ayrılıqlarına istinad edib keçən ilin fevralında boşanmaya qərar verib.

**Arvadını itirib, amma ən bahalı boşanma onunkudur...**

ABŞ-ın və dünyanın ən zəngin iş adamlarından biri, neft maqnatı Harold Hemm arvadını itirsə də, dünyanın ən bahalı boşanmasını gerçəkləşdirmiş adam kimi tarixə düşüb. Oklahoma ştatının məhkəməsinin qərarı ilə multimilyarder ondan boşanan arvadı Syu Enn Ernalla 995,5 milyon dollar məbləğində təzminat ödəyib. "Continental Resources" neft-qaz korporasiyasının banisi və sahibi, dünyanın ən varlı adamlarından birinin arvadına ödəməli olduğu 995,5 milyon dolların 1/3 hissəsi ötən ilin sonunadək Syu Enn Arnalla çatmalıydı. Hemm yerdə qalan məbləği ayda ən azı 7 milyon dollar olmaqla ödəməlidir. Hemmin məbləği vaxtında ödəyəcəyinə əmin olmaq üçün məhkəmə "Continental Resources" korporasiyasının 200 milyon dollarlıq səhmlərini girov götürüb.

2012-ci ildə Harold Hemmin ona xəyanət etdiyini aşkarlayan Syu Enn Arnall o vaxtdan bəri təzminat qismində 25 milyon dollar alıb. Harold Hemmin vəkilləri apelyasiya iddiası qaldırıblar və təzminatın məbləğini azaltmağa çalışıblar. Lakin Syu Enn Arnall ərinin ona ünvanladığı $ 974800000 dollarlıq bank çekindən imtina edib.

O, vəkillərinə yeni prosesə başlamağı tapşırıb. Xəyanətə məruz qalan və boşanan Syu Enn Ernall indi ərindən təzminat qismində 18 milyard dollar tələb edir. Boşanma prosesi əsnasında Syu Enn ərindən Kaliforniyada yerləşən 14,7 milyon dollarlıq rançonu, habelə Oklahomada olan 4,6 milyon və 800 min dollarlıq iki villanı alıb.

**Məşhurlar boşanır, çünkie bu, onlara sərfəlidir**

Məşhurlarla daim işləyən vəkillər isə mediaya verdikləri açıqlamalarda bildirirlər ki, bu cür cütlüklərin ailə həyatını davam etdirməsi olduqca çətindir. Belə ki, onların həyatı daim medianın gözü önündə olur. Hər şeylərini publikaya hesablayaraq yaşayırlar. Bundan başqa, pul və aşırı lüks də insanların istəklərini "azdırır". Onlar hər şeyi uc nöqtələrdə yaşadıqları üçün bir müddət sonra ailə həyatının sıradan, monoton ritmi yorucu və sıxıcı gəlməyə başlayır. Vəkillərin dediklərinə görə, adətən belə izdivaclarda qeyri-adi problem olmur. Maddi məsələlər heç vaxt mübahisə predmeti olmur. Aşırı kapriz, eqo savaşı, istəksizlik... cütlüyün bir-birindən soyumasına səbəb olur. Ən önəmlisi isə ulduzların dünyasında hər şey olduğu kimi, hisslər də tez tükədilir, xərclənir. Bəzən evliliklər də, boşanma kimi reytinqə hesablanır. Daha çox gündəmdə qalmaq, disk satışı, yeni filmin vizyonda populyarlığı... bütün bunlar da sanki həmin alverin tərkib hissəsi olur. Məsələn, müğənni və ya aktyorların əksəriyyəti boşanmasını məhz karyerasında hansısa addım atmadan öncə edir. Bununla da həmin addımına diqqət çəkməyi başarır. Düşünün, bir var "Ebru Gündəş boşanır" xəbərini oxuyasınız, bir də var "Yeni diski bu günlərdə işıq üzü görəcək Ebru Gündəş boşanır"... Sonuncu halda diqqətiniz avtomatik olaraq onun diskinə yönəlməyəcəkmi?..

**Odur ki, belə xəbərləri oxuyub, təəssüflənmək yerinə, olayın pərdə arxasına baxmağı da təklif edərdik.**

**❑ Sevinc TELMANQIZI**



# Bakı-Sumqayıt şosesində 1 km yolun təmiri 4 aydır bitmir

## Ləng aparılan inşa işləri Ceyranbatan ərazisində xaotik vəziyyət yaradıb; burada hər gün qəzalar baş verir

**May ayının sonlarından Bakı-Sumqayıt yolunun Ceyranbatan qəsəbəsindən keçən hissəsi təmirə bağlanıb. Təxminin 1 km məsafədə aparılan təmir-bərpa işləri isə düz 4 aydır ki, bitmək bilmir. Məsələ ondadır ki, öncədən ləng gedən inşa işləri faktiki olaraq 1 aya yaxındır ki, dondurulub. Ərazidə günlərdir müşahidə aparan əməkdaşımız qazılıb-dağıdılmış ərazidə heç bir texnikanın işləmədiyinin şahidi olub. Yalnız bir neçə fəhlə gözə dəyir ki, onlar da texnikaya nəzarət edirlər. Yolu qazıb, bir az çınqıl töküb dayanıblar.**

Məsələnin narahatedici tərəfi odur ki, təmirə bağlanan yolda - Ceyranbatan qəsəbəsi ərazisində avtomobillərin hərəkəti aylardır iflic olub. Yol Ceyranbatanın əsas giriş-çıxışının qarşısından birtərəfli qaydada bağlanıb. Nəticədə Bakı-Sumqayıt yolu ilə intensiv hərəkət edən maşınlar burada tıxac yaradır, qəsəbəyə dönən maşınlar da bir yandan yolu bağladığı üçün hərəkət iflic olur. Burada hər gün pik saatlarda yol keçilməz olur, Ceyranbatana dönüşdə mütəmadi şəkildə qəzalar baş verir. Təmir bərpa işlərini həyata keçirənlər qəsəbənin digər (köməkçi) giriş-çıxış yolunu, həmçinin əsas girişə dönüş yerini də bağladıqları üçün burada xaotik bir vəziyyət yaranıb. Adətən, yolları təmir edəndə əsas yolda hərəkət çətinləşərkən köməkçi giriş-çıxışları açıq saxlayıb, hərəkətin intensivliyini bərpa edirlər. Ceyranbatanda isə bunun əksinədir, qəsəbəyə daxil olmaq üçün dönüş yerini belə lüzum olmadan qapadıblar.

Nəzərə çatdıraq ki, bu ərazidə yol hələ bir neçə il öncədən dağılmağa başlamışdı. Bu ilin əvvəllərindən isə həmin ərazidə yol tamamilə sıradan çıxdı və təmirə dayandırıldı.

Nəzərə çatdıraq ki, Bakı-Sumqayıt yolunu 2006-2009-cu illər ərzində "Akkord" şirkəti inşa edib. O zaman şirkət bu yolun 30 il müddətində dağılmayacağını, bu müddət ərzində fasiləsiz istismar ediləcəyini bildirmişdi. Ancaq nəinki 30 il, təxminən 3 il sonra - 2012-ci ildən Bakı-Sumqayıt yolunda müxtəlif yerlərdə çökmə, qabarma və dağılmalar başladı. Hazırda yolun xeyli hissəsinin təmirə ehtiyacı var.

**Qeyd edək ki, Bakı-Sumqayıt-Quba yolunun inşasına 600 milyon manata yaxın vəsait xərclənmişdi.**

**❑ M.MAHRIZLI**
**❑ FOTO müəllifindir**



YENİ MÜSAVAT
Son səhifə
N 211 (6532) 26 sentyabr 2016

# Qadınların ayrılarkən etdikləri səhvlər

**Ayrılıqlar hər zaman çətindir; amma ayrılarkən dəqiq sərhədlər və riayət edilməsi lazım olan qaydalar var. Kişilər qəbul etmir, amma onların da hissləri var. Əgər onlar düzgün bir şəkildə sizin getməyinizə icazə verirsə, sizdən də eyni şeyi gözləyirlər.**



Qadınların etdiyi əsas səhvlər:

- Ayrılan və ya üzülən də olsanız da bunu siz etmədiyinizdən əmin olmaq.
- Onu utandırmaq üçün şayiə yaymaq.
- Ən yaxın dostu ilə birlikdə olmaq.
- Sosial mediada terror etmək.

5. Onu daha da çox sıxmaq.
6. Üzr istəməyə çalışanda kobudluq etmək
7. Günahlandırıcı olmaq
8. Ayrılıqların da bəzən münasibətlər üçün şərt olduğunu qəbul etməmək

# Facebookda reklam düşmənlərini... ciddi təhlükə gözləyir




**Facebook-un vitse-prezidenti Endryu Bosvort bildirib ki, reklam xarakterli elanlar şəbəkənin fəaliyyətinin ayrılmaz hissəsidir. Bu səbəblə rəhbərlik həmin reklamların əks olunma formatını dəyişərək bir çox istifadəçinin brauzerində qurulmuş reklam bloklayan sistemlərin işini çətinləşdirəcək. Eyni, zamanda sosial şəbəkə daha individual yanaşma tətbiq edəcək. Belə ki, istifadəçilər konkret mövzu üzrə (məsələn, səyahət) reklamın görüntüsünü aradan qaldıra və ya konkret bir şirkətin elanlarından imtina edə biləcəklər.**

Şirkətdən bildiriblər ki, pis hazırlanmış bannerlər istifadəçiləri qıcıqlandırır və onların vaxtını alır, ona görə də reklam bloklayan sistemlər populyarlaşır, halbuki reklamlar faydalı ola bilər: “Faydalı reklamların köməyi ilə yeni xidmətlər, məhsullar əldə etmək, eləcə də vacib informasiyalar öyrənmək, lazımlı kampaniyalardan (endirim, aviabilet və s.) xəbər tutmaq mümkündür”.

“The Wall Street Journal” qəzeti yazır ki, “Facebook”un reklam gəlirlərinin 84%-i sosial şəbəkənin mobil versiyanın payına düşür, çünki bu versiyada reklamlar nadir hallarda blok olunur. ABŞ-da personal kompüter istifadəçilərinin 26%-i reklam bloklayan sistemlərdən istifadə edir.

Xatırladaq ki, iyul ayının sonunda “Facebook” növbəti rüblük hesabatını təqdim edib. Buna əsasən fəal istifadəçilərin sayı 1,7 milyard nəfəri ötüb, gün ərzində sosial şəbəkəyə 1,13 milyard adam daxil olur.



# Ən ucuz mobil interneti olan ölkələr bunlardır

**Ən ucuz mobil internet olan ölkələrin reytinqində Polşa, İran və Rusiya liderlik edir.**

Bu, “Promokodabra” araşdırma xidmətinin tədqiqatlarının nəticəsində məlum olub.

Şirkət turistlər arasında ən populyar 50 ölkənin siyahısını hazırlayıb. Tədqiqat zamanı öncədən 3 qb internet trafiki üçün ödənilmiş SİM-kartın qiyməti nəzərə alınıb. Rubla çevirdikdə ən kiçik rəqəm Polşada alınıb. Bu ölkədə 3 QB internet trafiki 171 rubla (4,13 manata) başa gəlir. Müqayisə üçün deyək ki, Fransada bu rəqəm 9 dəfə çoxdur.

İran və Rusiya isə olduqca ucuz internet trafiki ilə ilk üçlüyə daxil olub. İranda bu rəqəm 282 rubl (6,82 manat), Rusiyada isə 350 rubla bərabərdir (8,47 manat).

O qədər də baha olmayan internet trafiki olan ölkələrin siyahısında Avstriya, Braziliya, Mozambik, Hindistan, Argentina, Misir və İndoneziya da yer alıb. Hər zaman şəbəkədə olmaq istəyən turistlər üçün ən bahalı ölkə isə Birləşmiş Ərəb Əmirlikləridir. Bu ölkədə 3 qb trafik 2 740 rubl və ya 66,30 manatdır.

Ümumilikdə ən ucuz qiymətlərlə Asiya və Afrika ölkələri fərqlənir. Şimali Amerika ölkələri isə göstəricilərinə görə Birləşmiş Ərəb Əmirliklərinə daha yaxındır. ABŞ və Kanadada tarif panı 2 013 rubl (48,71 manat) və 2 036 rubl (49,27 manat) təşkil edir.

Çin və Yaponiyada da mobil internet bahadır.




**QOÇ** - Əgər səhhətiniz normal deyilsə, bu gün mütləq həkimə müraciət edin. Yoxsa, yatağa düşə bilərsiniz. Gümrah olduğunuz təqdirdə isə ikitərəfli əməkdaşlığa başlaya bilərsiniz.

**BUĞA** - Ailə-sevgi münasibətlərində hər şey ürəyinizcə olsa da, fəaliyyət zəminində ciddi xoşagəlməzliklər mümkündür. Ümumiyyətlə, yaxşı olar ki, əsas vaxtınızı evdə keçirəsiniz.

**ƏKİZLƏR** - Bir qədər gərgin gündür. Ətrafınızda sizə mane olmaq istəyənlər arta bilər. Bu səbəbdən də maksimum tədbirli olmalısınız. Hər kəsə inanmayın. Bir anlıq neytral mövqe seçin.

**XƏRÇƏNG** - Həyatınız üçün mühüm olan vəzifələri kimlərinsə mənafeyinə qurban verməyin. İndi yalnız özünüz üçün çalışmalısınız. Aldığınız təklifləri dönə-dönə götür-qoy edin.

**ŞİR** - Bir qədər mübahisəli gündür. Çalışın ki, özünənəzarət prinsiplərinə riayət edib təmkininizi qoruyasınız. Səhər saatlarından bürcünüzə daxil olan Ayın neqativ təsirini də unutmamalısınız.

**QIZ** - Bütün vaxtınızı işə həsr edin. Çünki münasibətlər zəminində elə bir uğurunuz olmayacaq. Olsa-olsa, axşama doğru ürəyinizə yaxın olan adamlara baş çəkə bilərsiniz.

**TƏRƏZİ** - Təxminən saat 14-ə qədər bütün vacib işlərinizi yekunlaşdırın. Çünki sonrakı ərəfə bu istiqamətdə uğursuz ola bilər. Sizə qarşı irad bildirənlərə qarşı dəliqanlı olmayın.

**ƏQRƏB** - Xeyirxah Fikir, Xeyirxah Söz, Xeyirxah Əməl! Müqəddəs Avestadakı bu üç prinsipə sadiq qalın. Gələcəyinizin açarı da məhz bundadır. Nədənsə sizdə Xeyirxah Fikir lazımınca alınmır.

**OXATAN** - Kifayət qədər mistik gündür. Qara qüvvələr ruhunuza müdaxilə edə bilər. Odur ki, bəri başdan tədbirli olun. Nahardan sonra müqəddəs ziyarətgahalara baş çəkməklə rahatlanacaqsınız

**OĞLAQ** - Sevindirici hadisələr yolunuzu gözləyir. Qayğınıza qalanlar xeyli artacaq. Əmin olun ki, bəd günləriniz arxada qalmaqdadır. Ağzıdualı olun ki, İlahinin diqqətini çəkəsiniz.

**SUTÖKƏN** - Maraqlı görüşlər yolunuzu gözləyir. Bu, daha çox işgüzar əlaqələr zəminində baş verəcək. Saat 16-dan sonrakı ərəfəni isə bütünlüklə sevgiyə həsr edin. Qaba rəftardan uzaq olun.

**BALIQLAR** - Kifayət qədər uğurlu gündür. Qarşıya qoyduğunuz bir çox məqsədlərə nail ola biləcəksiniz. Əlalxüsus da məhəbbət məsələlərində hər şey ürəyinizcə olacaq. Heç kimə yalan vəd verməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Çox işləmək insanı alkoqolik edir



**Alimlərin beynəlxalq araşdırma qrupu alkoqol istifadəsi və iş saatının uzunluğu arasında əlaqəni müəyyən etmək üçün tarixinin ən böyük araşdırmasını aparıb. Problem üzrə 61 tədqiqatda 14 ölkədən 330 min nəfər iştirak edib. Tədqiqatlar normadan çox işləyən adamların alkoqola daha meylli olduğu faktını ortaya çıxarıb. Çünki əlavə iş insanda depressiya, stress, yuxu ilə bağlı problem yaradır. Alkoqol isə belə mənfi effektlərdən uzaqlaşmağa kömək edir.**

Avropa Birliyində standart iş müddəti həftədə 40 saatdır. Əgər işçinin norması 48 saata çatırsa, bu içilən spirtli içkilərin miqdarını 11% artırır. 49 saatdan yuxarı 13% artım müşahidə olunur. Depressiya və yorğunluq nəticəsində yaranana içki içmək istəyi kişilər üçün daha xarakterikdir, nəinki qadınlar. Araşdırma göstərir ki, bu coğrafiyadan, insanların iqtisadi, sosial vəziyyətindən asılı olmayaraq hamı üçün eynidir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Zahid SƏFƏROĞLU
“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “E-Q” mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 4.750